
ZƏLİMXAN YAQUB

ƏSƏRLƏRİ

ON ÜÇ CİLDDƏ



"Şərq-Qərb"
Bakı – 2013


ZƏLİMXAN
YAQUB

Mənə güc ver, Allahım!
Enişlərə enməyə,
Yoxuşlara dırmaşağa,
Tanrılığım bir əsrlə
Həzrəti Məhəmmədin
Ətəyini sıxmağa!
Peyğəmbərim yaxşılara,
Əyri dayağım olsun,
Onun axalandığı
Sur dağı dağım olsun!

Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, X cild.
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 360 səh.

Tərtib edəni və
redaktoru: **Musa NƏBİOĞLU**

Xalq şairi Zəlimxan Yaqubun 13 cildlik "Əsərləri"nin X cildinə "Peyğəmbər" və "Mövlanadan Şəmsə doğru" poemaları daxil edilmişdir.

ISBN 978-9952-34-951-1

Şərq Qərb 1986-cı ildən East West since 1986

www.eastwest.az
www.fb.com/eastwest.az

© Zəlimxan Yaqub, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

PEYĞƏMBƏR

SƏNƏ SALAMLAR OLSUN, YA MƏHƏMMƏD MUSTAFA!

İşıqlı dünyamıza
işıqtək gəlişinə,
Məkkədə əyilən işinə,
Bədrdə sındırılan dişinə,
Döyüşdə çapılan üzünə,
Ühüddə yaşaran gözünə,
Zərbədən qanayan
sifətinə,
Sonu aydınlıq olan
çətinə,
Ən gərgin anında da,
ölümün yanında da,
Haçalanmaq bilməyən
böyük həqiqətinə
Bizdən salamlar olsun,
ya Məhəmməd Mustafa!

Həmişə ayıq-sayıq,
həmişə sənə layiq,
"Siddiq"lər[1] sırasında
sənə dost, sənə sadiq,
Səni candan çox sevən
orduna, əsgərinə,
O alayın gücünə,
səsinə, səngərinə,
O igidin dağları
titrədən ləngərinə,
Basılmaz qeyrətinə,
tükənməz təpərinə,

Uca "Bismillah"ına,
"Allahu-Əkbər!"inə,
Bizdən salamlar olsun,
ya Məhəmməd Mustafa!

Kafiri lənətlə qoşa,
müşriki bağrı daş gördün,
Kafirin dilində zəhər,
mömini uca, baş gördün.
Yaşadığın illərin
sayından çox savaş gördün,
Dünyaya lənət üçün yox,
rəhmət üçün gəldin,
Sevgi üçün, barış üçün,
mərhəmət üçün gəldin.
Barışda rəhmli,
Düşmənə münasibətdə
Düşüncəli, təmkinli,
fəhmli.
Əhddə sədaqətli,
sevgidə əlaçıq,
Ən gərgin anda belə
Ürəyində nə kin-küdurət,
nə acıq;
Sənin böyük cəbrinə,
dözümünə, səbrinə
Bizdən salamlar olsun,
ya Məhəmməd Mustafa!

Milyonların içində
Allah sanadı, saydı,
İslamı bu dünyaya
sənin eşqinlə yaydı.
Heç vaxt qəm eləməzdin,
Şeytanın, şeytanlığın

Əbu Süfyanı[2],
Əbu Ləhəbi[3],
Əbu Cəhli[4],
Müaviyəsi[5],
Mərvanı[6],
Yezidi[7]
olmasaydı!
Allahın qüdrətiylə
yendin yenilməzləri,
Sən özünə tanıtdın
özünü bilməzləri.
Sənin dara düşdüyün,
ölümlə görüşdüyün,
Ən narahat anlara,
Adını çəkən zaman
qalxıb ucalanlara
Bizdən salamlar olsun,
ya Məhəmməd Mustafa!

Bizim çəkdiklərimiz
toya getməlidir,
Bu dünyanın dərdini
nə çəkdinsə, sən çəkdin.
Məkkəli müşriklərdən,
Mədinəli münafiqlərdən
çəkdin.
Müşriklər düşməndi
açıq-açığına,
Hər alçaqlığa gedir
sənin acığına.
Xeyir donunda gələn
şər qorxuludur,
Dilində sənə dost,
Ürəyində sənə düşmən
münafiqlər qorxuludur.

Üz-üzə gələndə
sənin tərəfində duranlar,
Sənə dost olmaqdan
dəm vuranlar,
Xəlvətə düşəndə möminə
qəsd edib,
Müslümü susduranlar
qorxuludur!
Hiylənin torunu toxuyanlar,
Quranı yalandan
görk üçün oxuyanlar,
Nəfəsi küfr qoxuyanlar,
Addımbaşı hiylə quranlar
qorxuludur!
Bunu gördük avand işin
tərsinə yozulanda,
Bunu gördük "Hüdeybiyyə"[8] sülhü
xaincəsinə pozulanda.
Bunu gördük Bədrdə[9], Ühüddə[10],
Mütədə[11], Xəndəkdə[12], Xeybərdə[13],
Bunu gördük həqiqət
libasına bürünmüş
Neçə-neçə yalançı xəbərdə.
Bunu gördük Məkkə müşrikləri
Peyğəmbər anası
Əminə anamızın
Məzarını eşmək fikrinə düşəndə.
Bunu gördük
Hicrətin dördüncü
ilində,
Bayquşlar yuvasında,
xəyanət mənzilində!
Səfər ayında,
Raci faciəsində,
Asim ibn Sabitin

Altı nəfərlə birgə
Şəhid olan məqamda
"Allah, Məhəmməd!" deyib,
Haqq çağıran səsində!
Bu qədər rəzalətə,
bu qədər xəyanətə,
Dözüm, səbir göstərən
böyük təbiətinə,
böyük məhəbbətinə
Bizdən salamlar olsun,
ya Məhəmməd Mustafa!

Sənin görüb-bildiyin
ağır müsibətləri,
Çaşbaş düşən yolları,
çarpaz düşən xətləri,
Çəkilməyən dərdləri,
ağır olan şərtləri;
Kürəyə bıçaq vuran
qaniçən namərdləri,
Haqqa çağırmaq üçün
cəsarətlə savaşdın,
Rəzilliyi susdurub
rəzalətlə savaşdın,
Köləliyi rədd edib
əsarətlə savaşdın,
Cahilliyə son verib
cəhalətlə savaşdın.
Bütün çarpışmalarda
Cahillik azarından
Xilas etmək istədin
bəşərin həyatını,
Yaradanın yolunda
Qorxu hissi bilməyən
bir qüdrətlə savaşdın.

Sənin eşqin yolunda
oğullar başdan keçib,
Sənin sözün haqq olub,
ox kimi daşdan keçib,
Ömrün neçə zəfərdən,
neçə savaşdan keçib,
Ömür – nə gözəl ömür,
həyat – nə gözəl həyat.
Hər günün, hər saniyən,
hər saatın mübarək!
Min illərə dərs olan
bu həyatın mübarək!
Qaliblər sərkərdəsi,
qəzavatın mübarək!
Bağlandığın qüdrətə,
Sənin sahib olduğun
böyük əbədiyyətə
Bizdən salamlar olsun,
ya Məhəmməd Mustafa!

Ənsarla mühaciri,
müşrik ilə mömini,
Kafirlə müsəlmanı
gətirib bir araya
Məlhəm qoymaq istədin
Təfriqədən, hiylədən
Bəşərin qəlbindəki
sağalmayan yaraya!
"İnsan həlak olmasın
avamlığın əlində,
qoy çəkməsin ah!" dedin,
"İnsanın, insanlığın
Yeganə xilaskarı
Allahdı, Allah!" dedin.

Sənin inandığına,
Mənim inandığıma
Bizdən salamlar olsun,
ya Məhəmməd Mustafa!

Bütün vuruşmalarda
Haqqın yanına varan,
Bütün çaxnaşmalardan
sağ-salamat qurtaran,
Savaşlardan daha çox
barışlara can atan,
Bütün arzularına
"Bismillah" deyib çatan,
Sevgim, sevgilim, yarım,
ey Əhmədi-Muxtarım!
Allahın vergisiydi
ağlın, elmin, ədəbin,
Ömür-gün yollarında
bircə idi məramın,
bircə idi mətləbin.
Hər gün sayı çoxalsın
"İnsani-kamil"lərin,
İşləri dolaşmasın
"Allah" deyən dillərin.
İnsan haçalanmasın,
Tapsın səadətini
Allaha inamında,
Dinin, ruhun, məsləkin
bütövündə, tamında.
İnsanların üstünə
şər suyu calanmasın,
Haqqa doğru yönəlsin,
yollar parçalanmasın.
Bu möhtəşəm niyyətə,

Allah qarşısındakı
böyük məsuliyyətə
Bizdən salamlar olsun,
ya Məhəmməd Mustafa!

Sən hər dəfə çəkəndə
Yaradanın adını,
Gərirdi başın üstə
Cəbrayıl qanadını.
Sənlə çiyin-çiyinə
mələklər savaşırdı,
Sənin qələbən üçün
Girib mələk donuna
Səhrada qasırğalar,
küləklər savaşırdı.
"əz-Zuha"[14] surəsini
sənə endirən Allah,
Səni peyğəmbər kimi
şirin dindirən Allah,
"Axirət bu dünyadan
xeyirlidir" deyəndə,
Səni peyğəmbər kimi
qaldıranda, öyəndə,
Yetim bir uşaq ikən
sığınacaq verəndə,
Qırx yaşa çatan kimi
Quranı göndərəndə,
Canında, cövhərində
Uca peyğəmbərliyi
toxum kimi əkəndə,
Rəbbin heç vaxt, heç zaman
səni tərk etməyəndə,
Səni qalib yaratdı
qələbələr naminə.
Sənin ölməz ruhunu
"əl-Kövsər"lə[15] süslədi,

Hökmüylə, fərmanıyla
Ancaq səni çağırdı,
ancaq səni səslədi.
Ruhun ucadan-uca,
ağlın dərindən-dərin,
Sənə sonsuz deyənin
özünə sonsuz dedi,
Verdi sərt cavabını
As ibn Vaillərin[16],
Qıfıl vurdu ağzına
yaman deyən dillərin.
Şərəf bəxş etdi Tanrı
Haqdan gələn zatına,
Qiyamət gününədək
gətirəcək yadına,
Salavat göndərəcək
onlar sənin adına.
Qiyamət gününədək
Onların ömrü-günü
toydan, yasdan keçəcək,
Səni sevən nəsillər
Ən müqəddəs qapıdan –
"əl-İxlas"dan[17] keçəcək.
Özü hər şeydən uca,
sözü hər şeydən baha,
Həmd olsun, şükür olsun
Bizləri xəlq eləyən
Yaradana, Allaha!
Ey uca Yaradanım!
Gözümdə qoyma mənim
istəyimi, kamımı,
Yazdığım bu əsərlə
Peyğəmbərə sən yetir
mübarək salamımı!!!

MİNACAT

De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!"
("əl-Ənam" surəsi, 162-ci ayə)

Düşdüm Peyğəmbərdən
yazmaq eşqinə,
Sidq ilə, sevgiylə
"Bismillah" dedim.
"Məndən əsirgəmə
məhəbbətini,
Güc ver varlığıma,
ya Allah!" dedim.
Ağırdı bu işin
altına girmək,
Çətindi bu yükə
çiynimi vermək.
İradəm bu işə
gətirməsə tab,
Sirdaşım dərd olar,
qismətim əzab.
Səndən verilməsə
xeyir-duası,
Səndən yetişməsə
nuru, ziyası,
Səndən yoğrulmasa
xəmri, mayası,
Nə əsər yaranar,
nə kitab olar.
Alimin qazancı
ürəkağrısı,
Şairin qazancı
iztirab olar.

Qarşıda bir eşqin
imtahanı var,
Etmə bu yollarda
meydanımı dar!
Səndən umacağım,
umduğum budur,
Qırma ürəyimi,
ey Pərvərdigar!
Kövsər irmağıtək
durulsun qanım,
Eşqindən od ver ki,
alışsın canım.
Ruh ver, nəfəsinlə
sağalsın yara,
Nur ver, işıq salım
qaranlıqlara!
Dil ver, bal eləsin
sözüm dilləri,
Yol ver, rahat keçim
bu mənzilləri.
Söz ver, islam adlı
dinindən yazım,
Toxumundan yazım,
dənindən yazım.
Göz ver, bir qatında
yeddi qat görüm,
Zahiri anlayım,
batini seçim.
Uzaq bir səfərə
ehtiyat görüm,
İslamın pirindən,
mərdindən yazım.
Yazım Məhəmmədin
səadətindən,
Yazım Peyğəmbərin
dərdindən, yazım.

İslamın eşqinə
tikib-qurduğum
Qalanı göstərim,
bürcü göstərim.
Öhdəmə düşəni
çatdırım başa,
Qaytara bildiyim
borcu göstərim.
Ağırmı, yüngülmü,
boşmu, dolumu,
Bu elmin yükünü
axtarım, tapım.
Fürsət ver, bugünkü
dərdlərimizin
Dünəndə kökünü
axtarım, tapım.
Təpər ver, əlimdə
qələm əsməsin,
Mən öz kitabıma
nöqtə qoymamış
Başımın üstünü
əcəl kəsməsin.
Elə yazmalıyam
bu əsəri mən,
Mənim taleyimə
savab yazılsın,
Mənim ünvanıma
suç yazılmasın.
Allahın eşqiylə
yazılmayan söz
Bəndənin əliylə
heç yazılmasın.
"Ey ulu Yaradan,
ey qadir Allah!

Səndən mənə gələn
bağları kəsmə,
Qəlbimdə səslənən
teli qırma sən.
Zəlimxan qulunu,
şair bəndəni
Peyğəmbər yanında
utandırma sən!"
Nə çörək, nə sudur
murazım mənim,
Tanrıdan tək budur
murazım mənim!
Bir Qədr gecəsi
istəyirəm mən,
Yerdən də, göydən də
savab göndərə,
Saça işığını
qaranlıqlara,
Gizli suallara
cavab göndərə.
Bir Qədr gecəsi
istəyirəm mən,
Hər sətri Allahın
nuruyla dolu
"Peyğəmbər" adında
kitab göndərə.
Tanrı sevgisiylə
dinəm, dindirəm,
Yazdıran Haqq ola,
yazan mən olam.
Ala salamımı
göydən mələklər,
Bilalın[18] çəkdiyi
azan mən olam.

Haqq məni döndərə
haqq aşiqinə,
Bu eşqin yolunda
ozan mən olam.
Bir Qədr gecəsi
istəyirəm mən,
Məni sübhə kimi
oyaq saxlasın.
Versin Yaradanım
istədiyimi,
Mələklər yanımda
ayaq saxlasın.
Bir Qədr gecəsi
istəyirəm mən,
"Qurani-Kərimi"
endirən gecə;
Basıb öz bağrına
Peyğəmbərimi,
Allahın diliylə
dindirən gecə.
İdrak da, ağıl da,
ruh da, nəfəs də,
Canda nizam olsun,
başda cəm olsun.
Çatdırsın fikrimi
qadir Allaha,
Ayların içində
min aydan baha,
"Min aydan xeyirli
bir gecə"m[19] olsun.
Bütün qapıları
taybatay açan
Bir istək, bir sevgi,
bir qılıq olsun.

Mənim də qapımı
mələklər açsın,
Bu mənə ən böyük
yaxşılıq olsun.
Yerbəyer eləsin
ağır-yüngülü,
Qursun tərəzidə
hər mizanımı.
Versin Zəlimxanın
ixtiyarına
Ayların sultanı
Ramazanımı.
O gecə dan yeri
söküləndək,
Ulduzlar göylərdən
çəkiləndək,
Təzə tarlalara
təzə toxumlar
Təzə arzu kimi
əkiləndək!
Qədr gecəsinə
tutum üzümü,
Qədr gecəsinə
deyim sözümü.
Deyim: "Ey Allahın
qadir gecəsi,
Saysız gecələrin
nadir gecəsi,
Dayaz sahillərdə
çox üzmüşəm mən,
İzin ver, bu dəfə
keçim dərindən,
İzin ver, söz açım
Peyğəmbərindən".
Bu əhdi yerinə
yetirmək üçün,

Peyğəmbər bağından
çiçəklər dərib,
"Peyğəmbər" əsərin
bitirmək üçün,
Ulu Məhəmmədin
çox istədiyi
Bir dua gecəsi,
hacət gecəsi,
Bir ətir gecəsi
istəyirəm mən!
Bir ulu mərhəmət,
bir uca hörmət,
Bir xətir gecəsi
istəyirəm mən!
Könül dastanını
başa vurmağa
İradə gecəsi,
dözüm gecəsi,
Bir səbir gecəsi
istəyirəm mən!
Bir Qədr gecəsi
istəyirəm mən!!!

SİRR GİZLƏDƏN, SƏNDƏN MƏDƏD!

(niyyət)

Mənim hüzuruma çıxanda öz hərəkət və əməllərinizlə deyil, öz niyyətinizlə çıxın.
("Hədisi-Şərif")

Yağış kimi yağa-yağa,
bulud kimi dola-dola,
Çıxmışam bir doğru yola,
sirr gizlədən, səndən mədəd!

Dəniz sənin, dərya sənin,
üzmək üçün güc ver mənə,
Sədəfində saya gəlməz
dürr gizlədən, səndən mədəd!

Mənzil də çox, məkan da çox,
gəlim harda qərar tutum,
Göstər mənə öz yerimi,
yer gizlədən, səndən mədəd!

Mənə də ver Məhəmmədin
alnındakı yanan nurdan,
Nuru məndən əsirgəmə,
nur gizlədən, səndən mədəd!

Peyğəmbərdən söz açıram,
bir körpü sal ondan mənə,
Pir içində neçə-neçə
pir gizlədən, səndən mədəd!

ADƏMDƏN XATƏMƏ

Peyğəmbərdən soruşdular: "Ya Rəsulullah, sən nə zaman peyğəmbər oldun?" Peyğəmbər: "Adəm əleyhissəlam hələ ruh və cəsəd arası bir var ikən" buyurdu.

("Hədisi-Şərif")

Yoğurdu palçığı,
verdi nəfəsi,
Tanrı möhür vurdu,
bəndə yaratdı.
Adəm adı verdi
ilk bəndəsinə,
Onu ən işıqlı
gündə yaratdı.

Oxşadı hüsnünü,
sevdi boyunu,
Artırdı nəslini,
çaldı toyunu.
Verdi çörəyini,
verdi suyunu,
Qisməti sünbüldə,
dəndə yaratdı.

Duydu ləzzətini,
daddı tamını,
Sevgiylə doldurdu
eşqin camını.
Göylərdən endirdi
yer adamını,
Onu ən müqəddəs
dində yaratdı.

Dünyaya nə qədər
peyğəmbər gəlib,
İlki Adəm oldu,
sonu Məhəmməd!
Bütün insanlığın
babası kimi
Başına tac bildi
onu Məhəmməd!

Nurdan xəlq olundu
bu İlahi zat,
Göylərdən verildi
ona bu həyat.
Cəbrayıl quş kimi
çalanda qanad,
Tanıdı nəfəsi,
ünü Məhəmməd!

Fikrin tarlasını
şumladı, əkdi,
Əkilən torpağa
səpin gərəkdi.
Məscidül-Əqsadan
Kəbəyə çəkdi,
Dəyişdi qibləni,
yönü Məhəmməd!

Əqidə yolunda
yollar yorğunu,
Haqqın aşiqiydi,
eşqin vurğunu.
Cavabsız qoymadı
sual-sorğunu,
İşıqla doldurdu
dini Məhəmməd!

Dedi: "Bilmək dilərsənsə,
buyur, eşit cavabımı,
Bu dünya xəlq olan günü
mən dünyada dünya idim.

İçim işıq, çölüm işıq,
Rəbbim işıq, özüm işıq,
Gur işıqlar qucağında
bir çalxanan dərya idim.

Günəş məndə doğub-batar,
Ay mənə ehtiram eylər,
Alnımdakı nur nişandı,
aləmlərə ziya idim.

Məni seçən qadir Allah
gözəl əxlaq bağışladı,
Bəşər üçün ismət idim,
abır idim, həya idim.

İlahinin ən mübarək
arzusundan hasil olan
Varlıq idim, həyat idim,
yuxu idim, röya idim.

Həqiqətlə görür işi
Haqqa aşiq olan kişi,
Mən Allahın, Yaradanın
mülkündə tutiya idim.

Adəm hələ palçıq ikən
bu dünyada var olmuşdum,
Haqqın "Ümmül-kitab"ında
Xatəmül-Ənbiya idim".

BİR İŞIQ DOĞULUB GƏLDİ DÜNYAYA

(Peyğəmbərin mövludu)

Arzu uca idi,
ümid mötəbər,
Duyğular getdikcə
çözələnirdi.
Xəbər gözləyirdi
dünya, şad xəbər,
Səs-səs, nəfəs-nəfəs
təzələnirdi.

Cahillik insanın
faciəsiydi,
Nadanlıq tarixin
baş qəhrəmanı.
Ancaq xilas yolu
Haqqın səsiydi,
Qaramat basmışdı
əsri, zamanı.

Yol yoxdu haqq yolu
tutub getməyə,
Cəhalət dünyası
dağılmalıydı.
Köhnə fikirləri
alt-üst etməyə
Ruhun xilaskarı
doğulmalıydı.
Tanrını tanıyan,
Haqqa yüksələn

Bir məqam gəzirdi
xalqın niyyəti.
Tövratda səslənən,
İncildən gələn
Müjdə gözləyirdi
bəşəriyyəti!

Adəmin dilində
adı səslənən
"Əhməd" gəlməliydi
dünya üzünə.
Duyğuda yetişən,
ruhda bəslənən
Rəhmət gəlməliydi
dünya üzünə.

İtirib ruhunu,
qalmışdı darda,
Bu dünya özünü
tanımalıydı.
Qibləsi hardadı,
Zəmzəmi harda, –
Bulağın gözünü
tanımalıydı!

Dərmansız ağrıyan,
məlhəmsiz qalan,
Qövr edən yaralar
bitişməliydi.
Bütün zamanları
sahmana salan
Zamanın sahibi
yetişməliydi.
Tapıldı ən böyük
dərdin əlacı,
Gəldi, xoş niyyətin
xəbəri gəldi.

Gözlərin işığı,
başların tacı,
Qolların qüvvəti,
təpəri gəldi.

Min illər keçmişdi
o vaxtdan bəri,
Həzrət İbrahimin
duasıydı o[20]!
Mələklər qatında
dillər əzbəri,
Əminə ananın
röyasıydı o[21]!

Bir işıq doğulub
gəldi dünyaya,
Rəbiül-əvvəlin
ortalarında.
Yaydı ziyasını
Günəşə, Aya
Yazın çiçəyində,
qışın qarında.

Körpə bir vücudda
nələr var, nələr...
O, Ay parçasıydı,
nur topasıydı.
İşıqsız ürəklər,
tutqun çöhrələr
Onun gəlişiylə
nur tapasıydı.
Duyğular sirdaşı,
könüllər yarı,
Cənnət bağçasında
uçan quşdu o.

Barmağı tuşlanıb
göylərə sarı,
Tanrıya səcdədə
doğulmuşdu o[22]!

Göydəmi kəsildi
göbəyi onun?
Dünyaya göbəyi
kəsili gəldi.
Əvvəlin, axırın,
əzəlin, sonun,
Bütün diləklərin
hasili gəldi.

O günün tarixi
şərəfli, şanlı,
Allaha imanı
ürəyindədi.
Peyğəmbər möhürlü,
Rəsul nişanlı
"Xatəmün-nübüvvət"
kürəyindədi.

Eşqini gül kimi
dərdilər onun,
Sözünü eşq dedi,
məhəbbət dedi.
Adını göylərdə
verdilər onun,
Bir səs pıçıldadı,
"Məhəmməd" dedi.
Yerdə peyğəmbərim
doğulan kimi,
Göydə bir peyğəmbər
ulduzu doğdu.

Nuru qucaqladı
yeddi iqlimi,
Gur yanan işıqlar
zülməti boğdu.

O sirli nəfəsə
hey qulaq asdı,
Gördü ətri güldü,
nəfəsi çiçək;
Süveybə[23] anamız
bağrına basdı
Körpə Məhəmmədi
öz balasıtək.
Çəkdi diqqətini
doğmanın, yadın,
Beləcə ötüşdü
vaxt da, vədə də;
Həzrəti Həmzəyə
süd verən qadın
Süd verdi körpəcə
Məhəmmədə də!

Həlimə[24] ananın
kasıb daxması
Onun gəlişiylə
aşıb-daşırdı.
Toy-düyün olurdu
ələmi, yası,
Bərəkət bu evlə
doğmalaşırdı.

Gah meh tərpədirdi,
gah sərin külək,
Bulud qanadını
gərirdi göyə.

Onu qoruyurdu
göz bəbəyitək,
Səhranın istisi
vurmasın deyə.

Məhəmməd qədəmi
hara toxunur,
Məhəmməd nəfəsi
hara dəyirdi –
Orda güllər açır,
xalı toxunur,
Ora cənnət kimi
gülümsəyirdi.

Göylər verilmişdi
ixtiyarına,
Onun hökmündəydi
çaylar, dəryalar.
Odlu baxışları
gəlir karına,
Yağışdan doyurdu
qumlu səhralar!

Canından can verdi
Həlimə ana,
Böyütdü beş-altı
yaşına qədər.
Sevdi Məhəmmədi
tər çiçək kimi,
Öpdü kirpiyinə,
qaşına qədər.
Seçdi Yaradanım
sıradan onu,
Mələklər səslədi
Hiradan onu.
Beləcə yaratdı
Yaradan onu,

Alnında aydınlıq,
üzündə həya,
Məhəbbət doğulub
gəldi dünyaya!

Yerlərin ləngəri,
göylərin qatı,
Zamanın ən şirin
vaxtı, saatı,
Həyatın cövhəri,
dinin həyatı
Saflıqdan yük tutdu,
halaldan maya,
Ünsiyyət doğulub
gəldi dünyaya!

Dillərin
"Allahu-Əkbər!"indədir,
Sözlərin yükündə,
ləngərindədir.
İslamın həmişə
səngərindədir,
Dar gündə
Xızırtək yetişdi haya,
Cəsarət doğulub
gəldi dünyaya!

Yağdırana şükür,
yağana şükür,
Damlanın içinə
sığana şükür.
Doğulana şükür,
doğana şükür,
Min şükür zamana,
həftəyə, aya,
Məhəmməd doğulub
gəldi dünyaya!
Həqiqət doğulub
gəldi dünyaya!!!

ZAHİRİ GÖRMƏK ASAN, BATİNDƏN NƏ BİLİRSƏN?

Düz yoldasan! (Doğru yol üzrə göndərilən peyğəmbərlərdənsən. Allahın əsl tövhid dini olan islam dinindənsən. Bu yolu tutub gedən haqqa yetişər.)

("Yasin" surəsi, 4-cü ayə)

Hansı gecədə gəldi,
nurlandırdı yuxumu,
Hardan düşdü qəlbimə
bu arzunun toxumu?
Mələklər asta-asta
necə qondu çiynimə,
Nur dağının işığı
necə düşdü beynimə?
Məni havalandıran
bu istək, həvəs nədir,
Uzaqdan qulağıma
dolub gələn səs nədir?
Bu nə külək səsidir,
nə tar, nə də ney səsi,
Nə şikayət səsidir,
nə də bir giley səsi.
Bu nə bir iniltidir,
nə də kaman səsləri,
Allah özü göndərir
qəlbə daman səsləri!
Bunlar adi səs deyil,
söz səsidir, söz səsi,
Hər damlanın öz rəngi,
öz ahəngi, öz səsi.

Səs sözü gətirəcək,
söz Quranı, ayəti,
Mələklər danışacaq
min dürlü hekayəti.
Bu duyğular içində
mən də işıq saçıram,
Peyğəmbərdən danışıb,
Qurandan söz açıram.
Ey qələmim, əsmə sən!
Fikirləş dönə-dönə,
fikirləş, tələsmə sən!
Peyğəmbərdən söz açsan,
buyruğun Haqdan gərək,
Məhəbbətin Qurandan,
gücün torpaqdan gərək!
Adəmnən Məhəmmədə
sənələrcə yol gələn,
Mərifət dəryasında
gur suları bol gələn,
Nuru, hökmü, işığı
heç zaman azalmayan,
Daima yollar gedən,
ancaq yolda qalmayan,
İslamın imanında
müqəddəs qaynaq tapan,
Namaz adlı sütunda
sarsılmaz dayaq tapan,
İbrahimə, Yaquba,
Yusifə, İsmayıla
Gün kimi agah olan,
Mənzili, mərtəbəsi
ən uca dərgah olan,
İslam adı daşıyan
bu dindən nə bilirsən?
Zahiri görmək asan,
batindən nə bilirsən?

Öyrənə bilmisənmi
Əminə anamızın
cövhərini, əslini?
Tanıya bilmisənmi
Əbdülmüttəlib[25] oğlu
Abdullahın nəslini?
İçdikləri sərin su
hansı bulaqdan gəlir,
Hansı qatdan süzülür,
hansı torpaqdan gəlir?
Zəmzəm adi çeşmədir,
yoxsa dirilik suyu?
Necə əfsanələşdi
Qupquru səhralara
həyat verən bir quyu?
Suya təşnə ürək nə,
quruyan dodaq nədir?
Qızıl qumlu səhrada
qaynayan bulaq nədir?
Quranın ruhundakı
sehrli avaz nədir?
Tutulan oruc nədir,
qılınan namaz nədir?
Peyğəmbər Məhəmmədin
neçə sirli adı var?
Neçə kökü, budağı,
neçə qol-qanadı var?
Məkkə nədir, Kəbə nə,
Kəbədəki daş nədir?
Din yolunda şəhidlik,
haqq üçün savaş nədir?
Öyrənə bilmisənmi
mələklərin dilini?
Mələklərdən güc alan
fələklərin dilini?

Yox müəllim, yox ustad,
yox məktəb, yox mədrəsə,
Ata-ana sarıdan
yetim qalan bir kəsə,
Ata üzü görməyən,
Doyunca anasına
ürəyini verməyən,
Qırx yaşında oğula
Peyğəmbərlik qatında
vergini verən Allah,
Nə üçün Məhəmmədə
"Peyğəmbərimsən" dedi,
"Göydə göyümsən" dedi,
"Yerdə yerimsən" dedi?
Sual sual dalınca,
cavab axtarır, cavab,
Sual verməyə nə var,
oğulsan, cavabı tap!
Düşündükcə bunları
biz-biz olur tüklərim,
Azdı, min dəfə azdı
Bu suallar önündə
Mənim öyrəndiklərim,
mənim düşündüklərim!!!
Götürdüyüm yük ağır,
girdiyim meydan geniş,
Mənzilə varmaq üçün
min yoxuş var, min eniş.
Sərt yoxuşlar çıxanda
polad dizim bükülsə,
Uçrumları enəndə
eniş üstümə gülsə,
Bu yükü götürməyə
əgər gücüm çatmasa,
Ürəyimdən keçəni
ilhamım yaratmasa,

Məni sevindirməsə
bu zaman, bu ərəfə,
Zəhmətim çatdırmasa
ömrümü bu şərəfə,
Bəxtimi yarıtmasa
bu yolda arzum, kamım,
Ya susub şairliyim,
ya da susub ilhamım.
Mənə güc ver, Allahım!
Enişləri enməyə,
yoxuşları çıxmağa,
Yazdığım bu əsərlə
Həzrəti Məhəmmədin
əllərini sıxmağa!
Peyğəmbərdən yazıram,
eşqi dayağım olsun!
Onun arxalandığı
Sur dağı dağım olsun!

RƏSMİNDƏ RƏSMİMİZİ YAŞADAN SÜBHAN NƏDİR?

İlk salamı ilk dəfə
kim verdi mələklərə,
"Adəm ata" deyilən
ilk qədim insan nədir?

Ruhla palçıq qovuşdu,
nəfəslə bədən oldu,
İlk insanı yolundan
çıxardan şeytan nədir?

Niyə Yaradan Nuhu
tufanlara vermədi,
Nuh qövmünü batıran
qasırğa, tufan nədir?

Qırx günün yağmuruyla
nə deyirdi Yaradan,
Bir gəmiyə yüklənən
quş, böcək, heyvan nədir?

Qarışqayla dil tapan,
quşlar ilə danışan,
Yerə-göyə hökm edən
Həzrət Süleyman nədir?

Həzrəti İbrahimi
od niyə yandırmadı,
Atəşlərin içində
gülən gülüstan nədir?

Bıçaq niyə kəsmədi
qurban deyilən kəsi,
İsmayılın eşqinə
kəsilən qurban nədir?

Yaz yağışına döndü
Yaqubun göz yaşları,
Yusifin Misirdəki
düşdüyü zindan nədir?

Buzova "Allah" deyən
duymadı Peyğəmbəri,
Cahilliyin atası
küt nədir, nadan nədir?

İlk dəfə dilə gəlib
Cəbrayılın diliylə,
Allahın Peyğəmbərə
verdiyi fərman nədir?

Min qəlbin sevincidir
bir qəlbin genişliyi,
Bəs onun könlündəki
Cənnəti-Rizvan nədir?

Haqq nədir, nahaq nədir,
əyri nədir, düz nədir,
Nədir "İlahi vəhy"lər,
bax gör bu "Furqan" nədir?

Alimin mürəkkəbi
şəhid qanından baha,
Mərifət nə deməkdir,
bəs əhli-irfan nədir?

Dayağı hardan tapır
şər oğlu şər olanlar,
Ucalıq məqamına
atılan böhtan nədir?

Nədir islamın ruhu,
müsəlmanın mətləbi,
Gözəl əxlaq, tərbiyə,
halallıq, vicdan nədir?

Əzən kim, əzilən kim,
döyən kim, döyülən kim,
Fasiləsiz, vurhavur
döyülən xırman nədir?

Çərxi-fələk gücünü
kimdən alıb fırlanır,
Gecə-gündüz işləyən
çarxsız dəyirman nədir?

Min bir dərdin əlacı,
yaraların məlhəmi,
Xəstəliyin şəfası,
dərdlərə dərman nədir?

Kimdən ötrü döşədi
Yaradan yer üzünü,
Başımızın üstündə
göy qübbə, tavan nədir?

Allaha şəkk gətirən
kimlərə şərik oldu,
Sınaq üçün insana
verilən meydan nədir?

Kimdən ötrü açıqdı
tövbənin qapıları,
Tanrı bağışladığı,
verdiyi imkan nədir?

Dərk etmək mümkündümü
onun böyüklüyünü,
Günahlar bağışlayan
Rəhməti-Rəhman nədir?

Ərəsət ayağında
kafirin cəzası nə,
Qiyamət günündəki
mömin, müsəlman nədir?

Dirilərin ruhunu
nədir diri saxlayan,
Ölənlərin ruhuna
verilən ehsan nədir?

Haqq acılı-şirinli
iki dəniz yaratdı,
Suları qarışmayan
dəniz nə, ümman nədir?

Müşriklərə ən ağır
cəzalar hazırlayan,
Gözün içinə çökmüş
qaranlıq, duman nədir?

İsmində ismimizi,
cismində cismimizi,
Rəsmində rəsmimizi
yaşadan Sübhan nədir?

Yer üzündə Allahın
yersiz heç nəyi yoxdur,
Tanrının yaratdığı
səliqə-sahman nədir?

Altmış üç yaşında
nöqtələnən bir ömrə
İyirmi üç il yol gələn
söz adlı karvan nədir?

Özünü bilmiş olan
Rəbbini bilmiş olar,
Candan xəbər bilməyən
nə bilsin, cahan nədir?

PEYĞƏMBƏRİN ÜRƏYİ

Ağ libaslı iki adam qar dolu qızıl bir ləyənlə yanıma gəldi. Məni tutub köksümü yardılar. Qəlbimin içindən qara və laxtalanmış bir qan parçasını çıxarıb atdılar!

Hz. Peyğəmbər
(M.Asim Köksal, "İslam tarixi", II cild, səh. 39)

Gül-çiçək naxışlı
göy çəmənlərin,
Ulduz haşiyəli
üfüqlərin də,
Göylərə dirənən
ağ zirvələrin,
Günəş təmtəraqlı
şəfəqlərin də,
Dolu dənizlərin,
dəli çayların,
Yerin də, göyün də,
asimanın da,
Əski tarixlərin,
yeni çağların,
Hər günün, saatın,
hər zamanın da,
Dillərin, dinlərin,
təriqətlərin,
Qadir Allahın da,
Peyğəmbərin də,
Sevincin, şadlığın,
toy-düyünlərin,
Hər cür ayrılığın,
dərdi-sərin də

Bircə mərkəzi var,
bircə mərkəzi –
Ünvanı ürəkdi,
adı ürəkdi.
Ulu Yaradanın
yaratdıqları
Nə varsa, hər şeyin
dadı ürəkdi.
Payızın, baharın,
çiçəyin, qarın
Rəngi, təravəti,
ətri ürəkdi.
Bütün sevənlərin,
sevilənlərin
Sevgisi, istəyi,
xətri ürəkdi.
Alim ürəyində
duyğu, düşüncə,
Şair ürəyində
şeiriyyət yaşar.
Şəhid ürəyində
Vətən sevgisi,
Qazi ürəyində
hərarət yaşar.
Cəllad ürəyində
qan hərisliyi,
Aşiq ürəyində
məhəbbət yaşar.
Ürəklər içində
bir ürək də var,
İşığı Tanrıdan,
hünəri Haqdan;
Eşqi, möcüzəsi
min illər boyu
Silinməz könüldən,
düşməz dodaqdan.

Peyğəmbər ürəyi –
nur içində nur,
Məhəbbət, mərhəmət,
əzəmət, qürur!
Peyğəmbər ürəyi –
qədimdən qədim.
Mən onun sehrinə
dalmaq, düşünmək,
Mən onun sirrini
bilmək istədim.
İlk dəfə dünyanın
ilk peyğəmbəri
Adəmin köksündə
döyünüb ürək.
Allahın, bəndənin
məhəbbətinə
Sirdaş olmasıyla
öyünüb ürək.
İbrahim ürəyi,
Musa ürəyi,
İsmayıl ürəyi,
İsa ürəyi...
Dünya nizamlanıb,
sahmana düşüb,
Taxt qurub ən böyük
ürəklər üstə.
Çalıb havasını,
deyib sözünü,
Ən şirin arzular,
diləklər üstə.
Məhəmməd böyüyür
bir məhəllədə,
Zaman gələcəyə
səsləyir onu.
Hələ yanındadı
süd anasının,

Ana doğmasıtək
bəsləyir onu.
Hər gün gözlərinin
üstə saxlayır,
Bilir ki, yanında
anası yoxdur.
Körpələr sevgiylə
böyüməlidir,
Sevgisiz həyatın
mənası yoxdur.
Çəkir qayğısını
ulu bir zatın,
Onun süd anası
Həlimə xatın.
O hardan bilsin ki,
kimə süd verir,
O nədən bilsin ki,
kimdi böyüyən? –
Könüllər sultanı,
ruhlar fatehi,
Bir dinə özüldü,
himdi böyüyən.
Hələ çoxlarının
xəbəri yoxdur,
Beş-altı yaşında
körpədir hələ.
Görənlər "Nə gözəl
uşaqdır!" deyir,
Heyrətlə başını
tərpədir hələ.
Bir gün süd qardaşı
Abdullah ilə
Quzu otarırdı
çöldə Məhəmməd.
Möcüzə baş verdi,
birdən möcüzə,

Göydənmi atıldı,
yerdənmi çıxdı,
O, iki ərmişlə
gəldi üz-üzə.
Ağ libas geyinən
bu iki nəfər
Məhəmməd özünə
gələnə qədər
Torpağın üstünə
yıxdılar onu,
Əlini, qolunu
tutub, saxlayıb,
Yüngülcə torpağa
sıxdılar onu.
Dünyanın ən mahir
cərrahlarıydı,
Yardılar köksünü
bir an içində,
Bir ürək çırpındı
bir can içində.
Qapqara qan vardı
qəlbin içində,
Gözə görünürdü
bir ləkə kimi.
O, "şeytan qanı"ydı,
atılmasaydı,
Qalardı ürəkdə
təhlükə kimi!
Qarın suyu ilə
arındırdılar,
Körpə ürəyini
qoyub yerinə
Körpə bala kimi
barındırdılar.
Qardan pak eləyib
qəlbi, ürəyi,

Çatdılar müqəddəs
diləklərinə!
Tanrı göndərmişdi
Məhəmməd üçün,
Belə buyurmuşdu
mələklərinə:
"Gedin, Məhəmmədin
yarın köksünü,
Qəlbinin içində
bir laxta qan var,
Qoy bilsin indidən,
onun qəlbini
Yuyan, təmizləyən,
bir qurtaran var!
Peyğəmbər ürəyi
təmizdən təmiz,
Qar kimi – ağdan da
ağ olmalıdır.
Təbiətdə ipək,
xislətdə mələk,
Görkəmdə möhtəşəm
dağ olmalıdır!
Şeytandır dünyanın
evlər yıxanı,
Şeytandır dünyanın
ara vuranı.
Şeytanı içindən
atdırmasaydım,
Göndərə bilməzdim
ona Quranı!!!
Ləkəli ürəklə,
havalı başla
Dünyanı sahmana
salmaq çətindir.
Əgər gedirsənsə
sabaha doğru,

Şeytanla baş-başa
qalmaq çətindir.
Mən onu qovmuşam
öz dərgahımdan,
Atmışam qəlbindən
Peyğəmbərin də.
Onun fitvasıyla,
şeytanlığıyla
Nə qədər gəmilər
batdı dərində.
Ən şirin arzuya,
diləyə çatmaq,
Taleyi güldürüb,
ömrü uzatmaq,
Duyan könüllərdə
nur kimi qalmaq,
Tanrı dərgahına
qalxıb ucalmaq,
Dünyanı tufandan,
xilas eyləmək,
İnsanı şeytandan
xilas eyləmək,
Sevginin üstündə
qurub həyatı,
Nur ilə doldurub
bu Kainatı,
Ürəkdə haqq odu
qalamaq üçün,
Sevgini sevgiyə
calamaq üçün
Peyğəmbər ürəyi
gərəkdir mənə!
Allah sevgisiylə
daşan, qaynayan
Bir bəşər ürəyi
gərəkdir mənə!!!"

PEYĞƏMBƏR YAŞINA ÇATANA QƏDƏR

Onun gəlişindən
qabağa düşdü
Ata ayrılığı,
ana həsrəti.
Dünyada kədərlə,
qəmlə görüşdü,
Gördü körpəlikdən
hər məşəqqəti.

"Ata!" deyiləndə
doldu gözləri,
"Ana!" deyiləndə
yandı sözləri.
Əriş-arğac oldu
baxışlarında
Dərdin cığırları,
qəmin izləri.

Ata kölgəsindən
əli çıxan kəs
Əmi kölgəsinə
pənah gətirdi.
Ürəklər yandırdı
çəkilən nəfəs,
Qəlbinə bir ağrı,
bir ah gətirdi.

Qan-qada da gördü,
savaş da gördü,
Savaşlar içində
qan-yaş da gördü.

Onu az güldürüb,
çox ağlatdılar,
Həyəcan da gördü,
təlaş da gördü.
Bütə tapınanlar,
haqdan sapanlar,
Ağacdan, taxtadan
ilah yapanlar,
Körpə sinəsinə
köz basdıranlar,
Yerə diri-diri
qız basdıranlar,
Şeytanla dost olub,
şərə varanlar,
Cansız əşyalarda
can axtaranlar,
Zülmü biləklərdə
zəncir edənlər,
Əxlaqı, vicdanı
təhqir edənlər,
Günaha bələnib,
küfrə batanlar,
Kölə insanları
alıb-satanlar
Ona zaman-zaman
əzab verirdi.
Qəlbində suallar
sıralanırdı,
Bütün sorğulara
cavab verirdi.
Heç vaxt qoşulmadı
pis adətlərə,
Meylini vermədi
nəhs adətlərə.
Ana təbiətin
vergisi kimi

Alnında müqəddəs
nuru saxladı.
Ürəyi, idrakı,
ağlı, vicdanı
Zirvə qarı kimi
duru saxladı.
Ürəkdə məhəbbət,
nəfəsdə sevgi,
Duyub eşitdiyi
hər səsdə sevgi.
Varlığı aləmə
ətir payladı,
Sevildi güllərin
butası kimi.
Birliyə çağırdı
doğmanı, yadı,
Əxlaq dünyasının
atası kimi.
Hamının qəlbinə,
ruhuna yatdı,
Yatmış vicdanları
nurla oyatdı
Peyğəmbər yaşına
çatana qədər.

Zamanın bətnində,
vaxtın canında
Bir işıq, bir ziya
hazırlanırdı.
Ulu peyğəmbərlər
kəhkəşanında
Xatəmül-Ənbiya
hazırlanırdı.

Arzular dalınca
səhralar gəzər,
Səfərə çıxardı
Məkkədən Şama.

Yerlərə, göylərə
yetirib nəzər,
Həmsöhbət olardı,
sirdaş olardı
Ulduzlu gecəyə,
aylı axşama.
Dünyanın dərdinə
ortaq olardı,
Dünyanın qəmindən
keçib-gedərdi.
Tanrı məqamında
qərar tutmağa
Məhəmməd Əmindən
keçib-gedərdi.
Aylarla yorğunluq,
illərlə zəhmət,
Qəflə karvan-karvan
yük aparardı.
Dünyanın yükünü
cavan Məhəmməd
Qəlbində daşıyıb
tək aparardı.
Gözü tox, nəfsi tox,
nəfəsi halal,
Saflıqda ad alıb,
ün qazanardı.
Özündən xəbərsiz
peyğəmbərliyə
Ömür qazanardı,
gün qazanardı.
Nə qədər arzuya,
diləyə çatdı,
Səsi ərşə çatdı,
fələyə çatdı.
Mərtəbə-mərtəbə
mələyə çatdı
Peyğəmbər yaşına
çatana qədər.

Beləcə yaşadı
çiçək ömrünü,
Beləcə yaşadı
mələk ömrünü.
Beləcə uzatdı
gödək ömrünü
Mürşidim, əfəndim,
ərənim mənim.

Qurutdu gözlərin
axan yaşını,
Kəsdi tayfaların
sərt savaşını.
Müqəddəs Kəbənin
qara daşını
Yenidən Kəbəyə
hörənim mənim.

Nurdan ayrılmadı
nurlu həyatda,
Haqq tapdı kamını
o uca zatda.
Batinin altında,
yeddinci qatda
Yeni bir batini
görənim mənim.

Ruhu ipək olub,
qəlbi zər olub,
Hər sözü bu gün də
təzə-tər olub.
Qırx ilin başında
peyğəmbər olub,
Peyğəmbər çiçəyi
dərənim mənim.

XƏLVƏT

Bu bizim İbrahimə öz tayfasına qarşı verdiyimiz dəlildir. Biz istədiyimiz kimsəni dərəcə-dərəcə yüksəldərik. Şübhəsiz, Rəbbin hikmət sahibi, elm sahibidir.
("əl-Ənam" surəsi, 83-cü ayə)

Allahını tanımayan insanların səcdəsinə heç vaxt mələk gəlməz.
("Hədisi-Şərif")

Bağban necə dolanırsa
bardan ötrü bağ başına,
O da elə dolanırdı
çox sevdiyi dağ başına.
Sirdaşıydı, həmdəmiydi
dağda fikir, daşda fikir,
Onu rahat buraxmırdı
ürəkdə od, başda fikir.
Düşüncələr alovunda
bir şam kimi əriyirdi,
Fikir ilə yatıb-durur,
fikir ilə yeriyirdi.
Səs verirdi gələn səsə,
bir tərəfə çəkilirdi,
Girirdi bir daş qəfəsə,
bir tərəfə çəkilirdi.
Alnında Allahın nuru,
Sevgisi çeşmədən duru,
Qəlbində eşqin uğuru
bir xəlvətə çəkilirdi.

O, xəlvətə çəkildikcə
Mələklərin nidasıyla
məhəbbətə çəkilirdi.
Fikri, zikri, düşüncəsi,
yayınmırdı dağa-daşa,
Pıçıltıda Haqqı tapır,
həqiqətə çəkilirdi.
Baxdığı tək Kəbə idi,
hər gün Kəbəyə baxırdı,
Bir Allaha əyan idi,
Məhəmməd niyə baxırdı,
Məhəmməd nəyə baxırdı?!
Sirr özüydü, sirr Allahı,
bir xəlvətə çəkilirdi,
Bir özüydü, bir Allahı,
O, xəlvətə çəkilirdi.

Xəlvətə çəkilən kimsə
çöldən içə doğru gedər,
Əzizlənər, təmizlənər,
durar günahdan yuxarı.

Bədən ruhun xidmətçisi,
ruh bədənin qayğıkeşi,
Qaldırar öz sahibini ağrıdan,
ahdan yuxarı.

Xəlvətə açdı sirrini,
xəlvətdə tapdı yerini,
Şahlar onun ayaq tozu,
o durub şahdan yuxarı.

"Peyğəmbərəm" deyən kimsə
onu əməldə göstərər,
Nəfsinə sultanlıq eylər,
çıxar tamahdan yuxarı.

Könül adlı bir sarayda
yapdırırdı yapısını,
Yaradana tapşırırdı
qəlb evinin qapısını.

Qəlb evinə qapı açan
içində cənnət gəzdirər,
Dilində söz xəzinəsi,
sehrli sərvət gəzdirər.

Ürək bu dünyadan böyük,
ürəksiz dünyaya bir yük,
Ruhu sönməz olan kəslər
canda məhəbbət gəzdirər.

Allah ilə dost olanın
yolu qırılmaz yarıda,
Yeddi qatdan yetmiş qata
keçər mərtəbə-mərtəbə.

Ən istəkli peyğəmbərin
bəxtinə merac yazılar,
Mənzilləri, məkanları
seçər mərtəbə-mərtəbə.

Allah özü əzizləyər
ən sevimli bəndəsini,
Könüllərdən-könüllərə
keçər mərtəbə-mərtəbə.

Tanrı dostu olanlara
göylər açar qapısını,
Məhəbbət öz işığını
saçar mərtəbə-mərtəbə.

Hirada yeri xəlvətdi,
Haqq sirdaşı Məhəmməddi,
Bəndə onun eşqi ilə
uçar mərtəbə-mərtəbə.
Mən də görmək istəyirəm
xəlvətdəki gizlinləri,
Peyğəmbərim işarəylə
mələyi göstərir mənə.

"Lə iləhə illəllah!"la
inancına doğru gedir,
Boylanır Tanrıya sarı,
fələyi göstərir mənə.

Külək gözə görünmür ki,
tutam onun yaxasından,
O, göz ilə görünməyən
küləyi göstərir mənə.

Mən onun durduğu yerdə
yanmış qayalar görürəm,
O, qayanın yaxasında
çiçəyi göstərir mənə.

* * *

Məni arxasınca
bir səs apardı,
Bu səsdən gücümü
alınca getdim.
Düzdə dayanmadım,
dağda durmadım,
Axırıncı nəfəs
qalınca getdim.

Qəlbimə, ruhuma
nur yağa-yağa
Baxdıqca hey baxdım
Nur adlı dağa.
Səsi anlamağa,
sözü duymağa
Ən böyük arzunun
dalınca getdim.

Hara boylanıram,
hara baxıram,
Gözümün önünə
Yaradan gəlir.
Allah kəlamını
alıb mələkdən,
Peyğəmbər qayıdıb
Hiradan gəlir.

Yer də cilvələnir,
göy də, Günəş də,
Torpağa can gəlib,
daşa can gəlib.
Yazılıb alnına
peyğəmbər olmaq,
Bu hökmü, fərmanı
Allahdan gəlib.

Sevgisi çəkiyə,
ölçüyə gəlməz,
Böyükdü dünyanın
ölçüsü kimi.
Gəlir kainatın əfəndisitək,
Gəlir Yaradanın
elçisi kimi!

Kitabla qayıdır
kitabsız gedən,
Gətirir "Ələq"in
beş ayəsini[26].
Bütün yer üzünə
yaymaq istəyir
Bütün zamanların hekayəsini.

"Oxu!" nidasıyla
başlanır həyat,
Eşqi qucaqlayır
bütün varlığı.
Onunçün dünyada
müsəlman olmaq
Dünyanın ən böyük bəxtiyarlığı.

Salam yağışıdır
başından yağan,
Kitabın şahını gətirib gəlir.
Yerin ləngərini,
göyün sirrini,
Dinin sabahını
gətirib gəlir.

Sevgiylə dolmuşdu
çiçəklər, otlar,
Çəmənlər ətriylə
salam verirdi.
Səcdəyə gəlmişdi
göydən buludlar,
Allah xatirinə
salam verirdi.

Saysızdı sayğılar,
salamlaşmalar,
Salam dağ salamı,
daş salamıydı.

Ona Allahının
verdiyi salam
Bütün salamların
baş salamıydı.

Gecikmiş olsam da
düz on dörd əsr,
Mən də qoşuluram
o salamlara.
Mən də qoşuluram
o gələn günü
Yanan çıraqlara,
yanan şamlara.

Nur dağı dönmüşdü
bir xəzinəyə,
Peyğəmbər ürəyi
dolu gedirdi.
İbrahim, İsmayıl,
İshaq getdiyi,
Adəm başladığı
yolu gedirdi.
Hər qaya gözündə
məbədə dönür,
Uca göylər kimi
dolub gedirdi.
Gəlmişdi bu dağa
Məhəmməd kimi,
Bu dağdan Peyğəmbər
olub gedirdi.
Ayağı toxunan
qum dənəsi də
Özünü dağlardan
uca sayırdı.

Üfüq də, Günəş də,
ulduz da, Ay da
Məhəmməd nurunu
qucaqlayırdı.

Gecələr deyirdi:
"Ay sənə qurban",
Gündüzlər deyirdi:
"Günəş sənindi".
Buludlar deyirdi:
"Yağışlar sənin",
Səhralar deyirdi:
"Atəş sənindi".

Qaranlıq dünyaya
qəndil, çilçıraq,
Qovrulan səhraya
gur yağışdı o!
Qırx yaşla təzəcə
qarşılaşsa da,
Bəlkə də qırx min il
yaşamışdı o!

"Oxu!" – demişdilər
ona Quranı,
"Əlif"dən başlayıb,
"mim"dən gəlirdi.
"Oxu!" – demişdilər
ona dünyanı,
Bilirdi bu səda
kimdən gəlirdi.

Səslər də, sözlər də,
pıçıltılar da
Ruhuna sərinlik
səpirdi onun.

Üfüqlər başına
sığal çəkirdi,
Torpaq ayağından
öpürdü onun.

Ata sevgisinə
həsrət qalanda,
Ana sevgisindən
əli çıxanda
Uşaqtək hönkürüb
ağlamışdı o,
Ömrünü, gününü,
təbiətini
Tanrı dərgahına
bağlamışdı o!

O gün Əminənin
torpağı nurdu,
O gün Abdullahın
məzarı işıq.
Onların yetirib
bitirdikləri
Peyğəmbər gəlirdi
Haqqa yaraşıq.

İkinci Günəşi
doğdu dünyanın,
Günəş sevinirdi:
tək olmayacaq.
Daha indən belə
zülmət, cəhalət
Bəşər varlığına
yük olmayacaq!

Paslı beyinlərə
fikir, hərəkət,
Günsüz ürəklərə
gün gətirirdi.
Dinsiz olanları
dinə çatdırıb
Dünyaya təzə bir
din gətirirdi.
Bu, ədalət dini,
bu, ixlas dini,
Bu, iman diniydi,
insaf diniydi.
İmanlar içində
ən mükəmməli,
Dinlərin içində
ən saf diniydi.

NUR DAĞININ MƏHƏMMƏDƏ SALAMI

Eşidilən səsə,
yetişən ünə,
Sənin bu dünyaya
gəldiyin günə,
Səni yaradanın
böyüklüyünə
Bizdən salam olsun,
ya Rəsulullah!

Yazılan dəftərə,
yazan qələmə,
Dilində səslənən
sözə, kəlama,
Sənin qazandığın
haqqı-salama
Bizdən salam olsun,
ya Rəsulullah!

Tanrıdan başına
qoyulan taca,
Qalxıb ucaldığın
sirli meraca,
Öpdüyün Kəbəyə,
getdiyin haca
Bizdən salam olsun,
ya Rəsulullah!

Saçına əl çəkən
mehə, küləyə,
Başına dolanan
çərxi-fələyə,

Adını dilində
tutan mələyə
Bizdən salam olsun,
ya Rəsulullah!

Şirin ülfətinə,
şirin mehrinə,
Alnında parlayan
nurun sehrinə,
İdrak zirvəsinə,
Quran möhrünə
Bizdən salam olsun
ya Rəsulullah!

Gecələr qəlbində
alışan şama,
Haqqın əllərindən
içdiyin cama,
Külli-kainata,
külli-islama
Bizdən salam olsun,
ya Rəsulullah!
Bizdən salam olsun,
ya Rəsulullah!!!

PEYĞƏMBƏRƏ UCA VƏHYİ, ŞAİRƏ İLHAM VERDİLƏR

(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər (Cənnətdəki Kövsər irmağını və ya bol nemət, yaxud Quran, peyğəmbərlik) bəxş etdik!

("əl-Kövsər" surəsi, 1-ci ayə)

Şirin, dərin yuxudaydım,
sevgi dolu cam verdilər,
Dedim, hər yer qaranlıqdı,
yandırmağa şam verdilər.

Hər sözümə, söhbətimə
bir şirinlik qatmaq üçün
Yaradanın süfrəsindən
dad verdilər, tam verdilər.

"Al, bu qələm, bu da kağız,
Peyğəmbərə üz tut!" deyib,
Tükənməz bir həyat eşqi,
sönməz bir inam verdilər.

Göy üzünün nemətləri
yer üzünə paylananda
Peyğəmbərə uca vəhyi,
şairə ilham verdilər.

Allah verən o vergidən
bir damla da mən götürdüm,
Zəmisindən sünbül yığdım,
sünbülündən dən götürdüm.

Həyəcanlı ürəyimdə
nur dənizi dalğalandı,
Qısılmadım, basılmadım,
meydanımı gen götürdüm.

O sərvəti alan gündən
Haqq tərəfə yol gedirəm,
Eldən-elə, yoldan-yola,
səfdən-səfə yol gedirəm.
Dildə zikrim, başda fikrim,
ruhda şükrüm qanadlanır,
Çatmaq üçün ən müqəddəs
bir şərəfə, yol gedirəm.

Məkkə gördüm, Kəbə gördüm,
Kəbədəki daşı gördüm,
Qara daşın yaddaşında
saya gəlməz yaşı gördüm.
Yaradana qul olanı
müdrik insan, kamil ustad,
Yaranışa xor baxanın
gözlərində çaşı gördüm.

Qədimlərdə Peyğəmbərə
Əbu Ləhəb atan daşı
Gözümüzün qabağında
yenə atır nadan, naşı.
Ləkələmək istədilər
Günəş boyda həqiqəti,
Ancaq ləkə götürmədi
həqiqətin daş yaddaşı!

Bir tərəfdə sevgi, barış,
bir tərəfdə kin yaşadı,
Məhəbbətə tapınanlar
yüz yaşadı, min yaşadı.

İslam adlı ucalığı
qadağalar yıxammadı,
Ən şərəfsiz kafir öldü,
ən şərəfli din yaşadı.

Haqq nuruna çatmaq üçün
bu eşqimi göyə yazdım,
Nadanlığı döymək üçün
haqqı öyə-öyə yazdım.
Arxalandım Allahıma
Peyğəmbərlə görüşməkçün,
Çağırdım qadir Allahı,
"Allah!" deyə-deyə yazdım.

Bu, qismətdi, Peyğəmbərə
ayə kimi gələn qismət,
Sahibinə yetişəndə
"şükür" deyib gülən qismət.
Ağzındakı son tikəni,
dilindəki son kəlməni
Arzularla, diləklərlə,
insanlarla bölən qismət.

Quran ali bir nemətdi,
Peyğəmbərə qismət olub,
Mən yazdığım "Peyğəmbər"di,
o da qismət, bu da qismət.
Hökmü Haqdan verilməsə,
bəndə bir iş görə bilməz,
Udduğumuz bu hava da,
içdiyimiz su da qismət.

Üzünü Allaha tutan
nigaranlıq keçirməsin,
Haqq aşiqi olanların
sorağı cənnətdən gələr.

Döşünə döyməsin insan,
hər alnın öz yazısı var,
Nə getsə qismətdən gedər,
nə gəlsə qismətdən gələr.
Ey Yaradan! İltimas et,
bu qismətə şükür deyim,

Harda olsam, hara varsam,
ordan gələn səs qismətim,
Nə bulaqdı, nə şəlalə,
nə çaydı, nə coşan dəniz,
Eşitdiyim ünlərə bax,
sükut dostum, pəs qismətim!

Külüngünü tutan tutdu,
qayasını çapan çapdı,
Dünyasını bir gözəlin
dünyasında gedib tapdı.
Mənə qalan bir qələmdi,
bir ilhamdı, bir kitabdı,
Yaradanım nə veribsə,
mənə bəsdir, bəs qismətim.

Quş budağa, ağac kökə,
arılar şana bağlandı,
Can cana körpülər saldı,
cahan cahana bağlandı.
Şükür Haqqın qismətinə,
gəldi Qurana bağlandı,
Mənim ulu, mənim uca,
mənim müqəddəs qismətim!

SƏHRADAKI QUM DƏNƏSİ SAL QAYADAN NİŞANƏDİR

Elə bir kimsə yoxdur ki, onun üstündə
bir gözətçi (mələk) olmasın!
("ət-Tariq" sürəsi, 4-cü ayə)

Peyğəmbərdən yazırsansa,
yazdığın anı dərk elə,
Könlünü aç mələklərə,
yerdə insanı dərk elə.

Min-min kitab yazılsa da,
başı bir kitaba bağlı,
Min-min kitab oxusan da,
əvvəl Quranı dərk elə.

Yollar da çox, yoxuşlar da,
hansı yoldu sənin yolun? –
Doğru səmtə varmaq üçün
yolu – ərkanı dərk elə.

Dağı yarar, daşı kəsər,
Haqq sözünü qılınc kəsməz,
İsmayılın eşqi ilə
enən qurbanı dərk elə.

Azan özü nə danışır,
nə söyləyir insanlara? –
Doğan günü, batan ayı,
sökülən danı dərk elə.

Bədən ruhla, işıq gözlə,
baş ağılla gözəlləşər,
İmandı qəlbin işığı,
dini, imanı dərk elə.

Məzlum kimdir, zülmkar kim,
cənnət nədir, cəhənnəm nə? –
Ölüm-dirim yollarında
tökülən qanı dərk elə.

Haqqın varmı haqq yolunda
qələmini çalmaq üçün? –
Nəfsi öldür, tamahı boğ,
ağlı, vicdanı dərk elə.

Səhradakı qum dənəsi
sal qayadan nişanədir,
Zərrəyə bax, bir zərrədə
bir kəhkəşanı dərk elə.

Cəsarətin çatacaqmı
dağı yerdən qaldırmağa,
Özünə bax, qəlbindəki
gücü, imkanı dərk elə.

Hər ağ üzdə bir Günəş var,
hər könüldə bir atəş var,
Bax Peyğəmbər camalına,
bütün cahanı dərk elə.

ALLAHIM, ÖZÜN MƏNİ GÜNAHLARDAN TƏMİZLƏ!

Nəfsini (günahlardan) təmizləyən
mütləq nicat tapacaqdır!
("əş-Şəms" surəsi, 9-cu ayə)

Batdığım bir günah varsa,
savaba çevir, Allahım!
Sualların aç sirrini,
cavaba çevir, Allahım!

Dodağımdan çıxan dua
küləklərə yem olmasın,
Köçür onu yaddaşlara,
kitaba çevir, Allahım!

Mənəm eşqin kitabını
canı-dildən yazan bu gün,
Hər sözümə bir avaz ver,
rübaba çevir, Allahım!

Ürəyimdən keçənləri
varaqlara köçürməsəm,
Yandır bağrım tikə-tikə,
kababa çevir, Allahım!

* * *

Bu gün günah tutmuşam,
azdı-çoxdu – nə fərqi,
Allahım, özün məni
günahlardan təmizlə!

Hər günah insan üçün
bir ahdı, bir ağrıdı,
Məni bu ağrılardan,
bu ahlardan təmizlə.

Şeytan aldadıb məni,
nəfsə əsir olmuşam,
Nəfsimi, nəfəsimi
tamahlardan təmizlə.

Mən ki heç vaxt, heç zaman
bütpərəst olmamışam,
İçərimi büt olan
ilahlardan təmizlə.

İnsanın ürəyini
nəfs adlı timsah yedi,
Sən bizim içimizi
timsahlardan təmizlə.

Könülləri hiylədən,
gözü kindən təmizlə,
Göydə mələklər gəzir,
yeri cindən təmizlə.

Yalan deyən dilləri
yalanlardan təmizlə,
Ruhu talançılardan,
talanlardan təmizlə.

Məsəldi: "Qurd ağacı
çəkib içindən yeyər",
Amandı, içimizi
acgöz qurddan təmizlə.

Öz əslini-kökünü
unudan manqurt olar,
Sən bizim ruhumuzu
bu manqurtdan təmizlə.

Əli halala öyrət,
yapışmasın haramdan,
Məlhəm qoy, əlac elə,
qan axmasın yaramdan.

Paklıq Allah işidir,
verdiyi paydan gəlir,
Duruluq bərəkətdi,
çeşmədən, çaydan gəlir.

Allahım, odu küldən,
suyu lildən təmizlə,
Pak et insan qəlbini,
Onu əyri əməldən,
acı dildən təmizlə.

Xaini paxıllıqdan,
xəyanətdən təmizlə,
Cahili arif elə,
cəhalətdən təmizlə.

Yazıqdı bəşər oğlu!
Ona bircə sifət ver,
min sifətdən təmizlə.

Mənə Məhəmməd ömrü,
övliya taleyi ver,
Azadlıq eşqi göndər,
əsarətdən təmizlə.

Bu eşqlə gecə-gündüz
alışıram, yanıram,
Ölürəm, dirilirəm,
yatıram, oyanıram.

Nöqtəsini qoyanda
yamanlığın, pisliyin,
Köklərini kəsəndə
böhtanın, xəbisliyin,
Ürək təmiz olanda,
sevgi dəniz olanda,
Allaha istəyimiz
candan əziz olanda,
Peyğəmbərə sevgimiz
qaynar bulaq olanda,
İnsan xeyrə bağlanıb
şərdən uzaq olanda,
Ürəkdə yandıranda
məhəbbətin odunu,
Dilimizdən siləndə
hər cür dedi-qodunu
Zülmət gecələr belə
işıqlanar, dan olar,
Batinimiz küfrə yox,
işığa meydan olar.
Xoş əmələ güvənib
qüvvət, nicat taparıq,
Bu dünya içində də
nurlu həyat taparıq.
Daha da işıqlanar
nazil olan kəlamlar,
Peyğəmbərə yetişər
verdiyimiz salamlar!

MÖCÜZƏLƏR DÖVRÜNƏ O BİR MÖCÜZƏ GƏLDİ

Ey kitab əhli! Peyğəmbərlərin ardı-arası kəsildiyi bir dövrdə: "Bizə nə bir (cənnətlə) müjdə verən, nə də bir (cəhənnəm əzabı ilə) qorxudan kimsə gəldi!" – deməməyiniz üçün sizə Peyğəmbərimiz (Məhəmməd) gəldi. Artıq sizə müjdə verən və qorxudan (xəbərdarlıq edən) kəs gəlmişdir. Allah hər şeyə qadirdir!

("əl-Maidə" surəsi, 19-cu ayə)

Ulu Tanrı insan üçün
görün nələr yaratdı,
Ağıllara sığışmayan
möcüzələr yaratdı.
İlk dəfə bir insan kimi
o, Adəmi yaratdı.
Möcüzələrlə dolu
bir aləmi yaratdı.
O, atadan olmadı,
doğulmadı anadan,
Onu belə yaratdı
Tanrı başdan-binadan.
Ağac ilana döndü,
ilan isə əsaya,
Verdi möcüzəsini
O, Həzrəti Musaya.
Gəldi neçə möcüzə –
Həzrət İsaya gəldi,
O bir peyğəmbər kimi
seçildi, saya gəldi.

Min illərdi elə bil
dünya ona tanışdı,
Beşiyində dil açdı,
bələyində danışdı.
Bəndənin üzərində
olsa Haqqın nəzəri,
Balığın qarnında da
Sağ-salamat saxlayar
Yunustək peyğəmbəri!
Təfəkkürdə, ağılda
nələr yaratdı, nələr,
Məhəmməd zamanında
yaranan möcüzələr.
Ucalan sarayları
çəkilən bir ah yıxar,
Könül evi yıxanın
evini Allah yıxar.
Fili nə sərt enişlər,
nə sərt yoxuşlar yıxar,
Əgər Allah istəsə,
filləri quşlar yıxar.
Allahın əmrindədir
göy üzünün quşları –
Əgər Allah istəsə,
Kəbə yıxmaq istəyən
Əbrəhələr[27] başına
yağdırarlar daşları!
Bu da bir möcüzədir,
Haqqa düşmən olana
nifrət möcüzəsidir,
Allahın öz evinə
rəğbət möcüzəsidir.
Ən böyük möcüzəsin
Məhəmmədə göndərən,

Quranla fikirləri
gülüstana döndərən,
Qadiri-qüdrət olan
Yaradandı, Yaradan!
Böyük möcüzələri
o endirər yerlərə,
Ən böyük dərdləri də
o qaldırar aradan.

Dünyaya gələn kimi
nurla göz-gözə gəldi,
Möcüzələr dövrünə
o bir möcüzə gəldi.
O qədər nurlandı ki,
yollar, izlər, cığırlar,
Min ilin köhnəsi də
hamıya təzə gəldi.

Yağıştək səpələdi
ulduzlar işığını,
Göylər yerlərə verdi
o gün yaraşığını,
Haqq sözü əzizlədi
öz yetim uşağını,
Onu ziyarət üçün
dağ endi, düzə gəldi,
Möcüzələr dövrünə
o bir möcüzə gəldi.

Kürəyində görəndə
peyğəmbərlik möhrünü,
Doğmaları çoxaltdı
ülfətini, mehrini;
O bir nur parçasıydı,
açdı könül şəhrini,

Baş endirdi önündə,
zirvələr düzə gəldi,
Möcüzələr dövrünə
o bir möcüzə gəldi.

Yayıldı bu xoş xəbər
Haqqa, ərşə, zəminə,
Elə bil son qoyuldu
bu dünyanın qəminə;
Arzular qanadında
ucalanda Əminə
Ananın bu sevinci
çoxaldı, yüzə gəldi,
Möcüzələr dövrünə
o bir möcüzə gəldi.

Dedi: "Gərək indidən
o seçilə, sayıla,
Adı, səsi-soraği
yer üzünə yayıla";
Allahın tapşırığı
yetişdi Cəbrayıla,
Mələk ilə Məhəmməd
o gün üz-üzə gəldi,
Möcüzələr dövrünə
o bir möcüzə gəldi.

AND OLSUN QƏLƏMƏ

Nun! And olsun qələmə və (mələklərin) yazdıqlarına (yaxud lövhi-məhfuzda yazılanlara) ki...
("Nun" və ya "əl-Qələm" surəsi, 1-ci ayə)

O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi.
("əl-Əlaq" surəsi, 4-cü ayə)

O qələm ki tarixlərə
şərəf yazıb, şan yazıb,
O qələm ki gözəlliyin
eşqinə fərman yazıb,
O qələm ki naxış vurub
yaddaşına dünyanın,
O qələm ki göydə mələk,
yerdə də insan yazıb,
O qələm ki insanları
fələklərə qaldırıb,
O qələm ki bəxtimizə
Cənnəti-Rizvan yazıb,
O qələm ki ərş üzünə
"İlliyun"u nəqş edib,
O qələm ki Tanrı tutub,
Xaliqi-Rəhman yazıb, –
And içirəm o mübarək,
o müqəddəs qələmə,
And içirəm bizi yoxdan
var eləyən aləmə,
And içirəm qələmdəki
yazıların rənginə,

"And olsun səhərçağı
hücum edən atlara[28]",
And olsun cihad üçün
çırpınan qanadlara,
And olsun Quran üstə
səslənən avazlara,
And olsun gündə beş vaxt
qılınan namazlara,
And olsun vədəsində
verilən zəkatlara,
And olsun İlahidən
gələn mükafatlara,
Ey mənim Peyğəmbərim!!!
Fikrim, zikrim, əzbərim!!!
Hər zaman sənindir
ruhum, sevincim, qəmim,
Sən deyəni yazacaq
mənim dürüst qələmim.
Heç yerdə, heç bir zaman
yolunu azmayacaq,
Həqiqətdən gəlməyən
bir kəlmə yazmayacaq.
Eşqinlə əriyəcək
buzlu yolların donu,
Elm Çində də olsa,
tapacağam mən onu.
"Oxu!" – deyilən elmi
oxuyub varaq-varaq,
Eşqinlə alışacaq
hər ürəkdə şam, çıraq!
Şeytanların fitnəsi
göynətməsin bağrını,
Özün qurtaracaqsan
hər əzabı, ağrını.
Görsək də haqsız yerə
İslamın bostanına
hərdən atılan daşı,

Bütöv dinim, tam dinim,
ey mənim sağlam dinim,
Əymə kafir önündə
Haqqa əyilən başı!
Şumerlər Asiyadan
qaldıranda səsini,
Yayanda yer üzünə
elmin təntənəsini,
Neçə qədim əsrdən,
Neçə sirli qəsrdən,
Qədim Dəclə-Fəratdan,
Türküstandan, Misirdən
Dünya aydın görəndə
oyanan intibahı
Hələ açılmamışdı
Avropanın sabahı!..
Qərb şirin yuxudaydı
Şərq ayağa duranda,
Qərb rəngi tanımırdı
Şərq naxışlar yaradıb
kəşanələr quranda!
İslam sevgi bəslədi
Özündən əvvəl gələn
kitablara, dinlərə,
Qəlbini, ürəyini
batırmadı kinlərə.
And olsun qələmə ki,
Türk-islam ellərinin
düşüb dərin eşqinə,
Müsəlmanın, islamın,
Peyğəmbərin eşqinə,
Nə şişirdib, artırıb,
nə də ki kəm yazacaq,
Ən böyük həqiqəti
Nə var olduğu kimi,
bax bu qələm yazacaq!!!

PEYĞƏMBƏR
və
ŞAİRLƏR

** (Müşrik və kafir) şairlərə gəlincə, onlara yalnız azğınlar uyar!*
** Məgər görmürsənmi ki, onlar hər bir vadidə sərgərdan gəzib-dolaşırlar? (Hər tərəfə meyil edir, birini yalandan mədh, digərini isə əbəs yerə həcv edirlər!)*
** Və onlar etmədikləri şeyləri deyirlər! (Onların dediklərinin əksəriyyəti yalandır!)*
** Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra intiqamını (haqqını) alanlardan başqa! Zülm edənlər isə (öləndən sonra) hansı dönüşə dönəcəklərini (hara düşəcəklərini, aqibətlərinin necə olacağını, hansı inqilabla sarsılacaqlarını) mütləq biləcəklər!*

("əş-Şüəra" surəsi, 224-227-ci ayələr)

Əsli-nəcabəti,
südü-sümüyü
Şeytandan gələnlər
həcv edər səni.
Xəmiri-mayası
şərdən yoğrulan,
Böhtandan gələnlər
həcv edər səni.

Xain tənəsindən,
xəbis dilindən,
Nankor toxumundan,
namərd əlindən,

Nanəcib qarnından,
naşı belindən,
Nadandan gələnlər
həcv edər səni.

İçi yamanlığın
paxırı, pası,
Yerlərə müxənnət,
göylərə asi,
Hərzə danışmağın,
məkrin ustası,
Hədyandan gələnlər
həcv edər səni.

Gecə də, gündüz də
Allah evində
Çırpınan ürəklər
vəsf edər səni.
Müqəddəs torpağın
qara bağrında
Yamyaşıl çiçəklər
vəsf edər səni.

Pətəkdə bal olar,
çiçəkdə şirə,
Çevrilər ocağa,
çevrilər pirə,
Yeddidən yetmişə,
birdən min birə
Dövr edən fələklər
vəsf edər səni.

Oxuyar eşqinlə
qumrular, qular,
Açar qanadını
nurlu duyğular.

Çağlayan çeşmələr,
qaynayan sular,
Qanadlı küləklər
vəsf edər səni.

İrfan məclisinin
xonçası, xonu,
Əxlaqın libası,
həyatın donu,
Sonun əvvəlisən,
əvvəlin sonu,
Ən təmiz diləklər
vəsf edər səni.

Üzündən, gözündən
nur yağa-yağa
Vurar naxışını
qaraya, ağa.
Allahın əmriylə
enər torpağa,
Müqəddəs mələklər
vəsf edər səni.

Şairlər başqa-başqa,
şairlər cürbəcürdü,
Biri sakit, ağıllı,
biri dəlidi, kürdü.
Biri Allah eşqini
öz başına tac eylər,
Ağrısına təsəlli,
dərdinə əlac eylər.

Bir sözünü dəyişməz
min-min sərvətə, zərə,
Şükr edər Yaradana,
üz tutar Peyğəmbərə.

Baxar ilahi sözə
"Quran ayəsi" kimi,
Duyar şeirin səsini
Tanrının səsi kimi!
Dildən çıxan haqq sözü
ocaq bilər, pir bilər,
Tanrıya şəkk gətirməz,
Allahını bir bilər.

Şairlər başqa-başqa,
şairlər cürbəcürdü,
Ona verilən ömrü
hər kəs bir yolla sürdü.
Biri başın töhməti,
üzümüzün qarası,
Düzlərin sərgərdanı,
çöllərin avarası.
Biri şeytana uyan
kafirlərin kafiri,
Biri Allah yolunun
ən nurlu müsafiri.
Birinin qələmindən
pas tökülər, kir yağar,
Birinin qələmindən
şəfəq saçar, nur yağar.
Şairlər var, dilindən
axar ilan zəhəri,
Şairlər var, dilindən
həmişə "şükür" yağar.
Şairlər başqa-başqa,
şairlər cürbəcürdü,
Birinin dedikləri
saman çöpünə dəyməz,
Birinin dedikləri
ləldi, gövhərdi, dürdü.

Allaha qarşı çıxıb,
Haqq üzünə ağ olan,
Kəlməbaşı hər sözü
təhqir olan, lağ olan,
Yaradana yox deyən,
Allaha inanmayan,
İlahi sevdasına
bircə dəfə yanmayan,
Şeytanı möhür kimi
ürəyinə həkk edən,
Ən böyük həqiqətin
varlığına şəkk edən,
Müsibət xəbərçisi,
fəlakət bayquşları,
Xəbislər, yarasalar
onların tay-tuşları.
Peyğəmbərin gözündən
tökmək üçün yaşları,
Tökmür, tökmək istəmir
ətəyindən daşları.
Ən yaramaz bir işi
özünə gərək bilən,
Həcvi, məkri, təhqiri
yol bilən, örnək bilən,
Bu müşrik şairlərin,
bu kafir şairlərin,
Cəhənnəmə əbədi
müsafir şairlərin
Payını vermək üçün,
Onların iç üzünü
açıb göstərmək üçün
Gəldi, vaxtında gəldi
Qurandakı ayələr.
Azğınlar yaxşı bilsin,
Uzaq yol gedə bilməz,
çürükdürsə qayələr!

Ey mənim Peyğəmbərim!
Ey nurum, ey səhərim!
Sənə sataşanların,
həddini aşanların,
Atmaca atanların,
günaha batanların
Adı, sanı, soyadı
Cəhənnəm nişanəli
nifrət dəftərindədir!
Rəhmətdən uzaq olan
lənət dəftərindədir!
Lənət ilə anılır
min dörd yüz ildən bəri
Abdulla əz-Zibəri!
İblis ürəklilərlə
çəkiləndə haqq-hesab
Lənət ilə anılır
Hubayrad ibn Vahab.
Şairliyi kafirlik
xəmrəsində yoğuran,
Nəfəsi müsibətlər,
faciələr doğuran,
Qəlbində cin yığnağı,
çiynində günah yükü,
Bu kafir şairlərin
Bu günün özündə də
kəsilmək bilmir kökü.
İyrənc əməllərini
yaşadanlar var hələ,
Peyğəmbər bostanına
daş atanlar var hələ.
Kafir şairlər öldü,
ancaq kafirlik qalır,
Onların arasında
şeytani birlik qalır.

Nə tapdı, nə qazandı
dünənki Zibərilər,
Hərçənd çoxu sonradan
dönüb müsəlman oldu,
Müsəlman olanadək
püskürdüyü qan oldu.
Lənət kitabındadı
bu gün Salman Rüşdülər,
Tarixin kitabına
ləkə kimi düşdülər!

Ey mənim Peyğəmbərim!
Taxtım, tacım, sərvərim!
Məndən salamlar olsun
Sənə iman gətirən
Həsən ibn Sabitə,
Abdullah ibn Kəbə.

Bu gün onların yeri
Yaradanın yanında
Ən möhtəşəm saraydı,
ən uca bir mərtəbə!
Zaman nurtək yaşatdı
Allaha, Peyğəmbərə
nur, işıq şairləri!
Bu günün özündə də
Peyğəmbər məqamına
yaraşıq şairləri!
Rəhmətlə anır bəşər
Allahı, Peyğəmbəri
zikr edən şairləri,
Qatlandığı əzabda,
yaratdığı kitabda
Yaradana – Allaha
şükr edən şairləri!

Bu gün kim xatırlamır
Şeyximiz Nizamini?
Əlişir Nəvaini,
Əbdürrəhman Camini?
Bu gün kim xatırlamır
Cəlaləddin Rumini?
Min ildi Allah deyib,
"Məsnəvi"ylə titrədir
ürəklərin simini!
Bu gün kim xatırlamır
Yəsəvini, Yunisi,
Hacı Bəktaş Vəlini?
Bu böyük şairlərin
qoy üstündən çəkməsin
Yaradan öz əlini!
Bu gün kim xatırlamır
Məhəmməd Füzulini?
Nəsimi deyildimi
danışan quş dilini?!
Bu gün kim xatırlamır
Adı peyğəmbər adlı Pakistanlı İqbalı?
Bu günün Mövlanası
ruhun cahi-calalı?
Peyğəmbər ürəyinə
vəhyi göndərən Allah
Şairə, sənətkara
sözü, ilhamı verdi.
Məhəbbət çeşməsini
onlara bağışladı,
Söz dolu bir dəryanı,
nur dolu camı verdi.

Ey mənim Peyğəmbərim!
Şah sözüm, şah əsərim!

Mənim də millətimin
ən uca şairləri,
şeyxləri, pirləri
Müqəddəs əməliylə
sənin xidmətindədir!
Sənin xeyir-duanda,
sənin rəhmətindədir!
Abbasqulu ağanın
ruhu bu gün uyuyur
"Vadeyi-Fatimə"də[29].
Anamızın adını
daşıyan bir səhrada!
Racinin ölməz ruhu
Qırmızı dənizdədir,
dalğalanır dəryada[30]!
"Ürfan çobanı" Cavid
Sənin eşqinlə yazdı,
yaratdı "Peyğəmbər"i!
Səni sevdiyi üçün
Yağdırdılar başına
min cür böhtanı, şəri!
Ancaq qələbə çalan
nə şeytan, nə şər oldu,
Qalan Cavid Əfəndi,
bir də "Peyğəmbər" oldu!
Şeytanın şairləri
yenə şər yanındadır,
Tanrıya ucalanlar
Allahın dərgahında,
Peyğəmbər şairləri
Peyğəmbər yanındadır!

Ey mənim Peyğəmbərim!
Yüküm, çəkim, ləngərim!

Sənin xidmətindədir
ilahi səs şairi,
ruh və nəfəs şairi!
Bu gün bir şair də var,
könül və can şairi,
Zəlimxan Yaqub kimi
Azərbaycan şairi,
Türk ruhuna, islama
sədaqətin şairi,
Sənin çox bəyəndiyin
bir millətin şairi,
Yaradana səcdənin,
ibadətin şairi!

Nə böyük bəxtəvərlik –
Su kimi aydın, duru,
bal kimi şirin olmaq,
Od içində Zəmzəmin
suyutək sərin olmaq,
Sənin xidmətçin, qulun,
sənin şairin olmaq,
Ey mənim Peyğəmbərim,
sənin şairinəm mən!

Üçüncü minilliyin
əvvəlidir, əvvəli,
Qəlbimdə sənin eşqin,
üstümdə Haqqın əli,
Dərya sən, qəvvas mənəm,
qoynunda tapdım ləli,
Ey mənim Peyğəmbərim,
sənin şairinəm mən!

Mən də könlümü verdim
Haqqa yar şairlərə,
Bayrağını daşıyan
bayraqdar şairlərə.
Qoşulmadım bircə gün
qəlbi dar şairlərə,
Ey mənim Peyğəmbərim,
sənin şairinəm mən!

Kimsənin bostanına
heç zaman daş atmadım,
Ömrümdə bir quşun da
dimdiyin qanatmadım.
Bir qəlbə toxunanda
şirin yuxu yatmadım,
Ey mənim Peyğəmbərim,
sənin şairinəm mən!

Sənin dediklərini
başımda tac elədim,
Könlümün bağçasında
əriş-arğac elədim,
Eşqini Kəbə bildim,
qəlbimi hac elədim,
Ey mənim Peyğəmbərim,
sənin şairinəm mən!!!

PEYĞƏMBƏRİN ŞƏKLİ – ŞƏMAYİLİ[31]

Ulu böyük Yaradan
Gətirəndə dünyaya
Onu nurdan yaratdı,
saf büllurdan yaratdı.
Asta, inamlı səs də,
gül ətirli nəfəs də,
Yaraşıqlı boy-buxun,
cazibəli duruş da,
Nəzakətli yeriş də,
ədəbli oturuş da,
Səliqə də, nizam da,
bal kimi danışıq da,
Üzdə, gözdə, sifətdə
çiçəklənən işıq da,
Yerində-yatağında
hər dediyi kəlam da,
Verdiyi xeyir-dua,
aldığı xoş salam da,
Halallıqdan yoğrulan
xəmri də, mayası da,
Qızdan, gəlindən üstün
abrı da, həyası da
Təbiətin töhfəsi,
Tanrının vergisiydi,
Başdan-başa camalı
qızılgül sərgisiydi.
Daha da nurlanırdı
Günəş onu görəndə,
Ay göydə nazlanırdı
ona salam verəndə.

Bulaqlar sevinirdi
o içəndə suyunu,
Ulduzlar öyünürdü
seyr edəndə boyunu.
Rənglərin sırasında
yaşıl rəngi sevirdi,
Ürəyə sığal çəkən
hər ahəngi sevirdi.
Qaşlarının düyünü,
gözlərinin rəngi də,
Sözünün axarı da,
səsinin ahəngi də,
Peyğəmbərlik möhürü
kürəyinin bəni də,
Geniş alnı, ağ üzü,
şirmayı bədəni də,
Yeriyəndə qabağa
əyilən qaməti də,
Baxışında oxunan
böyük məhəbbəti də,
Çiçək kimi, gül kimi
yanağının alı da,
Geniş köksü, ağ əli,
gur qara saqqalı da,
Qara göz bəbəkləri,
uzun kirpikləri də,
Kirpiklərdən süzülən
göz yaşı da, təri də,
Gümüş külçəsi kimi
işıqlı görkəmi də,
O görkəmdə görünən
sevinci də, qəmi də
Şərəf alıb Tanrının
ən uca şərəfindən,

Çəkilib şəkil kimi
Allahın tərifindən!
O, Peyğəmbər şəklidi!
Bu camala baxanda
Ən mahir rəssam belə
həsədindən ah çəkib,
Çünki bu gül camalı
Nə bir rəssam, nə nəqqaş,
tək olan Allah çəkib!
Bəndənin gücü çatmaz
Haqqın yaratdığında
qüsur, nöqsan tapmağa,
Onun yaratdığını
başqa cürə yapmağa!

DADIMA SƏN ÇAT!

Dua rəhmət qapısının açarıdır.
Hz. Məhəmməd

Peyğəmbər eşqinə,
ey qadir Allah,
Bir az müşkülüm var,
dadıma sən çat!
Vətən bağçasında,
millət bağında
Saralmış gülüm var,
dadıma sən çat!

Yanan doğmalardı,
yadlar yandırıb,
Yezidtək, Şümürtək
adlar yandırıb,
Şeytan övladları
odlar yandırıb,
Qovrulmuş külüm var,
dadıma sən çat!

Dünyanın bir bəxti kəm
şairiyəm,
Gözü yaş, kirpiyi nəm
şairiyəm,
Qəmdən doğulmuşam,
qəm şairiyəm,
Boynu bükülüm var,
dadıma sən çat!

Bir közəm, əlimdən
ocağım gedib,
Əsirim, girovum,
torpağım gedib,
Ərşə səsim çatıb,
sorağım gedib,
Çəkilməz zülüm var,
dadıma sən çat!

Məlhəmi, əlacı
ara bağrıma,
Vurublar nə qədər
yara bağrıma,
Qarabağ çevrilib
qara bağrıma,
Qarşıda ölüm var,
dadıma sən çat!

AMİN! YA RƏBBƏL-ALƏMİN!

Ey Həzrəti Peyğəmbərim,
məndən sənə salam olsun,
Allah adı qoy dilimdə
ən müqəddəs kəlam olsun,
Ümmətini qorumağa
Quran bürcüm, qalam olsun,
Amin! Ya Rəbbəl-aləmin!

Dildən-dilə, dindən-dinə,
eldən-elə hörmət olsun,
Xeyirli söz, xeyir əməl
ən mübarək nemət olsun,
"Allah birdi" deyənlərin
son məqamı cənnət olsun,
Amin! Ya Rəbbəl-aləmin!

Söz həmişə məhəbbətin,
meydan çörək-duzun olsun,
Sevənlərin ömrü-günü
sevdiyindən uzun olsun,
İcazə ver, keçək-gedək,
cənnətinə izin olsun,
Amin! Ya Rəbbəl-aləmin!

İnsan oğlu səndən qeyri
bir kimsəyə qul olmasın,
Kimsə kimin belindəki
toza batmış çul olmasın,
Xırdalana-xırdalana
sevgi qara pul olmasın,
Amin! Ya Rəbbəl-aləmin!

Mən dərdli bir şairiyəm
dərdi böyük bir millətin,
Yurdum-yuvam, oğlum-qızım
qurbanıdır xəyanətin,
Heç kəsə möhtac olmasın,
səndən gəlsin inayətim,
Amin! Ya Rəbbəl-aləmin!

Ağrıların pəncəsində
çarmıx görmüş bir bədənəm,
Bütövləşdir varlığımı,
parçalanmış bir vətənəm,
Göstər böyük xoşbəxtliyi,
dünya görsün – mən də mənəm,
Amin! Ya Rəbbəl-aləmin!

Nahaq bilib haqqımızı,
yalan sayıb doğrumuzu,
Qarabağda tikə-tikə
yandırıblar bağrımızı,
Özgələr yox, öz qüdrətin
qoy sağaltsın ağrımızı,
Amin! Ya Rəbbəl-aləmin!

Bir "Vəhdəti-vücud" eylə,
aramızda birlik olsun,
Qoy cücərsin toxum kimi,
birliyimiz dirlik olsun,
Astanamız ziyarətlik,
ocağımız pirlik olsun,
Amin! Ya Rəbbəl-aləmin!

Ömrün-günün yollarında
büdrəməsin köhlən atım,
Məhəmmədin məqamına
vədəsində gedim çatım,

Şeirim olsun Peyğəmbərin
camalına salavatım,
Amin! Ya Rəbbəl-aləmin!

Yardımınla, kərəminlə
zənginləşdi bu sərvətim,
Yerlə-göyün arasında
dalğalandı məhəbbətim,
Bir "Peyğəmbər" şairitək
qəbul olsun bu niyyətim,
Amin! Ya Rəbbəl-aləmin!

NƏDİR ƏRƏSAT AYAĞI, GEDİN ƏRƏFATDA GÖRÜN!

Ey Allahın bəndələri,
Haqqa çatmaq istəsəniz,
İnsanlığın tarixini
Adəm adlı zatda görün.

Varaqlayın səmalardan
enib gələn kitabları,
Davuda Zəburda baxın,
Musanı Tövratda görün.

Ruhun sınmaz qanadları
işgəncə, çarmıx tanımır,
İsanı İncildə tapın,
ən sehrli qatda görün.

Quranın hər ayəsində
diri, canlı bir həyat var,
Ona baxın, Məhəmmədi
həmişə həyatda görün.

Göy üzündən yer üzünə
enib gələn ağ yolları
Cəbrayılın çiynimizdə
çaldığı qanadda görün.

İslam nədi, iman nədi,
nə deməkdi müsəlmanlıq? –
Rəsulullah yer üzünə
gəldiyi saatda görün.

Hayandadı Adəm-Həvva
bir-birini tapdığı yer,
Nədir Ərəsat ayağı,
gedin Ərəfatda görün!

OXUNAN QURANIN SAVABI

Ey Məhəmməd ümməti,
səndən budur istəyim:
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Biz ona İlahidən
verilən dərs demişik,
Biz ona duyğulardan
süzülən səs demişik.
Biz ona yaranışdan saf,
müqəddəs demişik,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Onun dərkinə varmaq
ər oğlu ər işidir,
Zərgərlik sənətidir,
o bir zərgər işidir,
O, Tanrı möcüzəsi,
o, peyğəmbər işidir,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Nə ucadı məqamı,
nə şirindi əzabı,
Tilsimlərin dilidir,
sualların cavabı,
Dürüst oxu, gözəl yaz,
birə-mindi savabı,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

İlqar, iman sahibi
ocaq olar, kül olmaz,
İmansız bir ürəkdə
tikan bitər, gül olmaz,
Allaha ağır gedən
bəndəyə yüngül olmaz,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Quran nə bütpərəstin,
nə də ki bir bütündü,
Yoxdu onu yandıran,
onu yaxan büt indi,
Haqdan bəndəyə doğru
yüksələn bir sütundu,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Üstündə Haqqın əli,
Yaradanın zəhmi var,
Bir sözdə min aləmin
düşüncəsi, fəhmi var,
Demə ki bağışlayar,
o, Rəhmandı, rəhmi var,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

Yeri ucadan uca,
yaşı uludan ulu,
Hər nöqtəsi, vergülü
İlahidən vurğulu,
Övliya da, şeyx də,
imam da onun qulu, –
Hər qəlbə o kitabdan
yol düşər, cığır gedər,
Quranı səhv oxuma,
Allaha ağır gedər.

PEYĞƏMBƏR QURAN OXUYUR

Ululardan eşitdiyimə, kitablardan oxuduğuma görə, deyirlər Hz. Peyğəmbərimiz Quranı çox ilahi bir avazla oxuyarmış. Elə bil o səsi, o peyğəmbər avazını bu gün mən də eşidirəm...

Aman Allah! Bu nə sehir,
bu nə ovsun, bu nə avaz,
Mən bu səsdən yer üzündə
az eşitdim, az gördüm, az.
Belə sözə, belə səsə
ömrüm olsun nəzir-niyaz, –
Ürək coşur, könül sevir,
dodaq gülür, can oxuyur,
Bax Peyğəmbər avazına,
gör necə Quran oxuyur.

Vaxt əriyir yavaş-yavaş,
axşam düşür, gecə keçir,
Zamanların sınağından
islam başı uca keçir,
Heç bilmirəm mən hardayam,
ömrüm-günüm necə keçir, –
Bu səslərin işığında
sübh açılır, dan oxuyur,
Bax Peyğəmbər avazına,
gör necə Quran oxuyur.

Bu ovsunun işığına
dözmür ürək, dözmür bədən,
Bu səslərin işığında
kül olmadım, neyçün, nədən?

Ey Yaradan, icazə ver,
mən də içim bu çeşmədən, –
Ürəklə səs-səsə verib,
damarlarda qan oxuyur,
Bax Peyğəmbər avazına,
gör necə Quran oxuyur.

Yaz da burda, təravət də,
yaşıl çəmən də burdadır,
Göydə uçan, yerdə gəzən,
nurda çiməndə burdadır,
Çiçək üstə düşən şehi
nurtək əmən də burdadır, –
Arılar sanki bal çəkir,
pətək dolur, şan oxuyur,
Bax Peyğəmbər avazına,
gör necə Quran oxuyur.

Bu neməti dada bilsək,
genişlənər darlığımız,
Nur içində mələk kimi
hey paklaşar varlığımız,
Kafir olluq, bu səslərə
olsa əgər karlığımız, –
Yer də, göy də eşqə düşüb,
hər tərəf, hər yan oxuyur,
Bax Peyğəmbər avazına,
gör necə Quran oxuyur.

Taxtı uca, baxtı yeyin,
bu avaz şah avazıdı,
Durulanıb təmizlənmiş
ulu dərgah avazıdı,
Bu, bəndənin işi deyil,
bu, bir Allah avazıdı, –

Məhəmmədin nəfəsiylə
onu bir insan oxuyur,
Bax Peyğəmbər avazına,
gör necə Quran oxuyur.

Bizdən əvvəl mehə döndü,
könüllərdən əsdi bu səs,
Bizdən sonra neçə-neçə
min illərə bəsdi bu səs,
Heç vaxt sehri azalmayan,
təmiz qalan səsdi bu səs, –
Səs verib öz Rəsuluna,
Xaliqi-Sübhan oxuyur,
Bax Peyğəmbər avazına,
gör necə Quran oxuyur.

ƏXLAQ NURU, DİN İŞIĞI

Şübhəsiz, sən böyük bir əxlaq üzərindəsən!
("Nun" və ya "əl-Qələm" surəsi, 4-cü ayə)

Yaradılışın da əxlaqın qədər gözəldir.
("Hədisi-Şərif")

Yola tikan atırlar,
Tikanları gül bilir.
Hamını özü kimi
Nurlu bir könül bilir.

İşığının üstünə
Enir qara pəncələr.
Onu qorxuda bilmir
Əzablar, işgəncələr.

Yükü alır çiyninə,
Dərdi özünə çəkir.
Şeytan yana əysə də,
Yolu düzünə çəkir.

Kini yaxına qoymur,
Sevgi, barış adəti.
Suçlunu bağışlamaq
Ən böyük səadəti.

O yerinə yetirir
Oğultək oğulluğu;
Yaradanı təbliği,
Yaradana qulluğu.

Yaradanın önündə
Özünü bir qul bilir.
Ayırmır bir insanı,
Qulu da oğul bilir[32].

Doğruluq dost qapısı,
Xoş xəbərə açılır.
Dünyanın tilsimləri
Peyğəmbərə açılır.

Yadı da doğmasıtək
Özünə yaxın bilir.
Bəndəyə məhəbbəti
Qılıncına qın bilir.

Çiçəklərdən zərifdi
Qadına məhəbbəti.
Onlara məlhəm olur
Nitqinin bəlağəti.

Yoxsulların arxası,
Kasıbların pənahı;
İmkansıza əl tutar,
Tox nəfsi, yox tamahı.

Rəsulda zühur edən
Mələyin əxlaqıdır.
Tanrı hökmüylə dönən
Fələyin əxlaqıdır.

Əhli-beytin qapısı
Qış açıqdır, yay açıq.
Allah qonaqlarına
Qəlbi taybatay açıq.

Nur çilənib qəlbinə,
Nur səpilib üzünə.
Müşrik möminə dönür,
Baxsa onun gözünə.

O, "millətim" dəmədi,
O, "ümmətim" söylədi.
Allahın varlığına
"Həqiqətim" söylədi.

Asta dinir, danışır,
Ucadan gəlmir səsi.
Möcüzələr yaradır
Allahın möcüzəsi.

Ona məhəbbətimin
Yox çəkisi, ölçüsü.
Əxlaq zirvəsindədir
Yaradanın elçisi.

Əxlaq ismətdən gəlir,
Əxlaq həyadan gəlir,
Südlə, sümüklə, qanla
Kökdən, mayadan gəlir.

Əxlaq bir tül parçası,
Ləkəsiz gül parçası.
Sevgiyə ayna tutan,
Sevən könül parçası.

Təravətdi – ətri var,
Ləyaqətdi – xətri var,
Rəbbimizin yanında
Qiyməti var, qədri var.

Ülfəti var, mehri var,
Cazibəsi, sehri var.
Peyğəmbər fərmanında
Tanrının öz möhrü var.

Sevgi

Mənlik göstərməz, mən olar,
Haqq tarlasında dən olar,
Qalxar mələklə tən olar,
Coşar Peyğəmbər sevgisi.

Sısqa çayı gurlandırar,
Zülmətləri nurlandırar,
Yoxsul qəlbi varlandırar,
Daşar Peyğəmbər sevgisi.

Nə yönünü şaha tutar,
Nə özünü baha tutar,
Üzünü Allaha tutar,
Yaşar Peyğəmbər sevgisi.

Gör Peyğəmbər əxlaqını

Ürəyini təmiz eylə,
Gör Rəsulun əxlaqını.
Sevgini bir dəniz eylə,
Gör Rəsulun əxlaqını.

İşıq payla zəriflərə,
Qol-qanad ol arıflərə,
Tamah salma təriflərə,
Gör Rəsulun əxlaqını.

Halallıqdan çək balını,
Allah soruşsun halını,

Heçə say dünya malını,
Gör Rəsulun əxlaqını.

Gözlərində cin saxlama,
Ürəyində kin saxlama,
De haqq sözü, din, saxlama,
Gör Rəsulun əxlaqını.

Eşqi Haqdan gələn səs bil,
Haqqı doğma bir nəfəs bil,
İmanını müqəddəs bil,
Gör Rəsulun əxlaqını.

Ərənə dön, ər yolu tut,
Nə fitnə, nə şər yolu tut,
Uca Peyğəmbər yolu tut,
Gör Rəsulun əxlaqını.

Damardan süz, qandan keçir,
Ruhda ərit, candan keçir,
Qəlbini Qurandan keçir,
Gör Rəsulun əxlaqını,
Gör Peyğəmbər əxlaqını.

Göylər enib
Məhəmmədə sarı gəlir

Aradabir Məhəmməddən
uzaqlaşan
Qoca dünya Məhəmmədə
sarı gəlir.
Alçaq dünya Peyğəmbəri
başa düşmür,
Uca dünya Məhəmmədə
sarı gəlir.

Peyğəmbər bu sərt dağlara
çox gələrdi,
Dağlar indi Məhəmmədə
sarı gəlir.
Zaman gəldi min illəri
yaxaladı,
Çağlar indi Məhəmmədə
sarı gəlir.

"Bulanmışam, durult məni"
deyə-deyə
Sular dinib Məhəmmədə
sarı gəlir.
Silkələnib "Şəqqül-Qəmər"[33]
möcüzəsi,
Göylər enib Məhəmmədə
sarı gəlir.

Bir ağacın min bir sayda
budağı var,
Kökü dönüb Məhəmmədə
sarı gəlir.
Tərəzinin islam gözü ağırlaşır,
Yükü dönüb Məhəmmədə
sarı gəlir.

Qulaqlarda səs işığı,
gün işığı,
Uca mələk Məhəmmədə
sarı gəlir.
Könüllərdə əxlaq nuru,
din işığı,
Çərxi-fələk Məhəmmədə
sarı gəlir.

Uca tutub Haqq eşqini,
din adını,
İman hər gün Məhəmmədə
sarı gəlir.
İslam qırır zalımların
inadını,
Zaman hər gün Məhəmmədə
sarı gəlir.

Mərhəmət namazını
qılmamaq mümkündümü?

Oğulsansa vurulma
ilahi gözəlliyə,
Bu əxlaqın heyranı
olmamaq mümkündümü?
Rəhmət yağışlarını
yağdırırsa Yaradan,
Dərin dəryalar kimi
dolmamaq mümkündümü?

Yumşaqların yumşağı,
həlimlərin həlimi,
Əfəndilər sultanı,
aləmlərin alimi.
Onun verdiyi dərsi,
o keçdiyi təlimi
Könül verib, can verib
almamaq mümkündümü?

Ağzından nə çıxırsa,
keçir qandan, ilikdən,
Sözü ağıldan gəlir,
düşüncəsi bilikdən.

Sehrə, ovsuna düşüb
bu boyda dahilikdən,
Tanrının tilsimində
qalmamaq mümkündümü?

Sözünün dad-tamına
bal kimi şirin deyib,
Zehninə, yaddaşına dərindən
dərin deyib,
Allahın vergisinə
yüz min "Afərin!" deyib,
Sonsuz düşüncələrə
dalmamaq mümkündümü?

Nə ağırdı bu ruhda
yoğrulub yapılmamaq,
Nə gözəldi bu dində
itmək və tapılmamaq.
Gözəl əxlaq deyəndə
səcdəyə qapılmamaq,
Vacibət namazını
qılmamaq mümkündümü?

Məkkənin himni

Çağırdıq qadir Allahı,
Yazıldı qismət Məkkədə.
Çəkdi bizi ziyarətə
Ulu bir qüdrət Məkkədə.

Həftələr aya qovuşdu,
Çeşmələr çaya qovuşdu,
Damla dəryaya qovuşdu,
Yox oldu həsrət Məkkədə.

Şəkər imiş sözdən ötrü,
İşıq imiş gözdən ötrü,
Zəmzəm suyu bizdən ötrü
Oldu bir şərbət Məkkədə.

Fikir fikrə həyan oldu,
Səsimizi yayan oldu,
Baxanlara əyan oldu
Əsl həqiqət Məkkədə.

Yerdən göyə məhəbbət var,
Göydən yerə mərhəmət var,
Haqqa doğru hərəkət var,
Bircədi sifət Məkkədə.

Nur yaranıb, zər doğulub,
İmam, peyğəmbər doğulub,
Əli kimi ər doğulub
Kəbəsi hikmət Məkkədə.

Dilində Quran ayəsi,
Üstündə Haqqın sayəsi,
Allahdandı sərmayəsi –
Tükənməz sərvət Məkkədə.

Geyindik ehram paltarı,
Ağlığı dağların qarı.
Yeridik qibləyə sarı,
Etdik ibadət Məkkədə.

Sevgi çələngi toxuduq,
Ətir daddıq, gül qoxuduq,
İmama rəhmət oxuduq,
Yezidə lənət Məkkədə.

Aydınlığı Haqqın nuru,
Təmizliyi sudan duru,
Bu şöhrəti, bu uğuru
Yaradıb qeyrət Məkkədə.

Əl vuranda qara daşa,
Az qalır ki, ağlın çaşa,
Nə gördüksə başdan-başa
Heyrətdi, heyrət, Məkkədə.

Nahaq yerə ürək yarma,
Haqq olmasan, Haqqa varma,
Ey insan, cənnət axtarma,
Gəzdiyin cənnət Məkkədə.

Baxışlardan nur tökülür,
Dodaqlardan dürr tökülür,
Hər yerdən şükür tökülür,
Yoxdu şikayət Məkkədə.

Tarix qədim, dərgah ulu,
Torpaq odlu, çeşmə sulu,
Kim olsa Allahın qulu,
Çəkməz xəcalət Məkkədə.

Baxın Kəbənin yaşına,
Dünya dolanır başına,
Toz qonsa bircə daşına,
Qopar qiyamət Məkkədə.

Ən uca dövlət kimidir,
Ən dadlı qismət kimidir,
Allaha xidmət kimidir
Kəbəyə xidmət Məkkədə.

Hər ürək bir dolu camdı,
Hər könül bir yanan şamdı,
Sabaha bir ehtiramdı
Dünənə diqqət Məkkədə.

Bir tanış ol, yaxşı tanış,
Qələmim, yaz; dilim, danış.
Allah əli toxunmamış
Yoxdu bir sənət Məkkədə.

Ər demişik ərənlərə,
Haqqa könül verənlərə,
Məhəmmədi görənlərə
Var bir şərafət Məkkədə.

Yaxın gəlməz ağrı-acı,
İman olsa başın tacı.
Zəlimxan da oldu hacı,
Tapdı səadət Məkkədə!

HƏCƏRÜL-ƏSVƏD

Həcərül-Əsvəd qardan daha bəyaz idi,
fəqət müşriklərin günahı onu qaraltdı.
("Hədisi-Şərif")

Qara daş!
Qara daş!
Cahillər qəlbini qırıblar.
Vurublar qəlbinə
Yara, daş!
Qara daş!
Allaha ağ olan
allahsız bəndələr
Çəkiblər ruhunu
Dara, daş!
Qara daş!
Yezidin əmriylə
mancanaq atıblar,
Olmusan üç yerdən
Para, daş!
Qara daş!
Dərd çəkmə naşının,
gədanın əlindən,
Ah çəkmə əsilsiz
nadanın əlindən.
Üstünə Adəmin
əlləri toxunub,
İbrahim gözüylə
sirlərin oxunub.
Məhəmməd əliylə
divara qoyulan[34],

Öpüşlər selində
sinəsi oyulan,
Sevilən, seçilən
Qara daş!
Qara daş!
Şeytana uzaqsan,
Allaha yaxınsan,
Duyanın qəlbinə
nurlu bir axınsan.
Bu sevgi qoyarmı,
bu istək qoyarmı
Dumanlar, tüstülər
Sənin gül üzünü
Sara, daş!
Qara daş!
Müşrikin, kafirin
min lənət goruna,
Sən, səni Peyğəmbər
gözündə əzizlə.
Sən, səni Məhəmməd qəlbində
Ara, daş!
Qara daş!

Daşdan gələn səs:

"Mən cənnətin içində bir
yaqut idim,
Nur saçırdım yerə, göyə.
Yaradanın əmri ilə
sonra dönüb mələk oldum[35],
Ağ qanadlı quşa dönüb
özüm boyda ürək oldum.
Yer də, göy də
heyran idi uçmağıma,
Heyran idi
Kainatı qucmağıma.

Yaradanın qüdrətini
çatdırmaqçün insanlara
Mən baxırdım ürəklərə,
ağıllara, vicdanlara.
Göyün sirri, yerin sirri
məndə idi,
Yaradana olanları
yetirməkçün
Aradığım insan idi,
bəndə idi.
Ulu Tanrım hökm eylədi,
Quş mələkdən
döndüm yenə daş mələyə.
Ulu Tanrı mənim
mələk taleyimi
Tapşırmışdı baş mələyə!
Əbu Qubeys dağlarında
qardan bəyaz bir daş oldum,
Daş olsam da,
Allahımın hər sirrinə
sirdaş oldum.
Bir gün daşı quş eyləmək,
Bir gün quşu daş eyləmək
Onun hökmü!
Mələkləri insanlara
doğmaca qardaş eyləmək
Onun hökmü!
İnsanları göy üzünə
qaldırmaq da,
Mələkləri yer üzünə
endirmək də,
Qara daşı insan kimi
dindirmək də
Onun hökmü!

Bir gün oldu, Həzrət Adəm
gördü məni,
Gətirib öz əlləriylə
Kəbəmizin divarına
hördü məni!
Mən o gündən bu divarda
Daş mələyəm,
mələk daşam,
Həqiqətin yanındayam,
haqq yolunda bir savaşam.
Ta Adəmdən Məhəmmədə
Neçə-neçə peyğəmbərə
əqidədaş, məramdaşam!
İnsan oğlu!
Soruş məndən,
niyə belə qaralmısan?
Mən ki qardan ağ
daş idim.
Süd kimi ağ, qardan bəyaz,
Sağlam varlıq,
sağ daş idim.
Qoy utansın
Yezidin bir fitvasıyla
ciyərimi yandıranlar,
Qoy utansın
məni vurub sındıranlar!
Bütöv idim, parçalandım,
Mən parayam!
Mən parayam!
Bütövləri sındırana,
ürəkləri yandırana,
Bir etiraz, bir harayam!
Qaranəfəs, qaraniyyət
insanların ucbatından
Baxın indi sifətimə,

Qapqarayam!!!
Qapqarayam!!!"
Bu, bir mələk harayıdı,
biz-biz oldu tüküm yenə,
Köz-köz oldu budaqlarım,
oda döndü köküm yenə.
Aman Allah, yer üzündə
nə qədərmiş günahımız,
Bu gedişlə qiyamətdə
çətin olar pənahımız.
Pis üzlərdə şeytan tükü,
dar ürəkdə məkrin odu,
Hara baxsan, şər-böhtandı,
hara baxsan, dedi-qodu.
Neçə-neçə ağ daşları
qaraldıbdı
Qara-qara niyyətimiz!
Allaha yox, şeytanadı
qulluğumuz, xidmətimiz.
Ah-amanlar, nahaq qanlar
min illərlə uzanırsa,
Bu savaşda haqq üzülür,
nahaq meydan qazanırsa,
Pişiklərin əllərində
boğulursa pələngimiz,
Xırdalana-xırdalana
məhv olursa nəhəngimiz,
Qırğın, savaş dayanmırsa
bircə günlük, bircə anlıq,
İblislərin pəncəsində
didilirsə müsəlmanlıq,
Haqq deyənlər danışıqsız
boğazından asılırsa,
Xəyanətin meydanında
pəhləvanlar basılırsa,

Yezid ölüb,
Yezidlərin hökmü, gücü
varsa hələ,
Ədalətin qulaqları
karsa hələ,
Buna ağrı çəkən ürək,
gözdən axan yaş neyləsin?
Üzünü biz qaraltmışıq,
Bu dözülməz fəlakətə
mələk kimi daş neyləsin,
daş adlı mələk neyləsin?
Fələk bizlə bacarmırsa,
bu çərxi-fələk neyləsin?
İmkan versə iblis, şeytan,
aman versə nadan, naşı,
Dönüb yenə bəyazlaşar
Kəbəmizin qara daşı!!!

ONU DAR AYAQDA KİM QORUYURDU?

(Ya Rəsulum!) Kitabda (Quranda) İbrahimi də yad et (onun hekayətini də ümmətinə söylə). Həqiqətən, o, büsbütün doğru danışan kimsə (siddiq) – bir peyğəmbər idi.

("Məryəm" surəsi, 41-ci ayə)

Onu dar ayaqda
kim qoruyurdu, kim,
Nəmrudun çatdığı ocaqda
niyə yanmadı Həzrəti İbrahim?
Səhrada tufanlar
qiyamət qopara,
Qum dağı dəryatək
kükrəyə, qabara,
Küləklər daraq çəkə,
qumlar tufanla darana,
Səhranın odu neyləyəsidi
Nəmrudun odundan
sağ-salamat qurtarana!
Eşqdən, sevgidən
tutuldu halal maya,
Bir peyğəmbərdən
İki peyğəmbər nəsli
gəldi dünyaya!
İsmayılın nəsli
Həzrəti Məhəmmədi
yetişdirdi,
İshaqın nəsli
Həzrəti İsanı!
Biri məscidi Allah evi seçdi,
biri kəlisanı!

Aradan min illər keçdi,
çox sular axdı aradan,
Hökmünü verdi,
işini gördü Yaradan...

Ayağımı yandırır qum,
Qum kimi çöllərə
dağılır yuxum.
Səhra qızmar od kimidir,
üstündə gəzə bilmirəm,
Yanıb, yanıb qovruluram,
istiyə dözə bilmirəm.
İbrahim, İsmayıl, Həcər,
Bu atəşə necə dözüb? –
Hey düşünüb-daşınıram,
bir yana yoza bilmirəm.
Allahın səbri böyükdü,
dərd verən dərman da verir,
Yox yerdən Zəmzəm çıxarır,
sulara fərman da verir.
Ata apardı oğulu
Allaha qurban verməyə,
Oğul müntəzir dayandı
Haqq yolunda can verməyə.
İbrahimi od yandırmır,
İsmayılı bıçaq kəsmir,
Peyğəmbəri yaradanda
vədə qaçmır, vaxt tələsmir.
Nə yarağın hünəridi,
nə silahın möcüzəsi,
Daşı kəsən başı kəsmir,
bu, Allahın möcüzəsi!
Tək şeytana atılmırdı
İbrahimin atdığı daş,
Yerdə, göydə, Kainatda
fırlanırdı yavaş-yavaş.

Şeytanlığa, iblisliyə,
xəbisliyə atılırdı,
Şər-böhtana, yamanlığa,
hər pisliyə atılırdı.
Şeytanlığın yaratdığı
əməllərə atılırdı,
Kökü çürük özüllərə,
təməllərə atılırdı.
Şeytanın bir qazancı var,
o da ki, "Lənət şeytana!"
Yurd-yuvası cəhənnəmdi,
uzaqdı cənnət şeytana.
Nəfsə qalib gələn kimi
Ulu Tanrı İbrahimi
İbrahimxəlil eylədi;
Sevdiyinə "dostum" dedi,
Peyğəmbərlik vergisini
ən böyük dəlil eylədi.
İlahinin izni ilə
insanlığa rəhbər olur,
Haqqı İbrahimtək sevən
Haqqa dost peyğəmbər olur.

Ağlayıram insanların,
insanlığın gününə,
Nəmrudu gətirirəm
gözlərimin önünə.
Nə qədər ki
Adəmin yanında
İblis var,
İbrahimin yanında
Nəmrud var,
Musanın yanında
Firon var,
Rəsulullahın yanında
Əbu Cəhl var,

Bu yalançı dünyada
Əbu Ləhəblərə tələb var,
Möminin yanında
müşrik var,
Müslümün yanında
kafir var,
Nə qədər ki, ürəklərdə
qərəz var, kin-kifir var,
Nə qədər ki, küfr üçün
bu qədər təşnə, ac var,
O qədər peyğəmbərə
tükənməz ehtiyac var.
Heyif Adəmə!
Heyif Nuha!
Heyif İbrahimə!
Heyif Musaya!
Heyif İsaya!
Heyif Məhəmmədə!!!
Heyif Allahın insana verdiyi
Eşqə, imana, məhəbbətə!
İnsanlar insanlığı
yaşada bilmədilər,
Şeytana İbrahimtək
daş ata bilmədilər!
İbrahim bir dərs idi
alana,
Bir kitab idi
oxuyana.
Bir çiçək idi dərənə,
Bir gül idi qoxuyana!
Allahın dostuna
çevrilə bilərdi insan,
Bütün günahları
yer üzündən silərdi insan;
Burnunun ucundan uzağı
görə bilsəydi,
Ömrünü zülmətə yox,
İşığa verə bilsəydi!

Dünyaya nəfsinin, qarnının,
Daş kəsən iştahının,
Baş kəsən tamahının
gözüylə baxmasaydı,
Şeytanın axıtdığı
sellərin qucağında
çöp kimi axmasaydı,
Allaha dost olardı,
Allah verən fürsəti
əldən buraxmasaydı!

Yıxdıq sarayımızı,
uçurduq damımızı,
Şeytan tut qurusu kimi
aldı əlimizdən imanımızı.
İndi qalmışıq deyinə-deyinə,
İndi qalmışıq döyünə-döyünə.
Həsrət qalmışıq
cənnətin yerinə, göyünə!
Vaxtilə Allahı
eşitmədi insan,
İndi də insanı
eşitmir Allah.
Könlümüzcə gülmür dünya,
istəyimizcə açılmır sabah.
Yağış yağsa da,
vaxtında yağmır,
Günəş doğsa da,
vaxtında doğmur.
Yağış yağanda
kimin üzünə yağsın,
Günəş doğanda
kimin üzünə doğsun?
Bulanıb sular,
tutulub havalar,

Yıxılıb kümələr,
dağılıb yuvalar.
Kəsilmir qırğınlar,
qurtarmır davalar!
Bal itirib ballığı,
Süd itirib halallığı.
Qar itirib ağlığı,
Can itirib sağlığı,
Su itirib saflığı.
Ruh itirib şəffaflığı,
Vicdan itirib təmizliyi,
Nə çayın çaylığı qalıb,
Nə dənizin dənizliyi.
Suya zəhər qatdılar,
Bala şəkər qatdılar.
Bəndələr bir-birini
aldılar, aldatdılar!
Biri pulun gücünə,
Biri silahın gücünə!
Biri işin, vəzifənin,
Biri tamahın gücünə!
Yaş yanağa süzüləndə,
Ayaq yerdən üzüləndə
Ümidimiz qaldı yenə
qadir Allahın gücünə!!!

Ey şeytanı güldürənlər!
Ey peyğəmbər öldürənlər!
Ey fəlakətə uğrayanlar!
Ey Zəkəriyyəni Beytülmüqəddəsdə
Ağacqarışıq mişarla
doğrayanlar!
Ey atasından bezib,
anasından küsənlər!
Ey Fələstində bir qızın sözüylə
Yəhya peyğəmbərin
başını kəsənlər!

Ey Lut peyğəmbəri
öz evindən qovanlar!
Ey dəvəsini öldürüb,
Salehin ürəyini ovanlar!
Ey ayaq açıb
yeriyən yalanlar,
Ey Yusifi quyuya
salanlar!
Ey öz əliylə öz evini yıxanlar,
Ey buzova "Allah" deyib,
Musaya qarşı çıxanlar!
Ey həqiqətin başında
bostan əkənlər,
Ey İsanı
çarmıxa çəkənlər!
Ey pisliyi pisliyə
calaq edənlər,
Ey Məhəmmədi
daşqalaq edənlər!
Etdiyiniz əməllər,
tutduğunuz günahlar
Hamısı bircə-bircə
özünüzə qayıdır, özünüzə,
Allah baxmır, baxmadı,
baxmayacaq sözünüzə!
Yalvarın!
And için!
Yaş tökün!
Əyilin!
Diz çökün!
Tövbə edin!
Tövbə qapısı
açıqdır Allahın!
Nuruna salam verin
sabahın!

Əl üzməyin həyatdan,
"Bəndələr" bağlasa da,
Heç vaxt bağlanan deyil
Allah açan qapılar,
Axtar, ey insan oğlu,
nicat yolu tapılar!

Yaxşı işlər görməyə
tələsin,
Növbə sizin,
növbə sizin,
növbə sizindir!
Bütün günahlardan
təmizlənməyə,
Allahın gözündə
əzizlənməyə,
Tövbə sizin,
tövbə sizin,
tövbə sizindir!

İbrahimin gücü çatmadı,
Bəlkə, Məhəmməd qaytara
İnsafı qəlbinizə,
imanı ruhunuza.
Bəlkə, rəhmi gələ
ağrınıza, ahınıza,
Məhəmmədin eşqinə
Kainatı yaradan Allah
Məhəmmədin eşqinə,
bəlkə, bağışladı sizi.
Bəlkə, yenidən qaynadı
Sizin ucbatınızdan
quruyan
Sevgi bulağı!
Həyat eşqi!
Mərhəmət dənizi!!!

İŞIQLAN KƏBƏNİN NURUNDA, KÖNLÜM

Bu da bir fürsətdi,
baxtına düşüb,
İşıqlan Kəbənin
nurunda, könlüm.
Zamanına düşüb,
vaxtına düşüb,
İşıqlan Kəbənin
nurunda, könlüm.

Sirdaş ol ulduzla,
Günəşlə, Ayla,
Yoldaş ol çəmənlə,
çeşməylə, çayla,
Aldığın işığı
dünyaya payla,
İşıqlan Kəbənin
nurunda, könlüm.

İnamı olanlar
dumandan çıxar,
Şübhədən sıyrılar,
gümandan çıxar.
Dünyanın sahmanı
imandan çıxar,
İşıqlan Kəbənin
nurunda, könlüm.

Güvən bu dünyanın
yaraşığına,
Peyğəmbər nuruna,
Haqq işığına.

İndi ki dönmüsən
Haqq aşığına,
İşıqlan Kəbənin
nurunda, könlüm.

Tanrı işığında
hamı nurlanar,
Dünyanın sarayı,
damı nurlanar.
Yanar ürəklərin
şamı nurlanar,
İşıqlan Kəbənin
nurunda, könlüm.

Hər kim qara daşı
əyilib öpər,
Dizinə güc gələr,
qəlbinə təpər.
Yaxşılıq yağdırar,
aydınlıq səpər,
İşıqlan Kəbənin
nurunda, könlüm.

Süd kimi təmiz ol,
qar kimi ağ ol,
Çırpınma şübhənin
torunda, könlüm.
Alış ömrün boyu
müqəddəsliyin
Odunda, közündə,
qorunda, könlüm.
Bəndənin şöhrəti
Allah nurudur,
İşıqlan Kəbənin
nurunda, könlüm!!!
İşıqlan Allahın
nurunda, könlüm!!!
İşıqlan, işıqlan, işıqlan yenə,
Həzrət Məhəmmədin
nurunda, könlüm!!!

PEYĞƏMBƏRİN HÜZNÜ

(Bu, nübüvvətin 10-cu ilində baş verdi)

"Ey dağ! Mənim başıma gələn şey sənin başına gəlsəydi, dayanmazdın, yıxılardın". Bu fikir böyük oğlu Qasimin vəfatı zamanı Peyğəmbərin dilindən səslənmişdir.

(Saleh Suruç, "Peyğəmbərin həyatı", I cild, səh. 341)

Köməksiz qalanda
insan övladı
Ümidi gözünün
yaşına gəlir.
Uçrum kənarında
dayanır ömrü,
Qisməti yarğanın
qaşına gəlir.

Səmtini, yönünü
azmış zaman var,
Peyğəmbər qəlbində
ah var, aman var.
Kədərdən gözlərə
çökən duman var,
Ömrün baharına,
qışına gəlir.

Ağırdı dövranın,
vaxtın şərtləri,
Yumşaldıb mum edir
daşdan sərtləri.
Həmişə dünyanın
böyük dərdləri
Böyük adamların
başına gəlir.

Qəlbində, ruhunda
bir çaxnaşma var,
Peyğəmbər sinəsi
möhtəşəm qaya.
Hər gün hücumdadır,
vəhşi dalğalar,
Qərq etmək istəyir
onu dəryaya.

Peyğəmbər ürəyi
gur işıq kimi,
Yanır gözlərində
Haqqın niyyəti.
Gətirmək istəyir
nur, işıq kimi
Dünyaya təzə bir
mədəniyyəti.

Bütlərlə, lütlərlə,
ilahlar ilə
Aramsız döyüşür
tək Allah üçün.
Min canı olsa da,
verər, çəkinməz,
Bircə "La ilahə illəllah!"
üçün.

Qüreyşi zəhərli
ilana dönüb,
Hər gün fürsət gəzir
onu çalmağa.
Müşrik də, kafir də
növbəyə durub,
Hazırdı hər saat
qisas almağa.

Hələ ki alınmaz
qala kimidi,
Nə ağır itkisi,
nə bir yası var.
Onun Xədicətək
eşqi, dayağı,
Əbu Talib kimi
bir arxası var!

Qoşa qanad kimi
qaldırır onu,
Biri qeyrətidi,
biri sərvəti.
Hələ əvvəlidi
böyük yolların,
Nə gücü azalır,
nə qətiyyəti.

Atanın üzünü
görməyən oğul
Sevib ata kimi
Əbu Talibi.
Dərdli ürəyində
nələr var onun,
Dərin dəryaların
görünməz dibi.

Dəryalar qoynunda
batmağa qoymur,
Üzən gəmi kimi
qoruyur onu.
Nakam qardaşının
tək balasıdı,
Doğma əmi kimi
qoruyur onu.

Heyif, bu sevinci
çox dada bilmir,
Əcəl əmisini
aparıb gedir.
Cavan Məhəmmədin,
bu sərt ayrılıq
Qəlbini köksündən
qoparıb gedir.

Heyif, uzun sürmür
bu bəxtəvərlik,
Başlanır həyatın
sərt işgəncəsi.
Peyğəmbər qəlbini
didmək istəyir
Müşrikin, kafirin
qara pəncəsi.

Ürəyi partlamır,
dözür, dayanır,
Ən ağır dərd ilə
yüklənəndə də.
Başının üstündə
Allah dayanır,
Peyğəmbər tək olmur
təklənəndə də.

Xədicə – isməti,
məhəbbətidir,
İslama ilk iman
gətirən qadın;
Peyğəmbər yükünün
ağırlığını
Çiyninə şərəflə
götürən qadın.

Dini sevgidədir,
sevgisi dində,
Məhəmməd ömrünün
aynasıdır O!
Təkcə Peyğəmbərin
qadını deyil,
Həzrət Fatimənin
anasıdır O!

Xədicə xəstədir,
tükənir ömrü,
Bir ana əriyib
sönür şam kimi.
Nə ümidə baxır,
nə təsəlliyə,
Daralır nəfəsi
bir axşam kimi.

Bacarmır çox şeyi
bacaran qadın,
Ölümlə, əcəllə
bacara bilmir.
Bac verib, bac alıb
həyatı boyu,
Amansız ölümdən
bac ala bilmir.

Bir axşam canından
çıxdı nəfəsi,
Ruh getdi, quruca
bədəni qaldı.
Tufan bir tarlanı
sovurdu göyə,
Nə sünbülü qaldı,
nə dəni qaldı.

Gecədən-gecəyə
tamamlandı vaxt,
Bir gecə gəlmişdi,
bir gecə getdi.
Peyğəmbər əlindən
uçdu quş kimi,
Getdi əllərindən,
Xədicə getdi.

Bir ömür beləcə
yetişdi sona,
Uçdu cənnətinə
saf dilək üstə.
Verdi son müjdəni
Peyğəmbər ona:
"Yerin var cənnətdə,
ağ döşək üstə!"

Dağılır yaraşıq,
pozulur nizam,
Zirvələr başından
qar itirəndə.
Köz kimi qovrulur
bağban ürəyi,
Dəyməmiş tökülən
bar itirəndə.

Xoşbəxtlik dağına,
düzünə gəlmir,
Gözünün işığı
gözünə gəlmir,
İnsan zaman-zaman
özünə gəlmir,
Məhəbbət gücündə
var itirəndə.

Yanaqda gül açıb
yanan zər solur,
Nə qədər olsa da
təzə-tər, solur.
Məhəmməd adında
Peyğəmbər solur
Xədicə adında
yar itirəndə.

Bu, ağır iliydi
Məhəmməd üçün,
Dərdin yürüş ili,
zəfər iliydi.
Vaxtsız ayrılığın,
vədəsiz köçün
Bir evə dalbadal
səfər iliydi.

Ömür bağçasına
qış belə gəldi,
Peyğəmbər bu dərdə
tuş belə gəldi.
Bu, tale işiydi,
iş belə gəldi,
Bu da bir qəzavü-qədər
iliydi.

Dərd daşıb, bəmindən,
zilindən çıxıb,
Neçə xoşbəxtliyi
əlindən çıxıb.
Bu söz Peyğəmbərin
dilindən çıxıb:
"Bu bir hüzn iliydi,
kədər iliydi".

BİR KƏLMƏNİN QÜDRƏTİ

"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Allah oldu ilk sözü,
Allah oldu son sözü,
Yön verdi yönsüzlərə
qiblə sözü, yön sözü.
Müsəlman tarixinin
ilk cümləsi, ön sözü:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Sükunətdə səs oldu,
sədayla, şurla gəldi,
Cəbrayıl camalında
təcəlli nurla gəldi.
Sevgiylə, mərhəmətlə,
xoş bir uğurla gəldi:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

İlk andan, ilk saatdan
haqqa verdi meydanı,
Qovdu öz dərgahından,
lənətlədi şeytanı.
İlahi sevgilərlə
qucaqladı dünyanı:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

İstəyimiz, sevgimiz,
ülfətimiz, mehrimiz,
Tarixin yaddaşında
iman adlı möhrümüz,

Möcüzədən ucada
möcüzəmiz, sehrimiz,
Doğan ruh günəşimiz,
axan duru suyumuz,
Keçmişimiz, kökümüz,
sabahımız, soyumuz,
Azan səslarında
ərşə çatan boyumuz:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Bir mağara, bir mələk,
bir insan, bir pıçıltı,
Açan yoxdu sirrini,
sirr insan, sirr pıçıltı.
İlqar, iman, əqidə,
dözüm, səbir, pıçıltı:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Ululları görəndə
ululaşdı ulumuz,
Qul oldu qulluğunda,
şərəfləndi qulumuz.
Gəldi, vaxtında gəldi
elçimiz, Rəsulumuz:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Yüz on dörd ad içində
sayı bəlli ayədi,
Nizamdı, intizamdı,
məfkurədi, qayədi,
Tükənməz bir xəzinə,
dağılmaz sərmayədi:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Vahid nədir, tək nədir,
bir nədir? – başa saldı,
Məhəmməd alnındakı
nur nədir? – başa saldı,
İsrafilin çaldığı
sur nədir? – başa saldı:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Təsbeh dənəsi kimi
düzüldükcə kəlmələr,
Açılıb çözələndi
sirr möhürlü ilmələr.
Gör bir nələr yaratdı
Tanrıya yüksəlmələr:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Minaya qurban gedən
bir həyatı göstərər,
Zəmini, asimanı,
yeddi qatı göstərər,
Məkkəni nurlandırar,
Ərəfatı göstərər,
Allah ilə başlanar,
insanla tamamlanar,
Haqqa vurğun könüllər
çıraqlanar, şamlanar,
Hər dəfə səslənəndə
Kainat ilhamlanar:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Sevgidən qurdu, yapdı
sarayı, imarəti,
İnsan sevgisi bildi
ən böyük ibadəti,

İlk gündə xəbər verdi
son günü – qiyaməti:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Fikirlər sultanıdı,
düşüncələr şahıdır,
Təbiətin xeyirlə
açılan sabahıdır,
Günahkar bəndələrin
yuyulan günahıdır:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Cazibə qüvvəsitək
yeri göyə bağlayan,
Elmi də, alimi də
heyrətində saxlayan,
Zamanı ötüb-keçən,
tarixi qabaqlayan –
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Həm şahiddi, həm şəhid,
həm savaşdı, həm barış,
Ona çatmaq yolunda
yarış gedir, bir yarış.
Tövbə, mərhəmət, dua,
müraciət, yalvarış:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

İmkanlardan ucadı
imkanların sahibi,
Məkanlardan ucadı
məkanların sahibi.

Güclərin, qüvvətlərin,
təkanların sahibi
Dünyaya sahman verən
şəriət nizamıdır,
Sonu Haqqa qovuşan
təriqət nizamıdır.
O, mərifət sirdaşı,
həqiqət nizamıdır:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

İrfandı başdan-başa,
əhli-irfan dostudur,
Eşqin, nurun həmdəmi,
ruh dostu, can dostudur,
O, islam pərvanəsi,
o, müsəlman dostudur:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Bir kəlmənin canında
bu qədər qüdrət nədir, –
Rəmzdi, tapşırıqdı,
eyhamdı, işarədi,
Bütün çarəsizlərin
dərdinə bir çarədir:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Gündüz qaynar həyatım,
gecə yuxum da dedi,
Varidatım, varlığım,
varım, yoxum da dedi,
Ona sevgim, rəğbətim,
ondan qorxum da dedi,

Ürək adlı yanar od,
əriyən mum da dedi,
Qüdrətdən varlığıma
düşən toxum da dedi,
İçimdəki səhra da,
qapqara şum da dedi:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Düşüncədə, duyğuda,
fikirdə gördüm onu,
İbadətdə, səcdədə,
zikrdə gördüm onu,
Hər gün dilimdən çıxan
"Şükür!"də gördüm onu:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Toxumda, torpaqdadı,
mayada, xislətdədi,
Xaliqi-Sübhandadı,
xalqdadı, xilqətdədi,
Şübhədə, şeytanda yox,
böyük həqiqətdədi:
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

Dünyanın qəm yükünü
üstümdən atar mənim,
Ana laylası kimi
ruhuma yatar mənim,
Hayanda dara düşsəm,
dadıma çatar mənim
"La ilahə illəllah,
Muhəmməd Rəsulullah!"

MƏN ÜZÜMÜ SƏNƏ TUTUB YAZIRAM

Ey kitab əhli! Sizə kitabda (Tövratda və İncildə) gizlətdiyiniz şeylərin bir çoxunu bildirən, bir çoxunu da sizə bağışlayıb üstünü vurmayan (və ya sizdən bir çoxunu bağışlayan) Peyğəmbərimiz gəldi. Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab (Quran) gəldi.

("əl-Maidə" surəsi, 15-ci ayə)

Ruhumun qanadı,
başımın tacı,
İmanlı şeirimin
əriş-arğacı,
Xəstə ürəyimin
müalicəsi,
Yaralı könlümün
inləyən səsi,
Sönən gözlərimin
nuru, işığı,
Çalxanan ömrümün
yar-yaraşığı,
Həyatın cövhəri,
eşqin uğuru,
Dizimin taqəti,
qəlbimin nuru,
Mən nə deyirəmsə,
səndən deyirəm,
Mən nə yazıramsa,
səndən yazıram.
Mən üzümü
sənə tutub yazıram,

Mən üzümü
sənin kimi varlığa,
Sənin kimi dinə
tutub yazıram.
Tanıyıram öz səmtimi,
qibləmi,
Yönsüzləri gətirməkçün
bir yönə
Mən üzümü
yönə tutub yazıram.
Saflığından götürmüşəm
mayamı,
Qüdrətindən binə
tutub yazıram.

Uzaq yollar
Bəzirganlı, Xocalı,
Bu yolların söz sahibi
ozanlar.
Nədən bilsin bahar nədir,
qış nədir,
İlahinin düz yolundan
azanlar.
Günahkara Qıl körpünün
altı var,
Gecə-gündüz qır qaynadır
qazanlar.

Allahsızı qovuşdurmaz
Allaha
Nə dualar, nə çəkilən
azanlar.
Bəxtəvərdi ömrü boyu
haqq deyib,
Ömrü boyu Haqq eşqinə
yazanlar!

İman yerim, güman yerim,
yurd yerim,
Təbib yerim, dərman yerim,
dərd yerim,
Səndən başqa kimdi mənim
pənahım? –
Bir gün sənsiz açılmasın
sabahım,
Mən üzümü sənə tutub
yazıram,
Mən üzümü səndən gələn
sədaya,
Səndən gələn ünə tutub
yazıram!

Ey ulu Tanrının
əziz bəndəsi,
Allahın diliylə
danışan insan,
Yerlərin ləngəri,
göylərin səsi,
Varlığı Allahdan
bir nişan insan.

Ey ulu göylərin
yeddi qatıyla
Könül dostu kimi
dil tapan insan,
Ömrünün, gününün
hər saatıyla
Nurlu könüllərə
yol tapan insan.

Məkkə möcüzəsi,
Kəbə memarı,
Sehrdən yoğrulan,
sirr olan insan,

Miskinlər həmdəmi,
yetimlər yarı,
İşığı dünyayla
bir olan insan.

İlki də, sonu da
bilən, bildirən,
Ey insan nəslinin
son peyğəmbəri,
Sonuncu peyğəmbər
olsa da adın,
Bəşərin öndəri,
ön peyğəmbəri.

Allahdan bəndəyə
müjdələr verən,
Ən uca elçisən,
ya Rəsulullah!
İnsana insanlıq
yolu göstərən
Ən böyük ölçüsən,
ya Rəsulullah!

Sənə salam üçün,
ehtiram üçün
Pak əllər üzlərin
xidmətindədir.
Eşqinlə yaranmış
saf inam üçün
Günəş gündüzlərin
xidmətindədir.
Eşqinlə çırpındı,
yandı,
Haqqın işığına
bürünən mələk.

Bütün mələklərin
bəxtəvəridi
İlk dəfə gözünə
görünən mələk.

Dilində dil açan
Quran ayəsi
Könlündə çalxanan
dərya yaratdı.
Düşəndə üstünə
Haqqın sayəsi
Dünyada ikinci
dünya yaratdı.

İşıqdı məscidin,
nurdu məzarın,
İşıq Peyğəmbərim,
nur Peyğəmbərim!
Quran ayəsində,
Haqq kəlamında
Düzülüb saplara
dürr, Peyğəmbərim!

Bərəkət sünbüldən,
dəndən başlanıb,
Ucalıq Tanrıdan,
dindən başlanıb,
Mənimçün bu dünya
səndən başlanıb,
Eşqi dənizlərdən
gur Peyğəmbərim!
Bəndə poza bilməz
Haqq yazanları,
Zülmət qucaqlayar
yol azanları,

Tanrıya ucalan
bu azanları
Nuruna bələyib
nur, peyğəmbərim!

Hər bəndə qəlbini
nurtək ağ eylə,
Haqqa əyiləni
qaldır, dağ eylə,
Aqillər yolunu
çilçıraq eylə,
Ocağın gur yansın,
gur, peyğəmbərim!

İstəkli bəndənə
verməzsən əzab,
Müşkül suallara
səndədir cavab.
Quranın Qurandı,
kitabın kitab,
İsrafil çalsa da sur,
peyğəmbərim!

Üzümü üzlərin
səcdəsinə qat,
Sözümü sözlərin
səcdəsinə qat,
Mən birəm, yüzlərin
səcdəsinə qat,
Müqəddəs Quranın
üzündən öpüm.
Nuru şərbət kimi
içib gedərsən,
Könüldən-könülə
köçüb gedərsən,

Hayandan yeriyib
keçib-gedərsən,
Sən keçən yolların
izindən öpüm.

Sən mənim ruhumun
laylası, şeiri,
Zəvvar ziyarətdən
qalarmı geri?
Göstər qədəmlərin
toxunan yeri,
Gəlim, ayağının
tozundan öpüm.

MERAC GECƏSİ

** And olsun ki, (Muhəmməd əleyhissəlam Cəbrayılı öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü;*
** (Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında.*
("ən-Nəcm" surəsi, 13-14-cü ayələr)

İlahidən əmr olundu,
onu sevib, duyan gəldi,
Cəbrayıl endi Məkkəyə,
Peyğəmbərə həyan gəldi.

Şirin-şirin yuxudaydı,
"oyan" dedi, oyandırdı,
Onu görüb qanadlanan,
onu seçib, sayan gəldi.

Hardan gəlib, hara gəlir,
hayandadı son duracaq? –
Bu sirləri eyləməkçün
Məhəmmədə əyan, gəldi.

Ruhda həqiqət varlığı,
qəlbində qar təmizliyi,
Yaradanın dəvətini
etdi ona bəyan, gəldi.

Şirin-şirin dindirdilər,
Buraq[36] ata mindirdilər,
Məscidül-Əqsa nurlandı,
ora nişan qoyan gəldi.

Quruldu orda nərdivan,
göylərə oldular rəvan,
Peyğəmbərin qarşısına
günahları yuyan gəldi.
Yeri, göyü, Kainatı
görmək və göstərmək üçün
Peyğəmbərin qüdrətini
yer üzünə yayan gəldi.

Bu gözlərlə mən neyləyim,
Aç pərdəni gözlərimdən
meracı seyr etmək üçün.
Bir kök ilə mən neyləyim,
Mənə min kök ver, Allahım,
Dönüb Tuba[37] ağacına
cənnətində bitmək üçün.
Bizə bir az sirrini aç,
Bəsirətlə görə bilək
necədi merac gecəsi!
Necə sirli, müəmmalı
gecədi merac gecəsi!
Hər pillədə ucalıqda
Yaradanın işığı var.
Mələklər də qonaq gəlir
Peyğəmbərin görüşünə,
Həqiqətdi, möcüzədi,
sehrdi merac gecəsi!
Yaradanın varlığına
bundan böyük dəlilmi var? –
Peyğəmbərin varlığına
möhürdü merac gecəsi!
Neçə pillə, neçə qapı,
neçə qatdan keçib-gedir,
Ömrü əbədiyyət olan
bir saatdan keçib-gedir.

Ruhumuzun cüt qanadı,
başımızın tac gecəsi,
Gecələrin sultanıdı
göylərə merac gecəsi!
Allah ilə salamlaşma,
şirin söhbət, sual-cavab,
Bu günədək bu səhnəni
Açа bilmir nə bir elm,
nə bir kitab!

O, göylərə çəkilməklə
Cənnətin gül qucağında
gülən insanları gördü,
Cəhənnəmin atəşində
alışan canları gördü.
Bir gecənin möcüzəsi
Min-min ömrə sığışmayan
bir müqəddəs işi gördü,
Gördü bütün Kainatı,
bu çərxi-gərdişi gördü.
Onun nurlu pak ürəyi,
yandı əsrin şamı kimi,
Orda qıldı namazını
meracın imamı kimi.
O, göylərə çəkiləndə
Görüşünə növbə üçün
öz yerini tutdu hərə,
Salam aldı, salam verdi
neçə-neçə peyğəmbərə!
Nə istədi, yox demədi,
Allah verdi qismətini,
Günahlardan arındırıb
bağışlatdı ümmətini!
Ürəyində nə vardısa
Bircə-bircə xatırlatdı,
böldü, yerbəyer eylədi.

Bu ilahi mənzərənin
Sevincini göylər gördü,
bayramını yer eylədi.
Onun canlı varlığını
Yer üzündə insan görüb,
Göy üzündə mələk gördü.
Vücudunu nur parçası,
nəfəsini çiçək gördü.
Can içində canı duydu,
göz içində bəbək gördü.
İnsan, mələk – hər nə varsa,
onu görüb göyə baxdı,
Gördü onun camalını,
Ləkəsiz bir pak aynaya,
ləkəsiz güzgüyə baxdı.

Ulduzları seyrə dalıb,
boylanırdı Aya sarı,
O üzdükcə hey üzürdü
sirr adlı dəryaya sarı.
Buraq uçurdu quş kimi
Məscidül-Əqsaya sarı, –
Ruhun daim can atdığı
böyük ehtiyacda ara,
Nəyi duymaq istəyirsən,
sən onu meracda ara!

Dodaqlarda olan gülüş,
baxışlarda qəm nə deyir?
Saraylarda yanan çıraq,
komalarda nəm nə deyir?
Burda ona göstərilən
cənnət, cəhənnəm nə deyir? –
Zalımları, məzlumları
toxdan soruş, acda ara,
Nəyi görmək istəyirsən,
sən onu meracda ara!

Şərbəti yox, südü içdi,
süd dolu bir camda nə var?
Yollarına işıq salan
çilçıraqda, şamda nə var?
Məscidül-Əqsa nə deyir,
Məscidül-Həramda nə var? –
Haqq evinin kərəmini
ziyarətdə, hacda ara,
Nəyi bilmək istəyirsən,
sən onu meracda ara!

O elə bir ucalıqdı,
tapa bilməz səyyah onu,
Sevinirdi, hər sirrindən
eylədikcə agah onu.
Niyə seyrə, ziyarətə
dəvət etdi Allah onu? –
Bir dərdə min dərman verən
ağrıya əlacda ara,
Nəyi tapmaq istəyirsən,
sən onu meracda ara!

Peyğəmbərim heçə saydı
qızılları, axçaları,
Lap yaxından seyr eylədi
mələk gəzən bağçaları,
Tanrı ancaq ona açdı
bağlı qalan boğçaları, –
Bu gizlini haqq naxışlı
ərişdə, arğacda ara,
Nəyi görmək istəyirsən,
sən onu meracda ara.
Yer üzündə nəsil-nəsil
saya gəlməz insan vardı,
Ürək vardı, ağıl vardı,
insaf vardı, vicdan vardı,

Hər insanda Yaradandan
İlahi bir nişan vardı, –
Niyə seçdi Məhəmmədi,
sevgi adlı tacda ara,
Nəyi sevmək istəyirsən,
sən onu meracda ara!

* * *

Çox düşündüm, çox aradım
bu sevginin sirlərini,
Nur içində nur yaradan
nemətdi merac gecəsi.

Damlasından dəryasına
dünyaları görmək üçün
Peyğəmbərə nəsib olan
qismətdi merac gecəsi.

Qiyamətin gününədək
çəkər bizi doğru yola,
Bəşər üçün bir fürsətdi,
möhlətdi merac gecəsi.

Min-min kitab yazılsa da,
min bir dəfə azdı yenə,
Ruh ilə can arasında
söhbətdi merac gecəsi.

Hər adamı qaldırmır ki,
Yaradan öz dərgahına,
İnsan üçün bir ibrətdi,
qiymətdi merac gecəsi.

Ya Məhəmməd, sən qovuşan
ucalığa qurban olum! –
Kim istəməz o cənnəti,
cənnətdi merac gecəsi.

PEYĞƏMBƏRİN MƏKKƏYƏ XİTABI

Ey Məkkə! Sən Allahın ən xeyirli yerisən. Allahın ən sevimli şəhərisən. Əgər sənin əhlin məni səndən çıxarmasaydı, mən səndən çıxmazdım.

("Hədisi-Şərif")

Qan-qan deyən yağılar
Məni səndən qoparıb,
səni məndən alırsa,
Kəbə mənsiz qəm çəkib,
xəyallara dalırsa,
Qansız Əbu Ləhəblər
bu qədər alçalırsa,
Sənin nə günahın var!

Qoynunda axıracan
mən ömür etmədimsə,
Bütlərə tapınanın
dalınca getmədimsə,
Kafirlər ucbatından
arzuma yetmədimsə,
Sənin nə günahın var!

Qətlimə fərman verib,
qanıma susayanlar,
Canımı daş parçası,
qanımı su sayanlar,
Dönmürsə inadından
saydığını sayanlar,
Sənin nə günahın var!

Vətən iman deməkdir,
qorunmursa imanı,
Peyğəmbərin üstünə
çökürsə qəm dumanı,
Dürüst seçən yoxdusa
yaxşı ilə yamanı,
Sənin nə günahın var!

Yağılar yeriyirsə
üstümə dəstə-dəstə,
Verib öz fitvasını,
şeytan durursa qəsdə,
Sinən meydan olursa
kafirə, bütpərəstə,
Sənin nə günahın var!

Hər bütə bir ad verib,
qoruyub "Mənat"ları[38],
İlah elədilərsə
"Üzza"ları[39], "Lat"ları[40],
Başa salammadımsa
məndən olan zatları,
Sənin nə günahın var!

Hicrət eyləmək ağır,
hicrana dözmək çətin,
Qayalar əriyərdi
olsa da məğrur, mətin.
Qədri bilinmədisə
bu boyda məhəbbətin,
Sənin nə günahın var!

* * *

Ürək yazıq neyləsin,
nə daşdı, nə dəmirdi,
İmansız bədəvilər
onu qurdtək gəmirdi.

Bu hicrət mənlik deyil,
İlahidən əmrdi,
Ey mənim ulu Məkkəm,
qovuşacağam sənə!

Az güldüm, çox ağladım,
gözdən selləndi yaşlar,
Tənələr yağışında
yağdı başıma daşlar.
Əriyib yox olacaq
səksəkələr, tələşlar,
Ey mənim ulu Məkkəm,
qovuşacağam sənə!

Nə ruhum sakit olar,
nə ürəyim dincələr,
Uzandıqca yaxama
qara əllər, pəncələr.
Səndən soyuda bilməz
məni bu işgəncələr,
Ey mənim ulu Məkkəm,
qovuşacağam sənə!

Ruhum parıldayacaq
yaqut kimi, ləl kimi,
Çiyninə qonacağam
xilaskar bir əl kimi.
Ruh kimi, işıq kimi,
iş kimi, əməl kimi,
Ey mənim ulu Məkkəm,
qovuşacağam sənə!

Məkkəm, Kəbəm, işığım,
sahmanım, yaraşığım,
Nur dağım, qürur dağım,
məhəbbəti gur dağım.

Mənim bu hicrətimə
özün xeyir-dua ver,
özün de uğur, dağım,
Ey mənim ulu Məkkəm,
qovuşacağam sənə!

Qayıdacağam sənə,
Şah damara qan kimi,
bədənə nəfəs kimi!
Quran avazındakı
İlahi bir səs kimi!
Allah eşqinə bağlı
tükənməz həvəs kimi!

MƏKKƏNİN REYĞƏMBƏRƏ CAVABI

Yadına sal ki, İbrahim: "Ey Rəbbim, buranı bəladan asudə (uzaq) bir şəhər et, əhalisinin Allaha və axirət gününə inananlarına cürbəcür meyvələrdən ruzi ver!" – deyə dua etdikdə, O (Allah): "Kafir olanlara da bir qədər (ömürləri boyu) ruzi verərəm, lakin sonra da cəhənnəm əzabına düçar edərəm. Amma ora (Cəhənnəm) nə fəna bir yerdir!" – deyə buyurdu.

("əl-Bəqərə" surəsi, 126-cı ayə)

Mən sənin ananam,
sən mənim balam,
Mən sənin bürcünəm,
sən mənim qalam.
Bürc də heç qaladan
ayrı düşərmi?
Ana da baladan
ayrı düşərmi?
Peyğəmbər vəhyiylə
quc bu dünyanı,
Getmə uzaqlara,
gəl, mənimkisən.
Dünyanın bu başı,
o başı yoxdur,
Harda olursansa ol,
mənimkisən.
Göylərin yerlərə
verdiyi haqsan,
Hayana boylansan,
hayana baxsan,
İnşallah, sən mənə
qayıdacaqsan!

Saysız əzab gördün
bu şəhərdə sən,
Günah nə səndədi,
nə də məndədi.
Günah Allahını
tanımayanda,
Qəzəb qılıncıyla
qan tökəndədi.
Çox duru suları
bulandırdılar,
Çirkin əməlləri
düzdülər səfə,
Qəlbimdə, ruhumda,
varlığımdasan, –
Getsən hansı səmtə,
hansı tərəfə.
Ovcumun içitək
bilirəm bunu,
Sənlə çatacaq
adım şərəfə.
Təpədən-dırnağa
odsan, ocaqsan,
Can ruha, ruh cana
qovuşan kimi,
Dalğalar ümmana
qayıdan kimi,
Bilirəm, sən mənə
qayıdacaqsan!

Burda səndən ötrü
candan əzizdi
Hər qaya parçası,
hər yol, hər cığır.
Qəlbin qırılmasın
bu ayrılıqdan,

Eşqimi harayla,
adımı çağır.
Fələyin işidi
bu ayrılıqlar,
Göydən nur da yağır,
bəla da yağır,
Sən bu kafirlərdən
qat-qat uzaqsan,
Fağırlar həmdəmi,
yetimlər yarı,
Qəlbimə, ruhuma
qayıdacaqsan!
Sevinsəm, sənlə
sevinəcəyəm,
Ah çəksəm, ahıma
qayıdacaqsan!

Adəm əfsanəli,
İbrahim izli,
İsmayıl qurbanlı
bir şəhərəm mən!
Həvva xatirəli,
Həcər sevdalı,
İsmətdən doğulan
bir şəhərəm mən!
Saflıq, duruluqdu
nişanəm mənim,
Zəmzəm sularında
dürr, gövhərəm mən!
Qara daş möhürlü,
Kəbə nişanlı,
İman işığında
münəvvərəm mən!
Həmzə cəsarətli,
Əli təpərli,

İslam savaşında
bir zəfərəm mən!
Karvan yollarıdı
sinəmdən keçən,
Həmişə hər yana
səfərbərəm mən!
Nə alış-verişim,
ticarətimlə,
Nə dolu xəzinəm,
nə sərvətimlə,
Ancaq sənin ilə
mötəbərəm mən!
Səndədir ürəyim,
səndədir canım,
Kitabım, Quranım,
dinim, imanım.
Köksümdə sən mənə
ürək kimisən,
Gözümün içində
bəbək kimisən.
Gözümdən uzağa
qoymaram səni,
Mən sənin sifətin,
sən mənim üzüm,
Üzümdən uzağa
qoymaram səni.
Neyləyək, belədir
hökmü zamanın,
Tutulan vaxtıdı
göy asimanın.
Heç kəs vətənində
peyğəmbər olmur,
Bəndə Allahından
uzaq düşəndə
Ürək sevindirən
bir xəbər olmur.

Narahat olmasın
qəlbin, ürəyin,
Bilirəm hər şeyi
biləcəyini,
Bu gündən görürəm
o sabahları,
İndidən görürəm
gələcəyini.
Sən öz Quranınla
nur içrə nursan,
Xeyirsən, duasan,
haqsan, uğursan.
Göylərin yerlərə
sovqatı kimi
Günəşsən, ulduzsan,
odsan, çıraqsan.
Yenib kafirləri,
münafiqləri,
İslamın bayrağı
başının üstə
Ruhuma qalibtək
qayıdacaqsan!

Mən Məkkə şəhəri,
sən Rəsulullah,
Çiçəksən, çəmənə
qayıdacaqsan!
İmanı sevməkdi
vətəni sevmək,
Vətənsən, vətənə
qayıdacaqsan!!!

HİCRƏT

Zülmə məruz qaldıqdan sonra Allah uğrunda hicrət edənləri dünyada gözəl bir yerdə sakin edəcəyik. Axirət mükafatı (Cənnət) isə daha böyükdür. Kaş (kafirlər və hicrətdən geri qalanlar bunu) biləydilər!
("ən-Nəhl" surəsi, 41-ci ayə)

Budaq kökdən ayrılırsa,
bu, budağın hicrətidir,
Tufan sovub-sovurursa,
bu, torpağın hicrətidir.
Zaman axır, yol qovursa,
vaxtın, çağın hicrətidir.
Qada başdan, ağrı candan
birdəfəlik gedər olsun,
Canımızdan hicrət edən
olanda da kədər olsun,
Qəm karvanı birdəfəlik
ömrümüzdən gedər olsun!
Bu dünyadan o dünyaya
gedənin də hicrəti var,
Ruh bədəndən çıxan kimi
yerdən göyə hicrət edər,
Yer üstündən yer altına
bədənin də hicrəti var.
Axşamdan səhərə hicrət,
Beşikdən məzara hicrət,
bələkdən kəfənə hicrət,
sənə hicrət, mənə hicrət,
Lap əzəldən Adəmin də,
Həvvanın da hicrəti var.

Hey dəyişir öz yerini,
bir məkanda tutmur qərar,
Atəşin də, küləyin də,
havanın da hicrəti var.
Hicrət edən birmi, beşmi,
onmu, yüzmü?
Dünya binnət olan gündən
bu vaxtadək
Köç etməyən bir kimsəni
gördünüzmü?
Ruhdan-ruha, candan-cana
məhəbbət də hicrət edir.
Dar bir sinif otağından
gedib çıxır səhralara,
Məcnun kimi düşür çölə,
məhəbbət də hicrət edir.
Hicrəti olmayan varsa,
Yaradanım tək Allahdı,
Lap peyğəmbər olsa belə,
Məhəmməd də hicrət edir.

Bu, Peyğəmbər hicrətidir,
Haqq özü məsləhət bilib,
Dünya üçün, bəşər üçün
ən xeyirli cəhət bilib.
Bu hicrətdən yeni tarix,
yeni zaman doğulacaq!
Cahanda bir təzə
cahan doğulacaq!
Zaman hicrət tarixiylə
quracaq öz saatını,
"Hicri" sözü bəzəyəcək
kitabların həyatını.
Bu hicrətdən ziyalanıb,
Həqiqətdən mayalanıb

İki şəhər arasında
birlik, vəhdət doğulacaq!
Yeni ordu, yeni nizam,
yeni dövlət doğulacaq!
Hicrət günü, hicrət anı
Təzə ruhla, təzə əllə,
təzə başla
Yer üzünün təzələnmiş
sahmanıdır,
Ulu bəşər tarixinin
rəhmətidir, Rəhmanıdır.
Cəsarətə hamilədir
hicrət bu gün,
Ondan bütün Yer üzünün
səadəti doğulacaq!
Məkkə adlı bir şəhərdə
doğulmuşdu sevgi şahı,
Mədinədə Məhəmmədin
məhəbbəti doğulacaq!

Məkkənin müşrikləri
ağzından od püskürür,
Heç kəs düz yola gəlmir
iman gətirmək üçün.
Hər ağızdan bir avaz,
hər başdan bir səs gəlir
Bu axşam Peyğəmbəri
qətlə yetirmək üçün.
Ehtiraslar qızışır,
qılınclar zəhərlənir,
Ölüm lap Məhəmmədin
başı üstə hərlənir.
Onun yaşıl bayrağı
enməlidir bu axşam,
İslamın ocaqları
sönməlidir bu axşam.

Əliqanlı ovçular
Ovunu vurmaq üçün
girir bəndə, bərəyə,
Allah özü göz qoyur
bu qanlı mənzərəyə!
Söz aydın, fikir qəti,
Hamı təsdiq eylədi
bu məkrli niyyəti.
Bu, intiqam gecəsi,
bu, qisas gecəsiydi,
Ancaq bir Allah bilir
kimə toy gecəsiydi,
kimə yas gecəsiydi?
Ölüm, qalım, ya qismət –
qismətədi, baxtadı,
Düşmən öz tədbirində,
Peyğəmbər sınaqdadı.
Rəsulum fikirləşib
nizamladı işini,
Çox götür-qoy eylədi
fələyin gərdişini!
Onun könül sirdaşı
"Siddiq" adı qazanmış
Həzrət Əbu Bəkrdi,
Öz canından da artıq
Həzrəti Məhəmmədin
qayğısını çəkirdi.
Ən dar ayaqda belə
sadiqdi Peyğəmbərə,
Kamalı, mərtəbəsi
layiqdi Peyğəmbərə.
Onların arasında
Fikir haçalanmadı,
bütövləşdi, tam oldu.
Elə ki batdı Günəş,
gün keçdi, axşam oldu,

Qoydu Həzrət Əlini
özünün yatağında,
Canından əzizini
ölümün qabağında.
Ayə gəldi şəninə,
O düşsə də çətinə,
Mələklər heyran oldu,
Yaradan fəxr eylədi
Əli cəsarətinə.
Yola çıxdı iki dost
gecənin bir çağında,
Asan deyil ayrılıq:
ət dırnaqdan ayrılır,
Ocaq istisiz qalır,
köz ocaqdan ayrılır.
Papaq başdan ayrılır,
baş papaqdan ayrılır,
Qopur zorun gücünə,
kök budaqdan ayrılır.
Asan deyil ayrılıq
Məkkə kimi şəhərdən,
Dil ağızdan ayrılır,
söz dodaqdan ayrılır.
Bu şəhərdə doğulub,
burda böyümüşdü O!
İndi öz yuvasından
uçub gedən quşdu O!
Nə Əbu Talibi var
ona bir sipər ola,
Nə elə arxası var
düşmənə çəpər ola!
Dünən anasız qalan
bu gün şəhərsiz qalır,
İgid atı tərk edir,
köhlən yəhərsiz qalır.

Həsrət ağır olanda
İnsanın ürəyində
Heç zaman sağalmayan
çapıq qalır, iz qalır.
Məkkənin həsrətiylə
gözləri dola-dola,
Bir də baxır göylərə,
boylanır sağa-sola.
Deyir: "Məni bağışla,
ey müqəddəs şəhərim,
Səndə keçdi hər günüm,
hər axşamım, səhərim.
Yetimlik görsəm də mən,
məni yetim qoymadın,
Səndən doymadığımtək,
sən də məndən doymadın.
Südündən mayalanıb,
Zəmzəmindən içmişəm,
Allah evi Kəbəni
bir aşiyan seçmişəm.
Hər qarış torpağını
gözümə nur bilmişəm,
Qara daşını belə
nur və büllur bilmişəm.
Ata üzü görmədim!
Sənin üzünə baxıb
mən atamı görmüşəm,
Səndən necə ayrılım?
Mən sənin qucağında
Tükənməyən ləzzəti,
dadı, tamı görmüşəm.
Burda enib qəlbimə
İlahinin ayəti,
Mən burda eşitmişəm
Qoca tarixlə bağlı
min cürə hekayəti!"

MAĞARADA İŞIQ

(Ey möminlər!) Əgər siz ona (Peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən biri (ikinin ikincisi) olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna (Əbu Bəkrə): "Qəm yemə, Allah bizimlədir!" – dediyi zaman (göstərmişdi). O vaxt Allah ona bir arxayınlıq (rahatlıq) nazil etmiş, onu sizin görmədiyiniz (mələklərdən ibarət) əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü (kəlmeyi-şəhadət) ucadır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!

("ət-Tövbə" surəsi, 40-cı ayə)

Bu, insan ömrüdü,
gəzir-dolanır,
Yaşayır səhrayla
dağ arasında.
Allah sevə-sevə
yaratdığını
Qoruyur düzlərin
fırtınasında,
Qoruyur dağların
mağarasında.
Nifrətdən qoruyur,
kindən qoruyur,
Şeytandan qoruyur,
cindən qoruyur.
Başının üstündə
bulud gəzdirir,
Kölgədə saxlayır,
gündən qoruyur.
Qəlbə bir tükənməz
azadlıq verir,

Cana bir gümrahlıq,
rahatlıq verir.
Çətinə, müşkülə
bir çözüm verir.
Versə də dözülməz
məhrumiyyəti,
Üstəlik bir səbir,
bir dözüm verir.
Ümidin telləri
gəriləndə də,
Qoymur qırılmağa,
qoymur sınmağa.
Həyat sevgisinə
qol-qanad olur,
Ruh eşqə çağırır,
od qızınmağa!
Dağlar zirvəsindən
külək göndərir,
Göylər yardım üçün
mələk göndərir,
Bulud əsirgəmir
yağmur payını,
Günəş nur dağıdır,
isti göndərir.
Mağara küncündə
tək qalmamaqçün
Əbu Bəkr kimi
çiyindaşı var,
Mələyi göndərir,
dostu göndərir.
Allah mağarada
yer vermədimi
Dağyanus əlindən
qaçanlara da?!
Dağların qoynunda
üç yüz il yatıb,

Sonradan gözünü
açanlara da?!
Allah mağarada
saxlamadımı
Musa Tur dağına
çəkiləndə də?!
Zərdüşt mağarada
hikmətlər gəzib,
Peyğəmbər ətrinə
bükülәndə də?!
Haqqın sevə-sevə
yaratdığını
Hira mağarası
səsləmədimi?!
Döndərib dünyanın
peyğəmbərinə,
Allah öz nuruyla
bəsləmədimi?!
İnsan qulağına
səslər gələndə
"Dayanma, dağ axtar,
dağ ara" – dedi.
Çox zaman dağların
demədiyini
Dağın qoynundakı
mağara dedi.
Əkilir, biçilir
bu qoca dünya,
Əkindən başlayır,
biçindən çıxır.
Dünyanın ən parlaq,
gur işıqları
Çox vaxt zülmətlərin
içindən çıxır.
Açılmır qıfılı,
sınmır tilsimi,

Heyrətlər yaşadır
sirr mağarada.
Dünyanın minlərlə
sirri gizlənir
Ağıla gəlməyən
bir mağarada.

Sevr mağarası...
sirli bir məkan,
Qonaq Məhəmmədlə
Əbu Bəkrdi.
Bu yerin çınqılı,
daşı, qayası
Peyğəmbər eşqinə
keşik çəkirdi.
Peyğəmbər özündən
əmin gedirdi,
Heç yerdə düşmürdü
şübhəyə, şəkkə.
Harda dirsəklənsə
daşa, torpağa,
Ruhuna rahatlıq
gətirmək üçün
Daş balınc olurdu,
mamır mütəkkə.
Bir azdan yumulur
göz qapaqları,
Peyğəmbər uyuyur
yuxu içində.
Sağında, solunda
səssizlik, sükut,
Qalıb Əbu Bəkr
qorxu içində.
Qəlbi səksəkədə,
qulağı səsdə,

İlahi, həyatda
gör nələr olur? –
Ölümlə həyatın
qarğaşasında
Bir tükdən asılan
talelər olur.
Yandırıb qəlbinin
tökür yağını,
Qəfil ilan çalır
dost ayağını.
Ağrı gözlərində
yaşa dönsə də,
Tərpənmir,
Məhəmməd oyanar deyə.
Səs-küy Peyğəmbərə
xətər yetirər,
Zamanın axarı
dayanar deyə.
Üç səhər açılır,
üç axşam düşür,
Yanır mağarada
Haqqın işığı.
Sabah Mədinədə
Allahın özü
Sahmana salacaq
bu yaraşığı.
Müşriklər qəzəbdən
alov püskürür,
Səhrada qumları
sovurur göyə.
Keçir varlığından,
varidatından,
Tapın, Məhəmmədi
gətirin deyə.
Yorulmur dağ aşıb,
düz axtaranlar,

Qəlbində xəyanət,
ürəyində kin
Dolaşır səhrada
iz axtaranlar.
Onlar nə bilsin ki,
istədiyini
Gözünün nuruyla
qoruyur Allah.
Zərif hörümçəyin,
ipək tellərin
Toxunan toruyla
qoruyur Allah.
Oddan İbrahimi
qoruyanımız
Burda Məhəmmədi
dardan qurtarır.
Alır cahillərin
əlindən onu,
Ölümdən, əcəldən,
dardan qurtarır.
Xilaskar göndərir
göyərçinləri,
Səngərə döndərir
quş yuvasını.
Alınmaz qalaya,
sehrə döndərir
Qaya qucağını,
daş yuvasını.
Güc nə hörümçəkdə,
nə də ki, quşda,
Bir Tanrı gücü var
bu qurtuluşda.
Aydınlıq gətirib
qaranlıqlara,
İşığı zülmətdən
qurtarmalıydı.

Yaradan göndərib
möcüzəsini,
Sevgini nifrətdən
qurtarmalıydı.
Ürəyi şübhədən,
qəlbi gümandan,
Dini xurafatdan
qurtarmalıydı.
Dünyanın ən uca
Peyğəmbərini
Ən ağır saatdan
qurtarmalıydı.
İslamın gücüylə
bəşəriyyəti
Vəhşi bir həyatdan
qurtarmalıydı!!!

CAMALINDA QƏM PƏRDƏSİ

Vallahi, ey Məhəmməd ümməti, mənim bildiklərimi sizlər də bilsəydiniz, çox ağlar, az gülərdiniz.
Hz. Məhəmməd

Sənin başın nələr çəkib,
mənim ulu Peyğəmbərim? –
Camalında qəm pərdəsi,
gözündə qanlı yaş gördüm.

Əbu Cəhllər cəhlinə
ölənədək gərdin sinə,
Özündə Haqqa aşiqlik,
düşmənində tələş gördüm.

Ruh tanımaz, dil anlamaz,
söz götürməz adamları
Əbu Ləhəblər səfində
həmişə bağrı daş gördüm.

Böyük ağlın, böyük ruhun,
böyük eşqin qarşısında
Münafiqləri aciz,
kafirləri çaşbaş gördüm.

İmam Əli qılıncıdı
həqiqətin kəskinliyi,
Harda onu seyr eylədim,
haqq uğrunda savaş gördüm.

Səbir, təmkin, dözüm, ağıl
sənlə bir doğulmuşdu,
Bu, Allahın seçimiydi,
səni hər yerdə baş gördüm.

Daşa, taxtaya tapınan
ağıldan küt bəndələrin
Sənə qarşı süfrəsində
zəhərlə bişmiş aş gördüm.

* * *

Kafirlərdən nələr çəkdi
Haqqın mömin bəndələri? –
Cahillər bu gen dünyanı
aqillərə dar etdilər.

İblislərə, naqislərə,
şeytanlara yoldaş olub,
İlahinin nəzərində
özlərini xar etdilər.

Nə Tövrata, nə İncilə,
nə Qurana inandılar,
Yaradana asiliyi
hər yerdə təkrar etdilər.

Cansız bütə can deyənlər
canlı nədir, anlamadı,
İnsanları tovladılar,
iblislərə yar etdilər.

Yer üzünün şeytanları
qan eylədi meydanları,
Şeytanlığı hünər bilib
hər tərəfə car etdilər.

Yaradana istəkləri,
sevgiləri yoxa çıxdı,
Məkri, kini, küdurəti,
yaşatdılar, var etdilər.

Neçə-neçə din düşməni
imam, peyğəmbər öldürdü,
Haqq adından nazil olan
hər nə var inkar etdilər.

* * *

Yaradanın eşqinə
qovuşanlar qazandı,
Xainlər xəcil oldu
xəcalətin içində.

Qatillər qılıncının
ağzını zəhərlədi,
Aqillər işıq oldu
ədalətin içində.

Qəlbinə bircə damla
Haqq işığı düşmədi,
Rəzillər batdı getdi
rəzalətin içində.

Bu dünyaya nə qədər
peyğəmbər gəldi-getdi,
Cahillər yenə qaldı
cəhalətin içində.

Səkkiz cənnət qapısı
açıq olar üzünə,
İnsan rahatlıq tapar
məhəbbətin içində.

MƏDİNƏYƏ YAR GƏLİB...
DAYAN, AĞ DƏVƏ, DAYAN!

Mədinəyə hicrət edəcəyini Həzrəti Cəbrayıl hələ merac gecəsində Peyğəmbərimizə xəbər vermişdi.
("Hədisi-Şərif")

Ağ günlər eşqinə
çıxıb yollara
Ağ dəvə üstündə
Məhəmməd gəlir.
Onun nəfəsində,
onun ruhunda
Kamil iman gəlir,
mərhəmət gəlir.
Arzunun, ümidin
qanadlarında
Köksü irfan dolu
bir sərvət gəlir.

Peyğəmbər gəldi çatdı,
Dayan, ağ dəvə, dayan!
Dediyini yaratdı,
Dayan, ağ dəvə, dayan!

Məkkə ona dar gəlib,
Mədinəyə yar gəlib,
Yorğundu, yollar gəlib,
Dayan, ağ dəvə, dayan!

Damara saf qan gəlib,
Cansızlara can gəlib,

Bir cənnətməkan gəlib,
Dayan, ağ dəvə, dayan!

Yatanlar da ayıldı,
Səs dünyaya yayıldı,
Bələdçi Cəbrayıldı,
Dayan, ağ dəvə, dayan.

Könüllərə şah gəlib,
Hər sirrə agah gəlib,
Üstüylə Allah gəlib,
Dayan, ağ dəvə, dayan!

Göz sevincdən yaşlanır,
Duyğular naxışlanır,
Təzə tarix başlanır,
Dayan, ağ dəvə, dayan!

İzlərəm izlərini,
Öpərəm gözlərini,
Yerə qoy dizlərini,
Dayan, ağ dəvə, dayan!

"Bismillah" sözünün
ləngəri gəldi,
Gəldi, dilimizin
əzbəri gəldi,
Uca dinimizin
sərvəri gəldi,
Gözün aydın olsun,
Mədinəm mənim!

Peyğəmbər qalmadı
çarəsiz, naçar,
Burdan işığını
hər yana saçar.

Bir yandan bağlayan,
bir yandan açar,
Gözün aydın olsun,
Mədinəm mənim!

Adını hörmətlə
tarix anacaq,
Göydə Günəş kimi
daim yanacaq,
Bu gün Məhşərədək
xatırlanacaq,
Gözün aydın olsun,
Mədinəm mənim!

Bu gün – Günəş nuru,
su aydınlığı,
Səhər şəfəqiylə
yu aydınlığı,
Allah bəxş eylədi
bu aydınlığı,
Gözün aydın olsun,
Mədinəm mənim!

BƏDR SAVAŞI

Allahım! Mənə verdiyin vədi yerinə yetir. Allahım! Bu bir parça müsəlman mücahid həlak olarsa, artıq sənə yer üzündə ibadət edən bir kimsə qalmaz.

Hz. Məhəmməd

Həyəcan içindədir
qızıl qumlar dəryası,
Döyüşlərə səhnədir
qədim ərəb səhrası.
Bu gün savaş ruhu var,
Bədrin təpələrində,
Mehin dalğalarında,
qumun ləpələrində.
Bir tərəfdə Qüreyşi,
yenə susayıb qana,
Bir yanda Peyğəmbərin
məğrur, mübarək səsi.
Bir yanda Əbu Cəhlin
təfriqəsi, fitnəsi,
Bir yanda Allaha dost,
Haqqa şərəf olanlar,
Bir yanda iblislərə,
məkrə tərəf olanlar.
Dost yolu Haqqa doğru,
düşmən yolu çaş gedir,
Bədr həyəcanlıdır,
Bədrdə savaş gedir.

Peyğəmbərin yanında
Əbu Bəkr döyüşür,

Əbu Cəhlin yanında
Əbu Bəkrin övladı.
Qanlı vuruşmalarda
dost düşmənə çevrilir,
Doğmalar bir-birinə
olur yadların yadı;
Bir yanda oğul durur,
bir yanda ata durur,
Bir yanda savab durur,
bir yanda xata durur.
Bir qandan olduqları
heç yerləşmir ağlına,
Əmi qılınc qaldırır
qardaşının oğluna.
Qüreyşi fikirləşib
gedə bilmir dərinə,
Kafirliyi qazanır
möminliyin yerinə.
Yel də toxuna bilmir
Peyğəmbərin tükünə,
Qüreyşilər baltanı
endirir öz kökünə.
Qardaşın güdazına
doğmaca qardaş gedir,
Bədr həyəcanlıdır,
Bədrdə savaş gedir.
Öpür cənnətə doğru
uçan könül quşunu,
Şəhidliyə can atır
Peyğəmbərin qoşunu.
Mühaciri, ənsarı
sevir çərxin gərdişi,
Min nəfərin önündə
çarpışır üç yüz kişi.
Hər əlində bir qılınc,
Həmzə yarır səfləri,

Əl titrəmir, qol əsmir,
düz vurur hədəfləri.
Ön səfdə, ön cərgədə
vuruşur Həzrət Əli,
Qəhrəmanlıq zirvəsi,
qəhrəmanlar məşəli.
Allah özüdü burda
həqiqətin şahidi,
O özüdü qoruyan
qazini, mücahidi.
Hər qılınc sıyrılanda
bədəndən bir baş gedir,
Bədr həyəcanlıdır,
Bədrdə savaş gedir.

Qoyur, gözündə qoyur
ilqarını, əhdini,
Tanrı qəbul eləmir
Əbu Cəhlin cəhdini.
Düşmənə göz dağıdır
tarixin bu savaşı,
İki ənsar əlində
kəsilir onun başı.
Əbu Cəhl öldüsə,
döyüşlərin sonudur,
O, islamın qənimi,
"ümmətin fironu"dur.
O idi Peyğəmbərə
tükənməz kin bəsləyən,
O idi müşrikləri
qan tökməyə səsləyən.
O idi Mədinəyə
qoşun çəkən Məkkədən,
O idi Yaradana
şərik qoşan, şəkk edən.

O idi Peyğəmbərin
ölümünə can atan,
O idi küfrü, məkri
beyinlərə həkk edən.
Uduzur qəvi düşmən,
qaçır çöllərə doğru,
Allah açır islama
Haqqa gedən yolları.
Axırzaman günüdür
Allaha asilərin,
Ayağının altından
torpaq qaçır, daş gedir,
Bədr həyəcanlıdır,
Bədrdə savaş gedir.

Gözdə Allahın nuru,
dildə "Allahu-Əkbər!",
Qalib gələn inamdı,
zəfər çalansa əsgər.
Əsgər mələk donunda,
mələk əsgər donunda,
Dağ da, daş da, külək də
döyüşən ər donunda.
Darda Cəbrayıl çatır
imdadına islamın,
Allahdandı qüdrəti
bu polad izdihamın.
Qəbul olur namazda
Peyğəmbərin duası,
Daha da işıqlanır
könüllərin ziyası.
Şəhidə sovqat verir
Quranın avazını,
Qılır şəhidlər üstə
cənazə namazını.

Peyğəmbər Mədinəyə
xoş soraqla qayıdır,
Haqqa güvənən kişi
yenə haqla qayıdır.
Düşmənə bir dərs olur
haqqın gurlayan səsi,
Beləcə başa çatır
Bədr müharibəsi!

YAŞAYACAQ BU DÜNYA MƏHƏMMƏDİN EŞQİNƏ!

Ya Peyğəmbər! Kafirlərə qarşı (qılıncla), münafiqlərə qarşı (sözlə) vuruş. Onlarla sərt rəftar et. Onların məskəni Cəhənnəmdir. Ora necə də pis sığınacaqdır!
("ət-Təhrim" surəsi, 9-cu ayə)

Qan axır, qan!
Min illərdir qanlar axır
milyonların yarasından!
İlk axan qan
Habil-Qabil arasında
düşən qandı,
Ürəkləri sızıldadıb,
könülləri deşən qandı.
O zamandan bu zamana
Üz-üzədi xeyirlə şər,
Hey vuruşur, hey əlləşir,
Xilas yolu tapmır bəşər!
Min illərdi vuruşuruq
iblis ilə, şeytan ilə,
Vuruşuruq şeytanların
at çapdığı meydan ilə.
Bu dünyaya mənim dinim
kişi verib, müdrik verib, igid verib,
Din yolunda qalib islam orduları
gör nə qədər şəhid verib.
Tarixlərin yaddaşında
Neçə-neçə Bədr, Ühüd,
neçə Xəndək davası var,
Saf əqidə, inam,
məslək davası var.

Bu yerlərdə Allah özü
vuruşurdu bütlər ilə,
Yaradanı dərk etməyən
ağlı, beyni lütlər ilə!
Mələkləri göndərmişdi
İslam adlı ordum üçün,
Məhəmmədə yardım üçün.

Şəhidlik zirvəsinə
öz ömrünü verənlər
Haqqa ürəklə verdi,
Yaradanın adıyla,
təmiz diləklə verdi.
Tanrının kitabına
Tanrı özü yazırdı
Şəhidlik zirvəsinə
qalxıb ucalanları!
Kəlməbaşı Allahı
yadına salanları!
Zamanın yaddaşında
əbədi qalanları!
Din və iman yolunda
Həzrəti Həmzə şəhid!
Həzrəti Ömər şəhid!
Həzrəti Osman şəhid!
Çəkdikləri dərd-ələm,
gördükləri qan, şəhid!
Düşmən işə salanda
qatil Əbdürrəhmanı[41],
Pozuldu yer üzünün
səliqəsi, sahmanı.
Məscidə töküləndə
İmam Əlinin qanı,
Bu inanılmaz xəbər
Qəfil zəlzələ kimi
silkələdi dünyanı!

Bədəndən ayrılanda
İmam Hüseynin başı,
Sızıldadı Məkkədə
Kəbənin qara daşı!
Yaradanın yolundan,
Məhəmmədin dinindən
"Dön!" dedilər, dönmədi!
Yezidə beyət gətir,
"En!" dedilər, enmədi!
Sındırmaq istədilər
Əli yadigarını,
Peyğəmbər nəvəsini,
"Sın!" dedilər, sınmadı!
Özünün qəlbindəki
gur ocağa tapındı,
Özgənin istisinə
əl açıb qızınmadı.
O vaxtdan bu zamana
harda olursa olsun,
İslam şəhidlərinin
məqamı cənnət olur,
Müşrikin, münafiqin
qazancı lənət olur.
Kim cəhənnəm etdisə
bu dünyada cənnəti,
Qiyamət günündə də
cənnətə həsrət olur.
Düz min dörd yüz ildi ki,
Davam edir şəhidlik
iman və din yolunda!
Həzrəti Peyğəmbərin –
Məhəmmədin yolunda!
Heç kəs geri çəkilmir,
Ölməyi şərəf bilir,
bu əzabın yolunda,

Allah kəlamı olan
bir kitabın yolunda!
Mənim Peyğəmbərimə
Qılıncla vuruş deyən,
ey mənim uca Tanrım!
Sənsən bizi qaldıran
hər taxta, taca, Tanrım!
Bu qədər şəhid olub,
bu qədər can vermişik,
Nə qədər cavanları
haqqa qurban vermişik.
Orucunu tutmuşuq,
namazını qılmışıq,
Sənə iman gətirib, biz sənə qısılmışıq.

Bəs niyə sona çatmır
fəryadımız, ahımız?
Niyə ürəyimizcə
açılmır sabahımız?
Niyə gülmür üzümüz?
Niyə qana bələnib
gecəmiz, gündüzümüz?
Həm Rəhmansan, həm Rəhim!
Özün başa sal bizi,
Harda səhv eyləmişik,
hardadı günahımız?
Səda gəldi Tanrıdan,
dedi: "Al cavabını!
Məndən sənə deməkdir,
özün çək hesabını!
"Müsəlman müsəlmanın
qardaşıdır!" demişdim,
Sən öz din qardaşına
qardaş ola bilmədin!
Gözləri ağlayanda,
qaşları çatılanda,

Bir gərəksiz daş kimi
çöllərə atılanda,
Nisgilinə, dərdinə
sirdaş ola bilmədin!
"Qonşun ilə hər zaman
mehriban ol!" demişdim,
Sənsə küsülü qaldın,
mehriban olammadın.
Sənə insan demişdim,
sən insan olammadın,
"Verdiyim hər nemətə
şükür eylə!" demişdim,
Şükranlıq nə deməkdi,
şükür nədi, bilmədin.
Ancaq dara düşəndə
yada saldın sən məni,
Mənim adımla bağlı
zikr nədi, bilmədin.
Bir insanın taleyi
sulara qərq olanda
Dərdə şərik olmadın,
fikir nədi, bilmədin.
Dinin islam olsa da,
sən müsəlman olmadın.
Sən Əbuzər[42] olmadın,
Salman Farsi[43] olmadın.
Heç vaxt bir yerə gəlmir
iki qardaşın sözü,
Ağıla nə verəcək
ağılsız başın sözü?
Quranı yandıranda,
Məscidi uçuranda,
Şeyxi güllələdəndə
Bilmədinmi qarşına
çıxacaq etdiklərin?!

Elə sən ağıldadı
sənin yol getdiklərin.
Bəndələr unutsa da,
bunu Tanrı unutmaz,
Allah ilə şeytanın
heç vaxt dostluğu tutmaz.
Ona görə təqsirin,
günahların yuyulmur,
Sənin baxışlarında
şeytanlar at oynadır,
müsəlmanlıq duyulmur.
Müşriklər ona görə
ayaq açır üstünə,
Baxıb-baxıb həzz alır,
dumanına, tüstünə.
Mən sənə demədimmi,
"Heç vaxt gözün olmasın
yetimlərin malında",
Sənsə qan sora-sora
Üzürsən sağdan-sola
Haram yolla yığdığın
haram cah-calalında.
Mən sənə demədimmi:
"Zinakarlıq eyləmə
bir qıza, bir qadına!",
Tutdun öz bildiyini,
mən düşmədim yadına.
Mən sənə demədimmi,
"Şərik qoşma Allaha!",
Get indi yer üzündə
Kimə "Allah" dedinsə,
ona arxalan daha!
Mən nə qədər dedimsə,
Anlamadın Quranı,
dinləmədin azanı,

Elə ona görə də
almalısan cəzanı!
Bəlkə elə ona görə
duman çökür gözlərinə,
Bu gün hara baxırsansa,
axan müsəlman qanıdır.
Yollar boyu, çöllər boyu
şırhaşırla axıb gedir,
Deyən yoxdu: "Bir dayanın,
bu axan insan qanıdır!"
Yüz-yüz ölür, min-min itir,
zor gücünə öldürülür,
Elə bil ki, insan deyil,
tökülən heyvan qanıdır.
Dilə hücum, dinə zərbə,
ruha basqı vermir aman,
Beyninizə sızan qanlar
könül qanı, can qanıdır.
Yer üzünün harasında
torpağı qızaran görsən,
Ya bir türkdü, ya bir ərəb,
ya da bir əfqan qanıdır.
Sizi sizlə vuruşduran,
qanınızı qarışdıran
İçinizə çoxdan girmiş
məkrli şeytan qanıdır.
Hələ mən bu dünyanı
belə yaşadıramsa,
Darda qalan kəslərin
dadına çatıramsa,
Ay öz vaxtında doğub,
vədəsində batırsa,
Günəşin nur saçmağa
hələ gücü çatırsa,
Son ümid bağlarını
mən kəsib atmıramsa,

Qiyaməti gətirib
Bəşər deyilən kəsin
sonuna çatmıramsa,
Yaşayacaq bu dünya!!!
Mənə iman gətirən
şəhidlərin eşqinə!
Şəhidliyin şahidi
şahidlərin eşqinə!
Şəhidlərin çəkdiyi
hər əzabın eşqinə!
Quran adlı müqəddəs
bir kitabın eşqinə!
Yaşayacaq bu dünya!!!
İman və din eşqinə!
Peyğəmbərlik verdiyim
Məhəmmədin eşqinə!!!"

HƏMZƏ

Mənə Cəbrayıl əleyhissəlam gəlib "Həmzə ibn Əbdülmüttəlib göydəkilər qatında Allahın və Rəsulunun aslanıdır" yazıldığını buyurdu. Ey Rəsulullahın qoruyucusu olan Həmzə! Ey Allahın və Rəsulunun aslanı Həmzə! Əgər səndən sonra yas tutmaq lazım gəlsəydi, sevinməyi buraxıb sənə yas tutardım.

Hz. Məhəmməd

Meydan savaş meydanıdı,
zaman ər zamanıdır,
Tək Allaha tapınmış
peyğəmbər zamanıdır.
Bir iman baş qaldırır
hər işıqlı sinədə,
Qalxır islam bayrağı
mübarək Mədinədə!
Nur dağıdır Məhəmməd
axşama da, sübhə də,
Kim dürüst imandadı,
kimi hələ şübhədə.
Dil tapa biləcəkmi
üç iman bir şəhərdə? –
Yəhudi, xristian,
müsəlman bir şəhərdə.
Hər birinin öz dini,
peyğəmbəri, kitabı,
Hər birinin dünyada
öz sualı, cavabı.
Burda məhəbbət gərək,
dost eyləsin dinləri,

Burda cəsarət gərək,
qaldırsın ortalıqdan
İnsana qənim olan
nifrətləri, kinləri.
Hamı Xədicə deyil
Peyğəmbər deyən kimi
ona iman gətirə.
Bu imanda, bu dində
Dünyaya təzə nəfəs,
təzə bir can gətirə.

Qüreyşi əl götürmür
məkrli inadından,
Peyğəmbər çıxmır bir an
heç onların yadından.
Düşmən əli silahlı,
kafir atı yəhərli,
Əbu Ləhəb zəhərli!
Əbu Süfyan zəhərli!
Ariflər ətrafında
Peyğəmbərim qayğılı,
Peyğəmbərim qəhərli!

Doğma yurdun həsrəti
ürəyini sıxsa da,
Zor gücünə Məhəmməd
Məkkəsindən çıxsa da,
Düşmən yenə oyaqdı:
nə durur, nə dincəlir,
Məkkədən Mədinəyə
gündə bəd xəbər gəlir,
Qəlbaçan heç nə yoxdur,
nə gəlirsə şər gəlir.
Düşmən geri çəkilmir,
tökmür ətəkdən daşı,

Onlara dərs olmamış
sanki Bədr savaşı!
Dilində Haqqın adı,
qəlbində Haqqın dini,
İslam Bədrdə verdi
Mihcat adı daşıyan
ilk cavan şəhidini!
Din və iman yolunda
igidlərdən başladı,
İslamın ömür yolu
şəhidlərdən başladı.
Üz-üzədi cəbhələr,
Yenə Ühüd çölündə
Dinli ilə dinsizin
qanlı savaşı gedir.
Havadadır qılınclar:
kiminin qolu düşür,
kiminin başı gedir.
Qəfil gələn bir xəbər
İslamın cəbhəsində
çaxdı ildırım kimi.
Torpaq bu zəlzələdən
yarıldı şırım kimi!
Həmzə də şəhid oldu,
sinəsindən vurdular,
Döyüşlər pələngini
əbədi susdurdular!
Vəhşi adlı bir həbəş
qıyır onun canına,
Ömürlük ləkə yaxır
özünün ünvanına.
Onun tunc sinəsini
sərrast alır nişana,
Qatil çatır arzuya,
şəhid boyanır qana.

Şəhidlik məktəbinin
ilk böyük müəllimi
Çarpışır din yolunda
Son qüvvət, son iradə,
son güc qalana kimi!
Öldü Həzrəti Həmzə!
Xəbər bir an içində
yayıldı hər tərəfə!
O, bu ölümlə çatır
İslam şəhidliyində
ən uca bir şərəfə –
İslamın vuran qolu,
ürəyinin təpəri!
Yetişir Peyğəmbərə
onun ölüm xəbəri.
İxtiyarsız gözündən
tökülür göz yaşları,
Artır, birə-min artır
qəlbinin tələşları.
Başı bəlalar çəkən
Peyğəmbər əfəndimiz
Heç zaman belə solub,
belə üzülməmişdi.
Ağladığı günləri
gətirirdi yadına,
Yaş gözündən heç zaman
belə süzülməmişdi.
Çəkəndə çəkilməyən
dərdin bələlarını,
Ölüm əldən alanda körpə balalarını,
İbrahimi, Qasimi
tapşıranda torpağa,
Dönəndə yanaqları
xəzan döymüş yarpağa,
Xədicəsi ağrıdan
yananda, qıvrılanda,

Əbu Talib atəşin
odunda qovrulanda,
Ağlayıb-sızlamışdı,
belə ağlamamışdı.
Gözündə qanlı sellər
Çaylar kimi kükrəyib
belə çağlamamışdı.
İçi yanır, çalxanır
tufanlı dərya kimi,
Yanır bağrı, ürəyi
qovrulan səhra kimi.
Ürəyini boşaldır
gözlərinin yaşıyla,
Qəlbinə dağ çəkilir
Ühüdün savaşıyla.
Kimdi Həzrəti Həmzə?!
Peyğəmbərin doğması,
qəlbi, ürəyi, canı,
Ölümlə pəncələşən
Bədrin şanlı aslanı!
Kimdi Həzrəti Həmzə?!
Peyğəmbər zamanında
tufanların şahidi,
Peyğəmbəri gözünün
giləsitək qoruyan
islamın mücahidi!
Kimdi Həzrəti Həmzə?!
Şəhidlərin ağası,
Şəhidlikdə ad qoyan
"Seyyidüş-şühəda"sı!
O vaxtdan bu zamana
Şəhidlik, qəhrəmanlıq
addımlayır yanaşı,
Ərşə qədər ucalır
islamın məğrur başı.

TANRIM, ŞƏHİD OLMAĞIN SİRRİNİ ÖYRƏT MƏNƏ!

Peyğəmbər dilindəki
ən mübarək kəlmədi,
Yerlərə könül verib,
göylərə yüksəlmədi,
Şəhidlik qisməti də
İlahidən gəlmədi, –
Bu əlçatmaz ucalıq
heyrətdi, heyrət mənə,
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

Gözüm yox bu dünyanın
sərvətində, zərində,
Budaqlarım buludda,
köküm-rişəm dərində,
Niyə şəhid olmadım
Ühüd döyüşlərində? –
Nədən bu ağır sual
verir xəcalət mənə,
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

Şəhidlikdir qaldıran
dini də, imanı da,
Şəhidlikdi zəfərə
qaldıran insanı da,
Şəhidlikdi yazdıran
millətə dastanı da, –

Allahın özü versin
hünər, cəsarət mənə,
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

Bu gün də dilimdədir
bayatılar, ağılar,
Yenə də hücumdadır
qaniçənlər, yağılar,
Şəhidləri olmasa,
millət batar, dağılar, –
Ondan gəlir tükənməz
əbədi qüdrət mənə,
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

Dinimin ayağına
günah yazırlar bu gün,
Ayağımın altını
yaman qazırlar bu gün,
İslamın dediyini
tərsə yozurlar bu gün, –
Cavabını verməsəm,
min dəfə lənət mənə,
Tanrım, şəhid olmağın
sirrini öyrət mənə!

ELMİN QAPISI

Mən elmin şəhəriyəm, Əli onun qapısıdır.
Hz. Məhəmməd

"Pənah aparıram
sübhün Rəbbinə!"
Gücüm, arxam olsun,
pənahım olsun.
"Pənah aparıram
sübhün Rəbbinə!",
Ümidlə açılan
sabahım olsun.
"Pənah aparıram
sübhün Rəbbinə!",
Həzrəti Əlidən
söz açmaq üçün
Uca söz ən böyük
matahım olsun.
Peyğəmbər köməyim,
Quran dayağım,
Yardımçım tək olan
Allahım olsun!

Peyğəmbərin şəhərinə
girmək üçün,
Peyğəmbərin şəhərini
görmək üçün,
O şəhərin yaşıl cənnət
bağlarında
Arzuların meyvəsini
dərmək üçün,

Bir qapı var, o qapını
öz əlimlə açım dedim,
Onun irfan işığını
ürəyimə saçım dedim.
O qapının öz kilidi,
öz açarı,
O qapının idrak – dili,
söz – açarı.
O qapının elmi, yükü,
fəlsəfəsi –
Yaradanın "Bismillah"dan
gələn səsi!
O qapının islam ruhu,
müslüm canı,
Adəm oğlu, o qapını
yaxşı tanı.
O – mərifət qapısıdır,
xidmətçisi kamil insan,
O – şəriət qapısıdır,
dürüst ağıl, dürüst iman.
O – təriqət qapısıdır,
doğru yoldu, doğru ərkan,
O – həqiqət qapısıdır
bəlli ağıl, bəlli nişan.
O – bir qüdrət qapısıdır,
Xeybər adlı nişanı var,
O – cəsarət qapısıdır,
Bədr adlanan meydanı var.
O – mərifət qapısıdır,
fəqirlərə ehsanı var,
O – imamət qapısıdır,
dünya boyda heyranı var.
O – Məhəmməd qapısıdır,
yol göstərən Quranı var,
O qapıdan o tərəfə
Peyğəmbərin şəhəri var,

O şəhərin
Şahi-Mərdan dediyimiz
əsgəri var.
O qapıdan girənlərin
Allahı bir, peyğəmbəri,
kitabı bir,
Ruhundakı xoş məramı,
dilindəki xitabı bir.
Birlik orda, pirlik orda,
dirlik orda,
Ər meydanı istəyənə
ərlik orda.
O qapıdan şübhə keçmir,
güman keçmir,
O qapıdan yaxşı keçir,
yaman keçmir,
O qapıdan işıq keçir,
duman keçmir,
O qapıdan iştah keçmir,
tamah keçmir,
Savab keçir, günah keçmir,
O qapıdan keçmək üçün
sudan duru, aydan arı
ürək gərək,
Təbiətin ipək gərək,
məhəbbətin mələk gərək.
Həmin qapı Həzrət Əli
qapısıdır,
Möminlərin əfəndisi,
İmam, Vəli qapısıdır.
Ədalətin gücü onun,
gücün ədaləti onun,
Tanrının cənnəti onun,
Allahın rəhməti onun.
Allah evində doğulan,
gözünü Kəbədə açan,

Könüllərin həvəsiylə
aləmlərə işıq saçan,
On yaşından Peyğəmbərə
sirdaş olan,
Arxa olan, dayaq olan,
qardaş olan,
Peyğəmbərlə bir ağacdan
mayalanan,
Peyğəmbərin işığında
ziyalanan!
Ruhu təmiz, eşqi uca,
nəfsi halal!
Sinəsində iman adlı
bir cah-calal!
İslamın ilk müsəlmanı,
İmamətin qəlbi, canı,
Əbu Talib övladından
dönüb Şahi-Mərdan olan,
dönüb Şiri-Yəzdan olan,
Qəhrəmanlar qəhrəmanı,
daim mərdi-meydan olan,
Saya gəlməz savaşlarda
islamın şah ələmdarı –
Uca Allah bayraqdarı!
Gecə-gündüz
fikri-zikri Allah olan,
Dar ayaqda, çətin gündə
dönüb Əsədullah olan,
"Kimsəsizə arxa durub,
yetimlərə yar" deyilən,
Savaşlarda ünvanına
"Heydəri-Kərrar" deyilən,
Kasıblığı, fəqirliyi
ən böyük var-dövlət bilən,
Bu dövləti insan üçün
tükənməz bir sərvət bilən,

Qəlbimizə, ağlımıza
səda verən,
İlahi bir ədalətlə
ruhumuza qida verən,
Ağır hicrət gecəsində
Peyğəmbərə sipər olan,
Peyğəmbəri qorumaqçün
canında güc, təpər olan,
Peyğəmbərin həm bu dünya,
həm də axirət qardaşı,
qeyrət, cəsarət qardaşı.
Ey peyğəmbər şəhərinin
haqq qapısı, şah qapısı,
Ululara vətən olan
ulu bir dərgah qapısı.
Bizdən sənə salam olsun,
ey Əbu Talib övladı,
Qazi-ərən savaşların
mərd oğlu, qalib övladı.
Səni sevmək imandandı,
ey imanı dastan olan,
Gül ağzından gül tökülən,
hər sözü gülüstan olan,
Səni sevmək imandandı,
torpaq kimi, Vətən kimi,
Peyğəmbərlə bir olmusan,
vücud kimi, bədən kimi.
Bir gün məndən soruşdular:
"Şair qardaş, səndən ötrü,
söylə, kimdir Mövla Əli?"
Ürəyimdən bir səs qopdu,
Haqdan gələn səda kimi:
"Ədalətin zirvəsində,
həqiqətin dövrəsində
Zamanlara hakim olan
bir hakimdir Mövla Əli!

Adını Allah qaldırıb,
eşqini Peyğəmbər öyüb,
Səhər vaxtı üfüqlərin
al rəngidir Mövla Əli.
Düldül atı, Qənbər qulu,
Zülfüqar kəskin qılıncı,
Ədalətin yer üzündə
ahəngidir Mövla Əli.

Eşqi ləkə, ruhu zədə,
dili qeybət tanımadı,
Haqdan qeyri başqa arzu,
başqa niyyət tanımadı.
Ömrü boyu qalib oldu,
məğlubiyyət tanımadı,
Başdan-başa qələbələr
çələngidir Mövla Əli.

Uca islam dünyasının
bir ər oğlu, ər babası,
Lap bu günün özündə də
ruhun təzə-tər babası.
Həsən ilə Hüseyn adlı
qoşa imamlar babası,
Həm savaşdı, həm barışdı,
həm cəngidi Mövla Əli".

YERİDİ AĞ DALĞALAR ÜZÜ QİBLƏYƏ SARI

(Məkkənin fəthi)

(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə (müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir çox başqa məmləkətlərin fəthinə səbəb olacaq Hüdeybiyyə sülhü ilə) açıq-aşkar bir zəfər bəxş etdik!

("əl-Fəth" surəsi, 1-ci ayə)

Bu yol Məkkə yoludur,
bu yol şərəf, şan yolu,
İnsana, insanlığa
nurlu kəhkəşan yolu.

Göydən gələn səslərin,
səsi duyan kəslərin,
Əsl müqəddəslərin
əbədi nişan yolu.

Arzuların, kamların,
sevgi dolu camların,
Haqqa qul adamların
qaynayıb daşan yolu.

Fürsət verər duyana,
canı Haqqa qıyana,
Günahını yuyana
ən böyük imkan yolu.

Gedən dost, gələn hacı,
Peyğəmbərin meracı,
Bütün yolların tacı –
din yolu, iman yolu.
Bu yol Məkkə yoludur,
duyğuların saf yolu,
Tövbə, etiraf yolu,
mərhəmət, insaf yolu.
Fikirlərin, hislərin
su kimi şəffaf yolu,
Haqq yolu, vicdan yolu,
din yolu, iman yolu.
Gözlər üçün gur işıq,
can umana can yolu,
Din Məhəmməd yolunda
əbədi nişan yolu!!!

Səkkiz il ayrılıq,
səkkiz il hicrət,
Səkkiz il intizar,
səkkiz il həsrət,
Səkkiz il imtahan,
səkkiz il möhnət,
Səkkiz il hazırlıq,
səkkiz il qüvvət,
Sinədə duyğular
aşıb-daşırdı;
Xəbər gözləyirdi
ulu Tanrıdan,
Peyğəmbər səfərə
hazırlaşırdı.
İslamın naxışı,
hənası Məkkə,
Tanrı inancının
binası Məkkə,

Məhəmməd ömrünün
mənası Məkkə,
Ulu Peyğəmbərin
anası Məkkə
Müşriklər əlində
yolu çaşırdı,
Onu haqq yoluna
gətirmək üçün
Peyğəmbər səfərə
hazırlaşırdı.

Ona işığını
gur verdi Allah!
Ona tükənməyən
nur verdi Allah!
Ona işlərində
sur verdi Allah!
Ona ürək açdı,
sirr verdi Allah:
"Ya Rəsul, səfərə
hazırlaş!" – dedi.

"Hökmün və hikmətin
zamanı gəldi,
Ağlın, qətiyyətin
zamanı gəldi,
İlahi qismətin
zamanı gəldi,
Böyük ziyarətin
zamanı gəldi,
Ya Rəsul, səfərə
hazırlaş!" – dedi.

"Səni bir mübarək
şəhər gözləyir,
Məkkədə açılan
səhər gözləyir,

Allahın evinə
səfər gözləyir,
Fəth günü gözləyir,
zəfər gözləyir,
Ya Rəsul, səfərə
hazırlaş!" – dedi.

Bu xeyir xəbəri,
bu şad xəbəri,
Aylarla, illərlə
gözləmişdi o!
Qəlbinin işıqlı
bir guşəsində
Pünhanca saxlayıb
gizləmişdi o!
Orda nələr olub
bu səkkiz ildə,
Gecəli-gündüzlü
izləmişdi o!

Bağlıydı torpağa,
yurda Məhəmməd,
Yurda qayıdırdı
nurda Məhəmməd!
Adını hayanda
çəkirsənsə çək,
Orda Məhəmməddi,
burda Məhəmməd!
Ey gözü yollara
boylanan şəhər,
Yetəcək dadına
darda Məhəmməd!
Peyğəmbər dayağı
olan Mədinə,
İman işığıyla
dolan Mədinə,

Zamanın peyğəmbər
şəhəri kimi
Tarixin yadında
qalan Mədinə,
O gün başdan-başa
yanan zər idi,
Nə ki Məhəmmədə
vurğun olan var,
Hamısı Məkkəyə
səfərbər idi.

Bu gün həqiqətə
dönən arzunun
Könül qayğısıyla
süslənmişdi O!
Ərəb olmayanı,
ərəb olanı
Böyük həqiqətə
səsləmişdi O!
İslamın əbədi
qələbəsini
Canında, ruhunda
bəsləmişdi O!

Zəfər yollarına
qovuşmaq üçün
Fikrində çox yollar
qət eyləmişdi.
Məkkə şəhərini
fəth etməmişdən
Öncə könülləri
fəth eyləmişdi.
Bu günün eşqinə
ömrünü verib,
Bu günə çatmağı
əhd eyləmişdi.

Hər gün əllərini
açıb göylərə
Haqqın razılığı
olana qədər
Bu işə neçə yol
cəhd eyləmişdi.

Gedir, Peyğəmbərin
ordusu gedir,
Elə bil üstünə
səhra yeriyir.
Qırmızı dənizdi
axan elə bil,
Elə bil səhrada
dərya yeriyir.
Mələklər göz qoyur
qoşunun üstə,
Haqqın nəzəri var
başının üstə,
Onun arxasınca
dünya yeriyir.

Baxıb Allahına,
Peyğəmbərinə
İnam ordusudur
yeriyib gedən.
Açıq xəyalları
qanadlandıran,
Nurlu könüllərdə
işıq yandıran
İslam ordusudur
yeriyib gedən.
Dünyanı Allaha
təslim eyləyən
İmam ordusudur
yeriyib gedən.

Şəhər Məkkə, ay Ramazan,
Ramazının on üçü,
Peyğəmbərin qollarında
Haqqın, qüdrətin gücü.
Hər əsgərin ürəyində
ümid səsi Məhəmməd!
Yer üzündə bir qoşun var,
sərkərdəsi Məhəmməd!
Kafir müslüm olmalıdı,
başqa niyyət yoxdu, yox!
Peyğəmbərim olan yerdə
məğlubiyyət yoxdu, yox!
Bütün qoşun bir ağızdan
"Allahu-Əkbər!" deyir,
Tək olana, Əkbərinə,
Rəbbinə rəhbər deyir.
Allah! Allah! Bu qoşunda
şərəfə bax, şana bax,
Min illərlə söylənəcək
ölümsüz dastana bax!
Əmri verən Məhəmməddir,
bayraq tutan Əlidir,
Bu qüdrətin qarşısında
göy yerə çökməlidir,
Bu qüvvətin qarşısında
dağ dizə çökməlidir.
Bu gün sülhün meydanıdı,
bu gün barış günüdür,
Həqiqəti, təriqəti
bir axtarış günüdür.
Qoy özündən küssün bu gün
Haqq yolundan çıxanlar,
Yaradanın yazısıdı
bugünkü axın, qəza,
Möminlərə mükafat var,
kafirlərə sərt cəza!

Nə sandılar Peyğəmbəri,
nə sandılar sülhü, nə?
Onlar arxa çevirdilər
"Hübeydiyyə" sülhünə.

Həzrəti Məhəmmədin on minlik müzəffər orduyla Məkkəyə gəldiyini eşidən, Peyğəmbərə zaman-zaman haqsızlıq edən, onu zor gücünə Məkkədən çıxaran, onun qətlinə, ölümünə belə fərman verməkdən çəkinməyən Məkkə müşrikləri möhkəm təlaşa düşdülər. Qorxusundan dağlara, daşlara qaçanlar, ailələrini daldalarda gizlədənlər oldu. Peyğəmbər şəhərə daxil olan kimi, müşriklərin gözlədiyi işin tam əksi olan, tarixlərin yaddaşında əbədi qalan ədalətli bir iş gördü. Müşriklər savaş gözləyirdilər, həyat gördülər, işgəncə gözləyirdilər, əmin-amanlıq gördülər. Haramın halala, nifrətin sevgiyə, qaranlığın işığa döndüyünü gördülər. Peyğəmbər Məkkənin açarlarını Osman Təlhadan alıb, Kəbədə namaz qılıb, aman diləyənlərin hamısına aman verdi, azadlıq bəxş elədi. Günahkarların və günahsızların sayından asılı olmayaraq o, hamını bağışladı.

Peyğəmbərin bu əməlini görən Məkkə müşrikləri dönüb müsəlman olmuşdu. Hətta Həzrəti Peyğəmbər Uhud savaşında şəhid olmuş, "Şəhidlərin əfəndisi" dediyi əmisi Həzrəti Həmzənin qanını içən, ciyərini çıxaran, Əbu Süfyanın arvadı Hind adlı qadını da bağışlamışdı. "(Ya Rəsulum!) Quranı (oxumağı və təbliğ etməyi, yaxud hökmlərinə əməl etməyi) sənə vacib buyuran (Allah) qayıdacağın yerə (hicrət edərək çıxdığın Məkkəyə) səni yenə də qaytaracaqdır. De: "Rəbbim hidayətlə (doğru yolu göstərən rəhbərlə) gələni də (yaxud doğru yolda olanı da), haqq yoldan açıq-aşkar azanı da hamıdan) yaxşı tanıyır!" ("əl-Qəsəs" surəsi – 85) ayəsini xatırladı. Çatdığı müqəddəs arzuya görə dönə-dönə Allahına şükür elədi, fəth namazını qıldı.

Kəbənin qapıları

Ulu bir ziyarətin
yolunda zəvvar oldu,
Hər addımın başında
Allah ona yar oldu.
Dünyaya təzə gəldi,
o doğulub var oldu,
Vicdanı sudan duru,
ürəyi Aydan arı,
Açıldı Peyğəmbərə
Kəbənin qapıları!

Sanki quru səhralar
yumşaldı, məxmər oldu,
Göz gördü bu hikməti,
ürəyə xəbər oldu.
Dilinin şah nidası
"Allahu-Əkbər!" oldu,
Fikri, hissi, xəyalı
dağların dümağ qarı,
Açıldı nur üzünə
Kəbənin qapıları!

İllərlə güc gəzirdi
bu qapını açmağa,
Bu məbədin nurunu
ürəyinə saçmağa.
Allah verdi fürsəti
qanadlanıb uçmağa,
Saf arzunun, diləyin
yetişdi şirin barı,
Açıldı Peyğəmbərə
Kəbənin qapıları!

Burda iki tərəf yox,
hamı bir tərəf oldu,
Durna qatarı kimi
möminlər səf-səf oldu.
Ehram libası geymək
ən böyük şərəf oldu,
Yeridi ağ dalğalar
üzü qibləyə sarı,
Açıldı nur üzünə
Kəbənin qapıları!

Ağrıların dərmanı,
dərdlərin əlacıymış,
Gözün, qəlbin istəyi,
ruhun ehtiyacıymış.
Görüşlərin, yolların,
səfərlərin tacıymış,
İnsanın, insanlığın
qədim sirdaşı, yarı,
Açıldı Peyğəmbərə
Kəbənin qapıları!

Beləliklə, islam tarixinin ən böyük, ən şərəfli hadisələrindən biri olan "Məkkənin fəthi" tarixin yaddaşına köçdü. Dünyada islamın böyük qələbələrinin əsası, sağlam bünövrəsi qoyuldu. Bu hadisə uca Peyğəmbərimizin şəxsiyyət kimi də nə qədər böyük ürək və dərin ağıl, inanılmaz güc sahibi olduğunu bir daha dünyaya göstərdi.

O günü müsəlman olan Məkkə müşrikləri Peyğəmbərin qılıncından daha çox ağlı, sevgisi, məhəbbəti, şəfqəti qarşısında təslim olub, baş əydilər. Allahın şəninə dua üçün əllər göyə qalxdı.

O gün yer də, göy də, dağ da, daş da, Kainatda bütün canlı varlıqlar da Peyğəmbərimizə dualar oxuyur, zəvvarlar "Allaha şükür!" nidaları ilə bir-birini salamlayırdılar.

Ulu Tanrı, qadir Allah
ona bir səltənət verdi,
Gözün aydın, ulu Məkkə,
gəldi Rəsulullahımız.
Yamanlığı yaxşılıqla
tərki-silah edən kişi
Oldu bizim qüdrətimiz,
səngərimiz, silahımız.

Dünya gördü ədaləti,
gördü kimdi adil olan,
Əfv eylədi, aman verdi,
bağışlandı günahımız.
Sərt ürəklər yumşalanda,
pirləşəndə gözəl olur,
Könüllərdə Allah nuru
yerləşəndə gözəl olur,
İlqar-iman, əhdi-peyman
birləşəndə gözəl olur,
İslamdadı ümidimiz,
Tanrıdadı pənahımız.
Qoca dünya öz yükünü
yavaş-yavaş çəkər gedər,
Cəhalətin sarayları
kərpic-kərpic çökər gedər,
Tac paslanar, taxt yıxılar,
şah devrilər, nökər gedər,
Yaradana qul olanda
şahlıq olar dərgahımız.

ÖLÜMÜN DƏ GÖZƏL OLDU HƏYATIN KİMİ

(Ya Peyğəmbər! Oğlun Qasim, yaxud İbrahim vəfat etdiyi zaman sənə sonsuz, arxası kəsik, nəsli kəsilmiş deyən) sənin düşməninin (As ibn Vailin) özü sonsuzdur! (Sənin nəslin qiyamətə qədər törəyib artacaq, adına isə həmişə rəhmət oxunacaqdır!)

("əl-Kövsər" surəsi, 3-cü ayə)

Peyğəmbərlərin və şəhidlərin cəsədi torpaqda çürüməz.

("Hədisi-Şərif")

Dünya yaslı-toyludu,
ağlayıb-gülmək üçün,
Gələn getmək üçündür,
doğulan ölmək üçün.
Min ömür də bəs etməz
Adəm övladlarına
Axirəti tanıyıb,
dünyanı bilmək üçün, –
Gur çaylar gör nə qədər
dərədən-dağdan keçir,
Dəryaların qoynuna
axıb tökülmək üçün.

Xəstədir Peyğəmbərim!
Hamı bir-bir can atır
ona yovuşmaq üçün.
Hərə bir dərman gəzir
fikrində, xəyalında,
Peyğəmbərin canından
ağrı sovuşmaq üçün.

Yazı belə yazılıb,
başa çatır vaxt-vədə,
Canda hazırlıq gedir
Haqqa qovuşmaq üçün.

İnsan adlı ulu varlıq
ruh bədənə köçən günü
Həyat adlı bir işığa,
bir nəfəsə doğru gedir.
Cavanlığın səs-küyü var,
qocalığın sakitliyi,
Bəmdən qalxır zilə doğru,
zildən pəsə doğru gedir.

Vurğunluğu, heyranlığı
dağda qalır, daşda qalır,
Baxışları ölənədək
gözdə qalır, qaşda qalır.
Əli Haqqın ətəyində,
gözü uçan quşda qalır,
Ömrün-günün sorağında
səsdən-səsə doğru gedir.

Bu dünyada qəm nə gəzir,
ən dəhşətli qəm ordadı,
Qana dönən göz yaşları,
can çürüdən nəm ordadı,
Gül qoxuyan, alov saçan
cənnət, cəhənnəm ordadı,
İnsan oğlu ilk nəfəsdən
son nəfəsə doğru gedir.

Gah sükutda göndərir,
gah da səsdə çatdırır,
Allah öz fərmanını
son nəfəsdə çatdırır.

Borcunu vermək üçün
Peyğəmbərin yolunda
İki mələk dayanıb –
sağında və solunda.
Biri vəhy mələyidi,
onun dostu, həmdəmi,
İyirmi üç il boyu
Onunla bir daşıyıb
həm sevinci, həm qəmi.
Biri əcəl mələyi –
Gəlib Haqqın əmrini
yerinə yetirməyə,
Ağrını candan alıb,
əzabı bitirməyə.
Hara gedirsənsə get,
burda dayanmalısan,
Ölüm adlı atəşin
oduna yanmalısan.
Hansı evə gəldisə,
salar matəmi, yası,
Əzrayıl öz işinin
ustasıdır, ustası.
Yüz iyirmi dörd mindisə
dünyanın peyğəmbəri,
Demək, elə bu qədər
Peyğəmbər ömrü kəsib
Əzrayılın xəncəri!
Gəldi əcəl mələyi
Peyğəmbərin ruhunu
bədəndən almaq üçün,
Ölümü hər bir kəsin
yadına salmaq üçün.
Bu dəmdə Peyğəmbərin
gözünün ağ-qarası,
Tək qızı, tək övladı,
ciyərinin parası,

Altı qardaş-bacının
dünyada tək qalanı,
Buludlu göylər kimi
boşalanı, dolanı,
Fatimeyi-Zəhramız
"Vay mənim babam" deyib,
yaş töküb ağlayırdı,
Hıçqırığı, naləsi
Qayalara, dağlara
dağ çəkib dağlayırdı.
Peyğəmbər övladına –
"Ağlama, mənim balam,
sən ağlama, dur!" – dedi,
Peyğəmbərin ruhunu
canından çıxarmağa
Əzrayıl izn istədi,
Peyğəmbər "Buyur!" – dedi.
Allah əmri veribsə,
yetməlidir yerinə,
Heç zaman ara vermir
dünya xeyir-şərinə.
Heç kəs qarışa bilməz
Yaradanın işinə,
Getdisə, salavat çək
gedənin gedişinə.
Ölüm Allah işidi,
o gəldisə, haqdı bu,
Onunku ölmək deyil,
Haqqa ucalmaqdı bu.
Allah kəlamı üçün
yenə qulağı səsdə,
Quranı xatırladı
yenə axır nəfəsdə.
Bizə tapşırdı getdi
imanı, müsəlmanı,

Bizə tapşırdı getdi,
əhli-beyti, Quranı.
Bizə tapşırdı getdi
pak yolunu, sünnəti,
Yaradana sevgini,
yaranmışa hörməti.
Nə dilində şikayət,
nə qəlbində ah oldu,
Peyğəmbərin son dəfə
dodağından çıxan söz
Yenə Qadiri-Qüdrət,
yenə də Allah oldu.
Allahın səcdəsinə
o qədər əyildi ki,
İslama, müsəlmana
özü səcdəgah oldu.
Gördü uca dostunu,
Rəfiqi-Əlasını,
Beləcə tamamladı
dünyada dünyasını,
Tapdı, islamda tapdı
həyatın mənasını.
O bir işıqlı gündə
göz açmışdı dünyaya,
Bir bazar ertəsində
köçüb getdi dünyadan.
İmanın kamilini,
qismətin halalını,
Əxlaqın ucasını
seçib getdi dünyadan.
Mələk kimi gəlmişdi
mələklərin yoldaşı,
Elə mələk kimi də
köçüb getdi dünyadan.

Çox odlarda yanıb, bişib
insan övladı,
Heç nə onu yandırmadı
vəfatın kimi.
"Canım sənə fəda olsun,
ya Rəsulullah,
Ölümün də gözəl oldu,
həyatın kimi!" –
Axıb gedən göz yaşları
sözünə baxmır,
Bu sözləri yana-yana
deyən Əliydi.
Bu dünyada əzizini
itirən kişi,
Peyğəmbərin cəsədini
yuyan Əliydi.
Körpəlikdən bu günədək
ömrünü verib,
Onun bütün varlığını
duyan Əliydi.
Kəfənlənib Haqq yerinə
qoyulanda da,
Yenə ona sirdaş Əli,
həyan Əliydi.
Ana torpaq Peyğəmbəri
aldı qoynuna,
Şərəfləndi Mədinədə
qazılan məzar.
O zamandan bu zamana
ziyarət oldu,
Tarixlərin yaddaşına
yazılan məzar!
Göy qübbəsi, yer türbəsi,
dağ məqbərəsi,
Ay da, gün də gecə-gündüz
keşiyindədir.

Varlığı da, məzarı da,
məhəbbəti də
Yerdə deyil, mələklərin
beşiyindədir.
Yer üzündə ikinci bir
məzar göstərin,
Bir bu qədər zəvvar gəlsin,
ziyarət olsun.
Yatdığı yer ruhu çəksin
dərinliklərə,
Sevgisində bir bu qədər
əzəmət olsun!
Elm özü də bu məzarı
ziyarətdədir,
Məscid burda, məktəb burda,
mədrəsə burda.
Zəvvarlardı qanadlanan
göyərçin kimi,
Mələklərdi hər gün verən
səs-səsə burda.
Sevən bilir sevilənin
böyüklüyünü,
Sevən bilir taleyinə
gün hardan doğur.
Bəxt günəşi, Tanrı nuru,
Allah işığı
Peyğəmbərin uyuduğu
məzardan doğur!!!

ŞAİRİN ZİYARƏTİ

Peyğəmbərin vida həccindən min üç yüz altmış üç il sonra Zəlimxanın həcc ziyarəti

Yaradanın məhəbbəti,
Peyğəmbərin eşqi ilə
Mən də gəldim Haqq evinə,
nur evinə ibadətə.
Mən də gəldim Peyğəmbərin
əli dəyən
Kəbə adlı ən müqəddəs
ziyarətə.
Necə keçdi ziyarətim,
qoy onu bir Xuda bilsin,
Bir canım var, qadir Allah,
onu haqqa fəda bilsin.
Kəbə mənim qəlbimdədir,
mən ondayam, o məndədi,
Heç olarmı şair könlüm
canı candan cüda bilsin.
Allah evi bir dənizdir,
mən də onun damlasıyam,
Ev sahibi bu dəryada
məni də bir ada bilsin.
Ulu Tanrım, ver fürsəti
Məhəmmədin ümmətinə,
Mən daddığım bu neməti
bütün dünya dada bilsin.
Tanrım ilə vəhdətdəyəm,
Allah ilə söhbətdəyəm,
Haqqı bilən – hər sözümü
Haqdan gələn səda bilsin.
Əgər bir gün unudarsa,
Peyğəmbərim yatan yeri,
Ulu Tanrı Zəlimxanı
xan bilməsin, gəda bilsin.

ONUN ÜZÜ HÖRMƏTİNƏ!

Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz (üz tutsanız), Allah oradadır. Şübhəsiz, Allah (öz mərhəməti ilə) genişdir, (O hər şeyi) biləndir!
("əl-Bəqərə" surəsi, 115-ci ayə)

Cadar olmuş torpaqlara
su göndərər dərman üçün,
Bulud dolar, yağış yağar –
Onun üzü hörmətinə!
Dan yerinə nur çilənər,
İnsan-mələk salamlaşar,
Üfüqlərdən Günəş doğar –
Onun üzü hörmətinə!
Tanrı ağıl, kamal verib,
huşu başda cəm yaradıb,
Bir tərəfdə sevinc durur,
bir tərəfdə qəm yaradıb,
On səkkiz min aləm üçün
nə böyük aləm yaradıb, –
Onun üzü hörmətinə!

Üz-üzədir insan oğlu
qəmlər ilə, ahlar ilə,
Sevinc ilə qucaqlaşar
hər gələn sabahlar ilə,
Qoca dünya coşub-daşar
əsl xeyirxahlar ilə, –
Onun üzü hörmətinə!

Yol dağılmaz, yolçu çaşmaz,
körpü uçmaz məhşərədək,

Yollar, izlər işıqlanar –
Onun üzü hörmətinə!

Yeddi qatdan yetmiş qata
sevər, duyar Kainatı,
Sevən gözlər işıqlanar –
Onun üzü hörmətinə!

Təmizlənər günah, tamah,
səndə qalmaz, məndə qalmaz,
Haqqa iman gətirməyən
yer üzündə bəndə qalmaz!
Ağ zirvələr aydınlaşar,
dağ dumanda, çəndə qalmaz, –
Çöllər, düzlər işıqlanar
Onun üzü hörmətinə!

Haqq yolunda uca durar
ərən sözü, ər nidası,
Yoxa çıxar yer üzündən,
şər söhbəti, şər nidası,
Bütün ərzə hakim olar
"Allahu-Əkbər!" nidası, –
Onun üzü hörmətinə!

Yerin nuru, göyün nuru
bir-birinə qarışacaq,
Bu sehrdən eşqə düşüb,
Ay Günəşlə yarışacaq,
Kin gedəcək, nəfs öləcək,
küsülülər barışacaq, –
Onun üzü hörmətinə!

İslam adlı bir ağacın
kökü min budaq olacaq,

Qoru közə çevriləcək,
çınqısı ocaq olacaq,
"Allahu-Əkbər!" deməyən
nə dil, nə dodaq olacaq, –
Onun üzü hörmətinə!

Haqq yolunu yolsuzlara
dönə-dönə qandıracaq,
Kafirləri başa salıb,
müşrikləri qandıracaq,
Çox oğullar ürəklərdə
din işığı yandıracaq, –
Onun üzü hörmətinə!

İnsan oğlu sevə-sevə
bir-birinə ərk edəcək,
Nəfsi, kini, küdurəti
birdəfəlik tərk edəcək,
İslamdakı, imandakı
çox sirləri dərk edəcək, –
Onun üzü hörmətinə!

Neçə-neçə ağlagəlməz
dəfinələr tapılacaq,
Nə gizlinlər açılacaq,
hələ nələr tapılacaq,
Dünya – sandıq, Quran – açar,
xəzinələr tapılacaq, –
Onun üzü hörmətinə!

İlqar-iman çaylarının
suyu daim gur gələcək,
Allah eşqi könüllərə
coşqun axıb, kür gələcək,

Kar qulaqlar açılacaq,
kor gözlərə nur gələcək, –
Onun üzü hörmətinə!

Bu ədəb-irfan yoluna
hər kəs arzu-kam deyəcək,
Bu sevgidən atəş alıb,
ürəyinə can deyəcək,
Möhrü Quranla basılan
son sözü islam deyəcək, –
Onun üzü hörmətinə!!!

EY İNSANLAR! RƏBBİNİZ BİRDİR. ATANIZ da BİRDİR. HAMINIZ ADƏMİN ÖVLADLARISINIZ

(Hz. Məhəmmədin vida xütbəsindən)

Ey dünyanın, gələcəyin
gəncliyi,
Gələcəyə dinsiz getmə,
dinli get!
İtib-batma səssizliyin
içində,
Sabahlara sədalı get,
ünlü get.

Dərd əlində ömür gedər
hədərə,
Qələbə çal, məğlub olma
kədərə,
Salam söylə hər açılan
səhərə,
Dan yerinə günəşli get,
günlü get!

Şübhələri yaxın qoyma
özünə,
Qat inamı əqidənin
gözünə.
Quran elmi bir tükənməz
xəzinə,
O xəznədən sünbül götür,
dənli get!

Küfrə varsan, kimsə
sənə yovuşmaz,
Ağrıyarsan, qada
candan sovuşmaz.
Yönsüz olsan, ruhun
Haqqa qovuşmaz,
Haqqa doğru qibləli get,
yönlü get,
Sabahlara sədalı get,
ünlü get!

Ey dünyanın gəncliyi,
Rəva bilmə özünə
rahatlığı, dincliyi!
İman ilə işıqlan,
Allahla yaraşıqlan.
Xilaskar imanı tap,
Mənasını bil, öyrən,
imandakı canı tap!
Yolsuzlara yol sən ol,
dilsizlərə dil sən ol,
Kamil olsun imanın,
imanı kamil sən ol!
İslamı sağlam, təmiz,
bütöv görməyi bacar,
Onun uca şəninə
çələng hörməyi bacar.
Harda qara yel əssə
dinimizin üstünə,
Orda hər fəlakətə
sinə gərməyi bacar.
Diqqət yetir bu uca,
bu müqəddəs niyyətə,
Quran elmə çağırır,
islam mədəniyyətə!

Dağdan ağır olsa da,
çiynini ver yükünə,
Hər sözün, hər ayənin
kökünə get, kökünə!
Gəncliyin vəzifəsi
Dildə, dində, şüurda,
fikirdə axtarışdı,
Sınaq meydanlarında
imtahandı, yarışdı,
Haqqa doğru gedişdi,
Yaradana varışdı,
Biləcəksən bu dinlə
Allahın buyurduğu
savaş deyil, barışdı.
Böyük müqəddəsliyi
dərk eyləsən dərindən,
Şirə çəksən islamın
canından, cövhərindən,
Biləcəksən bu dinin
ən böyük məramını,
Özün yandıracaqsan
arzuların şamını.
Əriyəcək zülmətin
bağrını yara-yara,
O şam işıq salacaq
bütün qaranlıqlara!
Lap aydın görəcəksən
Quranın işığında
Onun böyük dünyaya
böyük məhəbbətini,
Həqiqətin elmini,
elmin həqiqətini!
Bu, yaxşılıq dinidir,
olmaz yamanlıq dini,
Sevgi, mərhəmət, barış,
əmin-amanlıq dini.

Yer vermir kitabında
nə şeytana, nə şərə,
Bu dinin hörməti var
bütün peyğəmbərlərə!
Hörmət ilə yad edir
çəkilən əzabları,
Rəğbətlə xatırlayır
səmavi kitabları.
Məhəbbətin dilində
danışdırır dinləri,
Hər kitaba can verir
müqəddəs ayinləri.
Bu din insan sevgisi,
bu din bəşər dinidir,
Fəlakətə çağırmır,
səadətə çağırır,
Terrora, təxribata,
qana, sui-qəsdə yox,
Paklığa, təmizliyə,
mərhəmətə çağırır.
Doğru danış, düz dolan,
halal yaşa, haqqa gəl,
Budur hökmü, qərarı,
İnsanı, insanlığı
bu adətə çağırır:
İslam – təmiz ailə,
sağlam qadın, sağlam ər,
Nəfsi, tamahı yenən,
yenilməyən bir hünər.
Canı təmizlik olan,
ətir dolu bir həyat,
Saflıqdan mayalanmış
hüdudsuz bir Kainat.
Ey dünyanın gəncliyi!

Bu dinin cövhərinə,
dürrünə, gövhərinə
vurulmamaq olarmı?
Bulaq kimi saf olan,
su kimi şəffaf olan
Bu aləmə baxanda
Daha da gözəlləşib
durulmamaq olarmı?
Ata-ana sevgisi,
qardaş-bacı sevgisi,
Oğul-uşaq sevgisi,
Köklərdən qidalanmış
Gövdə-budaq sevgisi,
budaq-yarpaq sevgisi,
Qədimlərdən qədimdir,
əzəllərdən əzəldir,
Bir-birindən işıqlı,
bir-birindən gözəldir,
Sevənin, sevilənin
sayı min-min olsa da,
Hər din sevgiyə dönüb,
sevgilər din olsa da,
Allaha sevgi durur
hər sevginin başında,
Birinci o canlanır
insanın yaddaşında.
Mən bu dini sevirəm,
dinimin adı sevgi,
Səsimin, nəfəsimin,
ünümün adı sevgi.
Canın, nəfəsin qədər,
eşqin, həvəsin qədər,
Duadakı pıçıltın,
gurlayan səsin qədər,
Sən də tapın, sən də sev

İslamdakı cövhəri,
Qurandakı incini,
Nə dağa düş, nə daşa,
Onda tap ümidini,
onda tap sevincini!
Sən orda sonsuz uçuş,
sınmaz qanad görərsən,
Allaha, Peyğəmbərə,
insana, insanlığa,
Sevgisi sonsuz olan
qaynar həyat görərsən.
Bütün dinlərə hörmət
əbədi borcun olsun,
Kəbə dağılmaz qalan,
alınmaz bürcün olsun!!!

PIÇILTI XƏLVƏTİN İNTİBAHIDIR

(Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin
ən böyük kərəm sahibidir!
("əl-Əlaq" surəsi, 3-cü ayə)

Hər yerdə dəniztək
qaynayır həyat,
Bahar təbiətin
intibahıdır.
Arı şirə çəkir,
gül şərbət verir,
Çiçək məhəbbətin
intibahıdır.

Halal zəhmət eşqi,
müqəddəs əmək
Ruhlara qidadı,
ruhlara yemək.
Göylərdən yardım var,
Allahdan kömək,
Ucalmaq sənətin
intibahıdır.

Surədi dodaqda,
ayədi dildə,
Naxışdı çiçəkdə,
sığaldı güldə.
Quran tamamlandı
iyirmi üç ildə,
Pıçıltı xəlvətin
intibahıdır.

Göylərin yerlərə
enən səsidir,
Qiyamətə qədər
eşqin bəsidir,
Quran – Yaradanın
möcüzəsidir,
İslam – cəsarətin
intibahıdır.

Ruhun qanadı var,
qəlbin köşkü var,
Coşan duyğuların
canda məşqi var,
İnsanın bu qədər
sönməz eşqi var,
Allaha rəğbətin
intibahıdır.

Qoca bəşəriyyətə
Dünyanın cavan dini
islam gör nələr verib,
Kainatın açılmaz
sirləri çox olsa da,
Hamısına baş vurub,
hər şeydən xəbər verib.
Qeybdən xəbərləri
insanlara çatdıran,
Ululların ulusu
uca peyğəmbər verib.
Tarixdən beş kəlməni
yadda saxlamaq olmur,
Hafizi-Quranlara
Quranı əzbər verib.
"Qələm"[44] ilə güldürüb
alimlərin bəxtini,

Merac ucalığında
qurub elmin taxtını,
Haqdan mayalandırıb
eşqi, ilhamı, təbi,
Şəhid qanından uca
Müqəddəslik qazanıb
alimin mürəkkəbi.
Alim əsir düşsə də,
onu əsir almayıb,
İslamın bir kərpici
elmsiz ucalmayıb.
Onun dini elm olub,
onun elmi din olub,
Fikrin barı, bəhrəsi
artıb, birə-min olub.
Allahın özündə gəz,
Tanrıda tap, dində gör,
İslamın qüdrətini
İslamın yaratdığı
mübarək elmində gör.
Həmi millətim dedi,
həm ümmətim söylədi,
Tək olana mütləqim,
həqiqətim söylədi.
Yox dedi müşrikliyə,
yox dedi kafirliyə,
Çağırdı, dəvət etdi
insanları birliyə.
Fikrin sultanlığını
bir görün kimə verdi,
Nə krala, nə şaha,
nə də sultana verdi,
Ən uca mərtəbəni
uca alimə verdi.
İntibah deyiləndə

"Bismillah"dan güc alan
bir insanı xatırla!
Təzə hava, təzə ruh,
təzə həvəs gətirən,
Mələklər qanadında
yerə nəfəs gətirən,
Bəşərin xidmətinə
şərəflə, şanla gələn,
Müqəddəs bir kitabla,
uca Quranla gələn,
Tarixi unudulmaz
xoş bir anı xatırla.
"Oxu!" dedirdənə bax,
gör nə gözəl oxutdu,
Elmə qol-qanad verən
bir fərmanı xatırla!
Bir dinin qəlbindəki
bir dünyalıq eşqə bax!
Oyanan bir dünyanı
canlı görmək istəsən,
Bağdadı, Hələbi gəz,
o qədim Dəməşqə bax!
Marağada qurulan
qədim bir rəsədxana
Alimi, üləmanı
cana gətirdi, cana.
Zəngin kitabxanalar
varaqlanır birbəbir,
Alimlər arasında
yarışa bax, məşqə bax!
Məkkədə, Mədinədə,
Nəcəfdə, Kərbəlada
Ürək Haqqın yanında,
fikir ərşi-əlada.

Çiçək kimi açılır
gözəl Yəməndə islam,
Gül kimi pardaqlanır
qədim Misirdə islam.
Məktəblər, mədrəsələr
açıldıqca dalbadal
Göstərir öz gücünü
hikmətdə, sirdə islam.
Sağlam özüllər üstə
qurdu uca binanı,
Bu gün dünya oxuyur
böyük İbn Sinanı.

Fikrin zəlzələsiydi
Əbu Reyhan Biruni,
Kim açıb, kim öyrənib
onun mində birini!!!
Rəhmətlə anır bəşər
bu gün əl-Fərabini,
Hörmətlə xatırlayır
Cabir ibn Həyyanı.
Tək qılıncın gücünə
uzun ömr eyləməzdi,
İslama tükənməyən
bir güc verdi Yaradan,
Elmin fatehləriylə
fəth eylədi dünyanı!
Eşqin gözləriylə bax,
xatırla xoş əyyamı,
Şeirə ürək yaratdı,
Elmə dirək yaratdı
Allah Ömər Xəyyamı!
Yarıyolda qoymadı,
onu Allah eşitdi,
Sübh namazı üstündə
oxunan duaları

Ayla gün salamladı,
aydın sabah eşitdi.
"Beşikdən qəbrə qədər
elm öyrənin!" deyəndə
Peyğəmbərin səsini
bir oyanış, dirçəliş,
bir intibah eşitdi.
İslamın qüdrətiylə
eşqini yaya-yaya
İsgəndəri yenidən
bəxş eylədi dünyaya!
Gəncəli Nizaminin
sehrlənmiş qələmi,
"Xəmsə" bu dünya üçün
ayrıca intibahdı,
İdrak onun gücünə
dərk elədi aləmi.
"Qüvvət elmdədir,
elmsiz heç kəs,
Heç kəsə üstünlük
eyləyə bilməz!" –
Bu şah beyti dərk eylə!
Tapacaqsan şairi
peyğəmbərə bağlayan
ən müqəddəs bağları,
Tapacaqsan o zaman
Min-min əsri, zamanı,
Bir-birinə bağlayan
körpüləri, tağları.
Bu böyük intibahda,
Elmin gur işığıyla
açılan hər sabahda
Mənim də millətimin
öz payı, xidməti var,
Tarixlərə həkk olan

Uca elmi, alimi,
uca həqiqəti var.
Bakıda, Naxçıvanda,
Şirvanda, İrəvanda,
Təbrizdə, Marağada
Yetişən dahiləri
bir-bir gətirsək yada,
İkinci bir dünyanı
taparıq bu dünyada.
Səfiəddin Urməvi
dil verirdi simlərə,
Səslə açar tapırdı
açılmaz tilsimlərə!
Əbdülqadir Marağı
"Cəmaül-Əlhan"ıyla
Musiqi dünyasına
təzə nizam verirdi
nəfəsiylə, canıyla.
Canı naxışa verdi,
nəqşi canda yaratdı,
Əcəmi intibahı
Naxçıvanda yaratdı.
Təbriz minatürləri
dil olub danışanda
Ona ürək, can verən
Sultan Məhəmməd oldu,
Adı Məhəmməd olan
sənətə məbəd oldu.
Dəməşqi, Qahirəni,
İstanbulu görəndə,
Məscidin, minarənin
əlvan naxışlarını
çiçək kimi hörəndə,
Pakistan məbədləri
İslamın bu dünyaya
gücünü göstərəndə,

Avropanın içində –
Əndəlüs torpağında
İlahi memarlığı
yoğuranda, yapanda,
Avropa öz gücünü
İlahi dəyərlərin
cövhərində tapanda,
Bir qədim əlifbanı
On iki cür xətt ilə
yazıb naxışlayanda,
Xəttatlığı yaradıb
Allahın vergisitək
xalqa bağışlayanda,
Naxışlar vura-vura
dönüb nəqqaş olanda,
Sənət möcüzələri
hər yerdə baş olanda,
Heyrətə gətirəndə
bütün bəşəriyyəti
Sirli əlyazmaları,
qızıldodaq butalar,
Qədim incəsənəti
Allahın eşqi ilə
yaradanda atalar,
Ulduzların elmini
yerlərə endirəndə,
Riyazi elmləri
Əl-Cəbrin qüdrətiylə,
ağlıyla dindirəndə,
Fəlsəfi məktəbləri,
ən böyük tələbləri,
ən uca mətləbləri
kitab kimi açanda,
İslam öz varlığını
İnsanın üzərinə
işıq kimi saçanda,

Allahını, özünü
bir vəhdətdə görəndə,
Allahın qüdrətini
təbiətdə görəndə,
Bütövləri kəşf edib,
zərrələri duyanda,
Allahın varlığını
insanda oxuyanda,
İslamla işıqlanır,
inamdan güc alırdı,
İslama tapınanlar
Tanrıya ucalırdı.
Gör nə qədər xəzinə,
nə qədər var yaratdı,
Yerdə, göydə, həyatda,
Hüdudsuz Kainatda
Nə qədər yenilik var,
Sidq-dildən islama
tapınanlar yaratdı!
Bu qüdrət silkələdi
Avropada Höteni,
"Qərb-Şərq divanı" verdi
böyük bəşəriyyətə
Bethovenin vətəni.
Bu qüdrət silkələdi
Rus nəsrinin ilahı
qraf Lev Tolstoyu;
İslama heyran oldu,
İslamdan qidalandı
ömrü, həyatı boyu!
Bu qüdrət silkələdi
Döyüşlər əfsanəsi
fransız Napoleonu,
Həzrəti Məhəmmədin
ağlı, gücü, hünəri
heyrətə saldı onu!

Puşkinin Quran üstə
yazdığı şeirlərin
Yeri ucadan-uca,
eşqi göylərdən dərin.
Dərindən dərk edəndə
Yaradanın gücünü,
Peyğəmbərin mehrini
Bu qüdrət silkələdi
Cəvahirlərl Nehrunu!
Onun böyüklüyünü
etiraf eylədilər,
Bu oyanış, dirçəliş
Səcdəsinə gətirdi
neçə-neçə dahini.
Tanrıya ucalanlar
dərk edə bilər ancaq
Tanrını, İlahini!!!
Bizim intibahımız
"Oxu!" hökmünü verən
bir xəbərdən gəlirdi,
Allahdan, Cəbrayıldan,
Peyğəmbərdən gəlirdi.
Beləcə yaranırdı
islamın intibahı,
Əqidənin, məsləkin,
inamın intibahı!
Gələcək əsrlərə
ərməğan göndərirdi
Vəhyin, elmin, sevginin
ilhamın intibahı!!!

TÜRK VƏ İSLAM

Türk islamın dayağıdır,
islam türkün bayrağı!
Zəlimxan Yaqub

Ey tək olan Allahım!
Dünyanı bizdən ötrü
bir tamaşa yaratdın,
Nə varsa cüt eylədin,
nə var qoşa yaratdın.
Ulduzları bələdçi,
nuru mayak yaratdın,
Əlyetişməz göylərə
yeri dayaq yaratdın.
İşıqlandı zirvələr
üfüqləri öpəndə,
Bulud göyə güvəndi
yağışını səpəndə.
Düz düzə arxalandı,
dağlar dağa güvəndi,
Nə ki yaradılan var
bu torpağa güvəndi.
Heç nə yaşaya bilməz
sağı-solu olmasa,
Heç nə var ola bilməz
Haqqa yolu olmasa.
Arxa nədir, dayaq nə,
nişan verdi bizlərə,
Çeşmələr arxalandı
çaylara, dənizlərə.
Nə ki səhrada qum var,

Nə ki suda balıq var,
Hamısı gözəl bilir
Bütün yaradılmışı
yaradan bir Xaliq var!
İmansız millət olmaz,
Allahsız bir məmləkət,
Dindən-imandan gəlir
hər şeyə bar-bərəkət.
Bu fikrə zərrə qədər
nə şübhə, nə güman var,
Harda Allah eşqi var,
orda din var, iman var.
Tariximə baxsalar,
ululardan uluyam,
Tanrıya sevgilərlə,
dualarla doluyam.
Xəlq olunandan bəşər,
Çarpışandan haqla şər,
Haqdan cücərib bitən
Türkün oğlu mənəm, mən!

Hələ ilk yaranışdan,
Haqq uğrunda yarışdan
Nə can doydu, nə də tən,
Yer-göy mənə bir Vətən,
Türkün oğlu mənəm, mən!

Burda zamanı saxla,
tarixləri varaqla,
Bax: min üstə minim var,
Adəm gəldiyi gündən
mənim sevgi dinim var.
Sevgi, məhəbbət dini,
işıq, mərhəmət dini!
Yolum islam yoludur,
dinim Məhəmməd dini!

Haqqın vuran ürəyi,
eşqi, ağlı mənəm, mən.
Saçından dırnağına
Yaradana – Allaha – Haqqa
bağlı mənəm, mən!

Bir güllə yaz açılmaz,
gülüstan olmaq gərək,
Bir sözlə dil açılmaz,
bir dastan olmaq gərək.
Göytürklər, ağüzlülər
Haqqı dərkə güvəndi,
Türk islama tapındı,
islam türkə güvəndi.
Bir-bir xatırlayıram
hər milləti, hər soyu,
Burda yada salıram
Məhmət Akif Ərsoyu:
"Türk ərəbsiz yaşamaz,
kimsə yaşar der, dəlidir,
Türk ərəbin sağ gözü,
həm sağ əlidir!"
Mən bu gün sağ gözümdən,
sağ əlimdən yazıram,
Doğru olan, haqq olan
əməlimdən yazıram.
Təzə həyat gələndə
ömrünə, həyatına,
Peyğəmbər ucalanda
göyün yeddi qatına
Cana nəfəs verdilər,
nəfəsə can verdilər,
Türk islam ordusunu
merac mərtəbəsində
ona nişan verdilər[45]!

Məhəbbətlə, həvəslə
boylandı yerə sarı,
Gördü ağ atlılar var,
Yeldən qanadlılar var,
Tutub bütün düzləri,
tutub bütün yolları,
Soruşdu Cəbrayıldan:
"Kimlərdi at çapanlar?"
"Türk-islam ordusudur,
Ya Həzrəti Məhəmməd!
Sabah onlar olacaq
Sənin arzularını
Qeyrət ilə yoğurub,
qüdrət ilə yapanlar!
Sabah onlar olacaq
İslamın varlığına
əriyənlər, hopanlar!
Sabah onlar olacaq
Sənin eşqinlə bağlı
xoşbəxtliyi tapanlar!"
Yetişdi Peyğəmbərə
Cəbrayılın cavabı.
Cəbrayılın sözüylə
Ərş üzündə açıldı
Türkün qızıl kitabı!

Peyğəmbərim buyurdu:
"Türk dilini öyrənin[46]!
Yeri, göyü, varlığı
dərk dilini öyrənin!
Sevgi, barış dilini,
ərk dilini öyrənin!"
O, bu dildə dininin
sabahını görürdü,
Tükənməz ümidini,
pənahını görürdü.

O bilirdi nə deməkdi
türkün kəskin qılıncı,
Din yolunda şəhidlikdə,
din yolunda savaşda
Türkün sınmaz vüqarını,
silahını görürdü.
Yox, qılıncın gücünə
müsəlman olmadılar,
İlk dəfə ana kimi
qucaq açdı islama
yurdun şanlı türkləri!
Buğra xanın yuxusu
çevrildi həqiqətə,
Qaldırdı bayrağını
Qaraxanlı türkləri!
Düşmən uydurmasıdı
"Qılınc müsəlmanlığı!"
Ruhundaydı türklərin
islam qəhrəmanlığı.
Türkün tək Tanrısıyla
ərəbin tək Allahı
Mətləbdə, mahiyyətdə
eyniyyətdir, eynidir.
İslam türkün ürəyi,
türk islamın beynidir!
Bağlandı Peyğəmbərə
Ən möhtəşəm millətin
qəlbi, ürəyi, canı,
Səhər yerdən duranda
Müsəlman kimi durdu
Türkün şanlı xaqanı!
Peyğəmbərin şəninə
Balasaqunlu Yusif
yazdı ilk türk şeirini,
Yəsəvi Əhmədinin
yaratdığı "Divan"da

Tapdı islam da, türk də
öz müqəddəs yerini!
Qaşqarlı Mahmudumun
"Türk lüğəti divanı"
Türkün Haqqa qovuşan,
Peyğəmbərə yetişən
ən uca nərdivanı!
O vaxtdan bu zamana
Türk islamın yolunda
oxu qoydu kamana,
Aşdı aşılmaz olan
divarları, sədləri,
Türkün də, islamın da
böyüdü sərhədləri!
Səsin mənzili uca,
sözün dəryası dərin,
Yetdi, yerinə yetdi
Türkə, islama bağlı
Hər arzusu, istəyi
Həzrəti Peyğəmbərin!
Bir ordudu, bir qoşundu
oğulların hərəsi,
Bütün ərzi silkələdi
hər çəkilən nərəsi.
Bu dünyanın yeri, göyü,
bağı, bəndi, bərəsi...
Aydınlığa çıxmaq üçün
o yandırdı çırağı,
Türk islamın dayağıdı,
islam türkün bayrağı!

Gözüm üstə ziyarətdi,
başım üstə tavandı,
Hər fəsadı, faciəni
başımızdan qovandı,

Nə yaşı var, bu din hələ
cavanlardan cavandı,
Min illəri keçib-gedər
onun səsi, sorağı,
Türk islamın dayağıdı,
islam türkün bayrağı!

Düz tanıdı, düz öyrəndi
öz əslini, zatını,
Gündoğandan günbatana
çapıb getdi atını.
Yeddi yerdə, yeddi göydə
tapdı yeddi qatını,
Qiyamətin gününədək
pas tutmasın yarağı,
Türk islamın dayağıdı,
islam türkün bayrağı!

MƏN ƏHMƏD YƏSƏVİ, BİLMƏK İSTƏSƏN

Pərvərdigara! Artıq sümüyüm sustalmış, saçlarım ağappaq ağarmışdır. Sənə ümid etməklə heç vaxt naümid olmamışam. Nə dua etmişəmsə, qəbul olunmuşdur.

Əhməd Yəsəvi

Arı kimi dön gülə,
tər çiçəkdən söhbət aç,
Şirin, təmiz arzudan,
saf diləkdən söhbət aç.

Çağır Alp ərənləri,
qonaq eylə eşqinə,
Gah beşikdən, məzardan,
gah bələkdən söhbət aç.

Danış dindən, imandan,
danış qoca zamandan,
Səcdə eylə keçmişə,
gələcəkdən söhbət aç.

Ey Yəsəvi Əhmədim,
Əhmədi-Muxtara bax,
Heç kəsə bel bağlama,
sən o Təkdən söhbət aç.

* * *

Boyla mənim boyumu,
Söylə mənim soyumu,
Ver havamı, suyumu,
Peyğəmbərdən xəbər ver.

Qəbul eylə ərkimi,
Anlat mənə ər kimi.
Danış peyğəmbər kimi,
Peyğəmbərdən xəbər ver.

Var işarə, him sənə,
Kim inanmaz, kim, sənə?
Haqqı bilən kimsənə,
Peyğəmbərdən xəbər ver.

Ver müjdəni, nəməri,
Ver ümmətə təpəri.
Ver qaibdən xəbəri,
Peyğəmbərdən xəbər ver.

Kəlmə çıxar ağızdan,
Hikmət söylə ağ üzdən.
Nə qazandı Oğuzdan? –
Peyğəmbərdən xəbər ver.

Haqq sözünü söylədi,
Pislikləri yeylədi.
Dünya üçün neylədi? –
Peyğəmbərdən xəbər ver.

Dürlü söz, dürlü kəlam,
Eşqi alınmaz qalam.
Rəsul əleyhissəlam –
Peyğəmbərdən xəbər ver.

İslam sevgi butası,
Əhməd, içdim bu tası.
Ey ruhumun atası,
Peyğəmbərdən xəbər ver.

* * *

Çatdı səsim Yəsəviyə,
elə bil ki Haqdan ona
"Bu gün fürsət sənindir,
qəlbini dindir" dedilər.

"Tapmağa sirr xəzinəsi,
çapmağa meydan vermişik,
Ruhun dəli köhləninə
eşqini mindir" dedilər.

"Endikcə en dərinlərə,
Yaradana çatmaq üçün,
Qanadlı söz göylərdədi,
qəlbinə endir" dedilər.

"Məhəmmədin eşq adlanan
atəşinə könül bağla,
Həşrə qədər yanasıdır,
sönməz bu təndir" dedilər.

"Sən Məhəmməd aşiqisən,
ilhama ver ömrü-günü,
Peyğəmbərdən divan bağla,
Haqqı sevindir" dedilər.

* * *

Arım əgər yaxşı olsa,
balım Bağdaddan gələr,
Könülləri doydurmağa
təam gəldi, qismət gəldi.

Haram toxum çürüyəcək,
nə bitəndi, nə bar verən,

Halallara halallıqdan
halal olan qismət gəldi.

Haqqı gedib tapmaq üçün
Haqq yolunda itmək gərək,
Nəm torpağın altında da
ona Haqdan qüvvət gəldi.

Qisməti verən Allahdı,
Tanrı hər sirdən agahdı,
Doxsan doqquz min müridlə
ona qədir-qiymət gəldi.

Mən Əhməd Yəsəvi,
bilmək istəsən,
Peyğəmbər şəhrinin
yoluyam, – dedi.
Yandım bu yollarda,
bişdim, əridim,
Quranla, ayətlə
doluyam, – dedi.

İslama, imana
özüləm, himəm,
Yanan ürəkləri
titrədən siməm,
Sevdiyim bir ad var,
onsuz mən kiməm? –
Onunla uludan
uluyam, – dedi.

Yoğurdum özümü,
yapdım özümü,
Dağ kimi dağıdıb,
çapdım özümü,

Mən onda itəndə
tapdım özümü,
Allah Rəsulunun
quluyam, – dedi.

Peyğəmbərlə göydə nurtək
qoşalaşdı
Yüz otuz il ömür sürən
mürşidimiz.
Ürəyini açdı bizə
süfrə kimi,
Qəlb gözüylə Haqqı görən
mürşidimiz.
Yer üstündə altmış üç
il yaşadı,
Yer altında altmış yeddi
il yaşadı.
Qoşalaşdı onun böyük
varlığında,
İslam adlı müqəddəs
din qanadlandı,
Türk adında mübarək bir
dil yaşadı;
Hər çəkəndə Peyğəmbərin
gül adını
Gözlərində dalğa-dalğa
göl yaşadı.
Bir yol seçdi
min bir yolun arasından,
Peyğəmbərin yollarına
çıraq tutan,
Yaradana gedib çatan
yol yaşadı.

Allah! Allah! Bu nə sevgi,
aman, ey Əhməd Yəsəvim,

Dedin ancaq onunkudur
qəlb işığım, könül evim.
Mən də sevdim Peyğəmbəri,
heç bilmədim necə sevim,
Mən də sevdim Rəsulumu,
sənintək sevə bilmədim.

Aslan baba adı ilə[47]
Yəsiyə bir həbəş gəldi,
Səhabənin ürəyində
Quran boyda Günəş gəldi,
Bir xurmanın toxumunda
Haqdan yanan atəş gəldi,
Mən də sevdim Rəsulumu,
sənintək sevə bilmədim.

Tam dörd yüz il sonra çatdı
Peyğəmbərin əmanəti,
O xurmada sirri vardı
sirr yuvası təbiətin.
Eşq ucundan diri-diri
yer altına girmək çətin,
Mən də sevdim Rəsulumu,
sənintək sevə bilmədim.

Çıxdın insandan Allaha,
endin Allahdan insana,
Rəbbim dedin, nəbim dedin,
bir şam kimi yana-yana.
Tanrı səni Peyğəmbərçün
bəxş eylədi Türküstana,
Mən də sevdim Rəsulumu,
sənintək sevə bilmədim.

Peyğəmbərə sevgi səndə,
nizam səndə, biçim səndə,

Yollar çoxdu, ən doğru yol,
ən ağıllı seçim səndə.
Min ildir ki, qarışmışıq,
ruhum səndə, içim səndə,
Mən də sevdim Rəsulumu,
sənintək sevə bilmədim.
Səndən ötrü ruhda, səsdə,
ilikdə, qanda Peyğəmbər,
Təpədən-dırnağa kimi,
nəfəsdə, canda Peyğəmbər.
Başdan-başa hikmət olan
ulu "Divan"da Peyğəmbər,
Mən də sevdim Peyğəmbəri,
sənintək sevə bilmədim.

O, BAQİDİ, BİZ FANİYİK

Peyğəmbər Məhəmməd
Fateh Məhəmməd
Füzuli Məhəmməd

Yenə salavat çəkib,
salam verirəm sənə,
Peyğəmbər Məhəmmədim!
Hər sözü, hər kəlməsi
Təzə-tər, Məhəmmədim!
Canı da, cövhəri də
halaldan mayalanmış,
Saçından dırnağına
işıq, zər Məhəmmədim!
Əxlaqda, tərbiyədə,
əqidədə, inamda
Möhtəşəmlər zirvəsi,
mötəbər Məhəmmədim!
Bütün həyatım boyu
Sənin nurunla dolub,
sənin eşqinlə yandım,
Nə sevməkdən yoruldum,
nə öyməkdən usandım.
Zülməti, qaranlığı çilçırağa döndərən,
Ruhunun təmizliyi
qardan ağ Məhəmmədim!
Yer üzündə nə qədər
əlçatmaz zirvələr var,
Hamısından ucada
qarlı dağ Məhəmmədim!
Məhəbbətin eşqinə,

Mərhəmətin gücünə,
Qaldırmısan ortadan
sərhədləri, sədləri.
Özünə bağlamısan
Səndən sonra doğulan
bütün Məhəmmədləri!
İslamın gəlişindən
min il sonra doğulan
Fateh Məhəmmədin də
səndən gəlir mayası;
Fatehim İstanbulun
fəthini görən kimi,
Səndən gəldi birinci
onun xeyir-duası.
Sən Məkkənin fəthində
oxuduğun duanı
O, İstanbul fəthini
görən günü oxudu!
Kökü səndən nurlanan
Bir zəfər çələngini
öz əliylə toxudu!
"Nə böyük sərkərdədi
İstanbulu alan kəs,
Nə xoşbəxt döyüşçüdü
orda vuruşan əsgər!" –
Bu ilahi kəlmələr
On əsr əvvəl çıxıb
sənin nurlu dilindən.
On əsr sonra gəlib,
burda çalıbdı zəfər!
Sanki, o gün açıldı
türkün bəsirət gözü,
Yollardan yığdı Fateh
İstanbula boylanan
yollara həsrət gözü.

İslam adlı imanın
istədiyi buydu, bu,
Həzrəti Məhəmmədin
Düz on əsr yol gələn
sönməz arzusuydu bu!
O çalınan zəfərdə
qüvvət tapdı daha da
iman və din varlığı.
Göstərdi öz gücünü
Türkün tükənməz ağlı,
Ağ Şəmsəddin varlığı!!!
Düz min il bundan əvvəl
Məhəmməd peyğəmbərin
Yenilməz bayraqdarı
Əbu Əyyub Ənsari
şəhid olmuşdu burda.
Onun mübarək ruhu
Çırpınırdı quş kimi
Fatehin ürəyində
yanan işıqda, nurda!
Əmr verdi Fatehim:
"Ənsari məzarını
axtarın, tapın!" – dedi.
"Dağ altında olsa da,
Üzə çıxarmaq üçün
dağları çapın!" – dedi.
"O zata olmalıdır
birinci ziyarətim,
Hər gün coşub, qaynayıb
O şəhid bayraqdara
rəğbətim, məhəbbətim!"
Tapdılar o məzarı!
İyirmi bir yaşlı Fateh
Əyildi ehtiramla,
baş əydi qəbrə sarı.

Ona "Yasin" oxudu,
ruhuna bağışladı
Allahın kəlamını.
O, bu ziyarətiylə
Yetirmişdi yerinə
Həzrəti Məhəmmədin
arzusunu, kamını.
O gün çalınan zəfər
Peyğəmbərə bağlanan
ümmətin zəfəriydi!
Saf imandan güc alan
millətin zəfəriydi!
Ağlın, eşqin, idrakın,
hikmətin zəfəriydi!
Bilgə Xaqandan gələn,
Oğuz xanla yüksələn
şöhrətin zəfəriydi!
Peyğəmbər məktubuyla
Bizans imperatoru
Heraklisi islama
dəvətin zəfəriydi!
Peyğəmbərin arzusu
Türkün yenilməz oğlu
Məhmətin zəfəriydi!
Ey mənim Peyğəmbərim!
Təkcə fatehlərin yox,
Fateh şairlərin də
eşqinin əsərisən,
Ağlının itiliyi,
sözünün kəsərisən.
Sənin eşqinlə yanan,
Fələklərə boylanan,
Qapısını dərd, ələm,
bir də küləklər açan,
İslam şəhidlərinin
yollarına nur saçan,

"Heyrət, ey büt!.." deyəndə
söz heykəlinə dönən,
Dilimizin dürrünə,
parlaq ləlinə dönən,
Bütün həyatı boyu
şəhid İmam Hüseynin
qəbrinə çıraq tutan,
Nəfsini bu dünyanın
Sərvətindən, zərindən,
Ləlindən, gövhərindən
həmişə qıraq tutan,
Məhəmməddən, Əlidən,
imamların ruhundan
Fəhminin hünəriylə
hər gün səs-soraq tutan,
Bir əlində qələmi,
birində varaq tutan,
Sevgi dolu camını,
Könül adlı şamını,
Eşqini, ilhamını
Saçından dırnağına,
kökündən budağına,
Ürəyindən gözünə,
dilindən dodağına
Peyğəmbərə bəxş edən,
Allahın yaratdığı
ilahi şeiriyyəti
İnci kimi, dürr kimi
könüllərə nəqş edən
Füzulidən soruşdum ki,
adın, soyadın necədi?
Dedi: "Yaşım dünənkidi,
adım çox-çox əzəldəndi.
Dilim yanıb külə dönər,
desəm adım Məhəmməddi,

Bir Məhəmməd tanıyıram,
hər müşkülü düzəldəndi.

Onun adı gələn yerdə
öz adımı unutmuşam,
O mənimçün dolu toxum,
dolu sünbül, gözəl dəndi.

O, baqidi, mən faniyəm,
dərya odur, qətrə mənəm,
Onun ömrü bahar ömrü,
mənim payım xəzəldəndi.

Nəyi desə, onun sözü
tək Allahın sözləridir,
Mən yazdığım öz sözümdü,
qəsidədən, qəzəldəndi.

Neyləyirsən nədir adım,
"Şəbi-hicran"dı fəryadım,
Mənim yanğım köz baxışdan,
köz ürəkdən, köz əldəndi.

Mən nə yazdım, nə yazmışam,
ancaq onun eşqinədir,
Deməsinlər elə sözü
gözəllikdən, gözəldəndi.

Onun adı gələn yerdə
mən əriyib yox olmuşam,
Mən mənə Füzuli dedim,
demə adım Məhəmməddi.

Bağdadda da, Bayatda da,
vətəndə də, qürbətdə də,

Ruhum, canım, eşqim, gücüm,
qol-qanadım Məhəmməddi.

Varlığına tapınmasam,
bu dünyada var olmazdım,
Şeirim, sözüm, səsim, ünüm,
istedadım Məhəmməddi.

Quranının qurbanıyam,
ayəsinin heyranıyam,
Şəkərim, şərbətim, balım,
tamım, dadım Məhəmməddi".

QİYAMƏT

** Xeyr, (o gün) heç bir sığınacaq olmayacaqdır!*
** O gün (ey insan!) duracaq (pənah aparılacaq) yer ancaq Rəbbinin hüzurudur!*
** O gün insana öncə etdiyi və sonraya qoyduğu nə varsa (sağlığında dünyada gördüyü işlər və öləndən sonra qoyub getdiyi yaxşı, pis nə varsa, hamısı) xəbər veriləcəkdir!*

("əl-Qiyamə" surəsi, 11-13-cü ayələr)

"Qiyamət nə zaman
qopacaq?" – demə,
Hər gün qiyaməti
qopur dünyanın.
Harınlar, haramlar,
haramzadələr
Sağını, solunu
çapır dünyanın.
Xəbis sifətlilər,
İblis donlular
Evini kökündən
yıxır dünyanın.
Həyatın sonunu
dərk etməyənlər,
İblis niyyətini
tərk etməyənlər
Hər gün axırına
çıxır dünyanın.
Qiyamət gözləmə,
ey insan oğlu,
Hər gün qiyamətdi,
hər gün qiyamdı.

Hər gün ləyaqətin
sinəsi dağlı,
Hər gün həqiqətin
qolları bağlı.
Yıxılan saraydı,
sökülən damdı,
Hər gün qiyamətdi,
hər gün qiyamət.
Şərdi şeytanınkı,
məhəbbət deyil,
Nifrət müsibətdi,
mərhəmət deyil.
Hər açılan süfrə
ziyafət deyil,
Ağılı plovdu,
zəhərli camdı,
Hər gün qiyamətdi,
hər gün qiyamdı.
Böyük qiyamətə
hazırlıq görür
Xırda qiyamətlər,
xırda qiyamlar.
Yandırır insanı
qır qazanında,
Görür öz işini
qırda, qiyamlar.
Qiyamət deyilmi
bu yer üzündə
Ağrının, acının
ərşə çatması?
Böyük qiyamətə
möhlət dövrüdür
Allahın bu qədər
vaxt uzatması!
Axır su yerinə
tökülən qanlar,

Qanı ara yerdə
batan cavanlar,
Əzilən kəllələr,
kəsilən başlar,
Hələ də kəsməyən
qanlı savaşlar,
Dumanlı talelər,
tapdanan haqlar,
Qırılan ümidlər,
sönən ocaqlar,
Yetim uşaq kimi
sıxılan evlər,
Bağlanan qapılar,
yıxılan evlər
Böyük qiyamətə
aparır bizi.
Nifrət ildırımı,
qəzəb şimşəyi
Çəkib kökümüzdən
qoparır bizi.
Pislik yarışıdır
gedən dünyada,
Hələ ki yaxşılıq
yarışı yoxdur.
Dillərin, dinlərin,
əqidələrin
Savaşı olsa da,
barışı yoxdur.
Qana bələnməmiş
yazıq torpağın
Yoxdu bir addımı,
qarışı yoxdur.
Göy göyə çəkilib,
yer yerə batıb
Güllə yağışından,
silah əlindən.

Çaylar təmizləməz,
dənizlər yumaz,
Oğulsan, təmizlən
günah əlindən.
Nə biz əyləşirik,
nə o dayanır,
O bizə, biz ona
yaxınlaşırıq.
Qiyamət deyilən,
məşəqqət deyən
Bir həddə, bir sona
yaxınlaşırıq.
Qiyamət gününə,
məhşər vaxtına
Mömin – dilindəki
şükürlə gedir.
Yenə Allahına
ibadətdədir,
Duayla, səcdəylə,
zikrlə gedir.
İşıqlı ürəklə,
ağıllı başla,
Halal düşüncəylə,
fikirlə gedir.
Kafiri yenə də
şeytan aldadır,
Tanrı hüzuruna,
Allah taxtına
Nifrətlə, qəzəblə,
məkrlə gedir.
Kiflənir varlığı
kir, pas içində,
Məhşər ayağına
bu kirlə gedir.
Cəhənnəm mələyi
çağırır onu,

Gör orda nə gündə,
nə zillətdədir.
Cənnətin qapısı
möminə açıq,
Möminlər yenə də
gözəl əməldə,
Aqillər yenə də
fəzilətdədir.
Günahla gedənlər
məşəqqət çəkir,
Savabla gedənlər
şərafətdədir.
Sözün nəsihətdi,
ya Peyğəmbərim!
Fikrin həqiqətdi,
ya Peyğəmbərim!
And olsun sən deyən
o qiyamətə,
And olsun sevgiyə,
eşqə, hörmətə,
Tanrı məqamında,
Allah yanında
Möminlə kafirin
yeri, məqamı,
Sözü, mərtəbəsi
bir olmayacaq!
Başa çəkiləcək
mömin bəndələr,
Kafirə heç yerdə
yer olmayacaq!
Hər kəs dərk edəndə
öz əməlini
Heç kəsdə bir gizlin
sirr olmayacaq!
Cəhənnəm işidi
böhtan da, şər də,

Cənnət dünyasında
şər olmayacaq!

Yurdu bu dünyada
pir olmayanın
Yeri o dünyada
pir olmayacaq!
Ey günah sahibi,
qoymurdun yaxın,
Deyirdin yalandı
məhşər, qiyamət,
Deyirdin yalandı,
sur olmayacaq!
İsrafil surunu
götürüb indi,
Kafirlər başında
tufan qopanda
Allahdan işarə,
imandan nişan,
Səndə bircə damla
nur olmayacaq!
Azad gəzməyinə
bir qarış məkan,
Rahat yatmağına
gor olmayacaq!
And olsun Peyğəmbər
mərhəmətinə,
And olsun Peyğəmbər
məhəbbətinə,
Göylərin üzündə
Ay tutulanda,
Gözün bərələcək
zülmət içində.
Vaxtın olmayacaq
təmizlənməyə,

Qəlbin çırpınacaq
xiffət içində.
Daha xilas yolu
tapılmayacaq,
Hayana qaçsan da
dəhşət içində.
Yığışdır özünü,
ey insan oğlu,
Yaxşı aç gözünü,
ey insan oğlu!
Səs gəldi yetişdi,
ün gəldi çatdı,
Budur, istəsən də,
istəməsən də,
Qiyamət deyilən
gün gəldi çatdı,
Boşuna deyilmir
qiyamət günü,
İntiqam günüdür,
qəzəb günüdür.
Xilaskar olanın
toyu, bayramı,
Günahkar qalanın
əzab günüdür.
Seçilər əməlin
pisi, yaxşısı,
Tərəzi qurulub,
hesab günüdür.
Əyrimi, doğrumu,
yaxşımı, pismi? –
Bütün sualların
cavab günüdür.

Tanrı varlığına
şəkk edənlərin,

Əslinə, nəslinə,
halına vay, vay!
Sabah daş üstündə
daşı qalmayan,
Yığılan mülkünə,
malına vay, vay!

Kafirin qazancı
gəlməz karına,
Lənət qazancına,
lənət varına!
Solan bağçasına,
solan barına,
Dəyməmiş tökülən
kalına vay, vay!

Atəşdə kül oldu,
sərinləşmədi,
Ağlı dayaz oldu,
dərinləşmədi,
Heç zaman acısı
şirinləşmədi,
Zəhərə çevrilən
balına vay, vay!

Nə yaxşı ki, bir qorxu var,
adı – qiyamət qorxusu!
Nə yaxşı ki, bir qorxu var,
odu – qiyamət qorxusu!
Söz eşitməz, rüşvət almaz,
qohum bilməz, yad tanımaz,
Seçməz orda bir tanışı,
yadı – qiyamət qorxusu!

Yüz yerindən yara açar,
yoxlar – qiyamət qorxusu!

Dözümünü, iradəni
yoxlar – qiyamət qorxusu!
Nə durmağa bir yer olar,
nə qaçmağa sığınacaq,
Ən pis gündə qəfil səni
haqlar – qiyamət qorxusu!

Dünya səni atıb gedər,
çiynində bir yük saxlamaz,
Ağzında bir salamat diş,
başında bir tük saxlamaz.
Qiyamətin işgəncəsi
işə salar var gücünü,
Bədənini əzər-tökər,
sınmamış sümük saxlamaz!

Nə yaxşı ki, hər könüldə
dərd yükü, qəm əzabı var,
Nə yaxşı ki, gözdə nisgil,
kirpikdə nəm əzabı var,
Nə yaxşı ki, mömin üçün
yaşıl cənnət seyrəngahı,
Nə yaxşı ki, kafir üçün
bir cəhənnəm əzabı var.

Bir kimsə ki, alammadı
Allahından rizasını,
Hardan bilsin kim yaradıb
onun min bir əzasını?!
"Məndən yan keçdi" deyənin
bağışlanmaz bir səhvi var,
Darıxmasın, çəkdirəcək
Rəbbim ona cəzasını!

"ALLAHU-ƏKBƏR!"

Ucaldım Allaha,
endim insana,
Sirli-soraqlıdır
"Allahu-Əkbər!"
Açar qapıları
eşqin üzünə,
Nurdan çıraqlıdı
"Allahu-Əkbər!"

Bu uşaq, bu cavan,
bu qoca dünya,
Sirr dünya, pir dünya,
tapmaca dünya,
Onun hökmündədi
bu uca dünya,
Uca növraqlıdır
"Allahu-Əkbər!"

Sevinc kitabı var,
dərd kitabı var,
Qanunun, qaydanın
sərt kitabı var,
Hələ bizə çatan
dörd kitabı var,
Min-min varaqlıdır
"Allahu-Əkbər!"

Bir ələ güc verib
yüz əl eyləyər,
Yazı gül, payızı
xəzəl eyləyər,
Neyləsə, həmişə
gözəl eyləyər,
Haqqı var, haqlıdır
"Allahu-Əkbər!"

ƏLHƏMDÜLİLLAH!

Çaldım öz havamı
bir kitab üstə,
Dil verdim sazıma,
Əlhəmdülillah!
Haqqın özü vurdu
naxışlarını
Xəttimə, yazıma,
Əlhəmdülillah!

Nurlandım işıqda,
yandım ocaqda,
Söz canda isindi,
dua dodaqda.
Qələm də, dəftər də,
şam da, çıraq da
Dözdülər nazıma,
Əlhəmdülillah!

Sözümü eşq dedi,
məhəbbət dedi,
"Sevgi – hərəkətdi,
hərəkət!" dedi,
Tanrım, nə yazdımsa
"bərəkət" dedi, –
Çoxuma, azıma
"Əlhəmdülillah!"

Ruhum ipək oldu,
duyğum tül oldu,
Sirdaşım sirr dolu
bir könül oldu.
Eşqim qönçələndi,
qönçəm gül oldu,

Gül açan yazıma
Əlhəmdülillah!

Məndən salam olsun
ulu dərgaha,
Tapındım Tanrıya,
yetdim Allaha.
Ölsəm də bir zərrə
dərdim yox daha,
Çatdım murazıma,
Əlhəmdülillah!

İLAHİ

Peyğəmbər qəlbindən
üzə nur çilə,
Bizim çöhrəmizi
güldür, İlahi!
Bağlı qapıları
aç üzümüzə,
Sirləri bizə də
bildir, İlahi!
Haqqa ümidləri
qırılmaz elə,
Şeytan arzusunu
soldur, İlahi!
Çıxart içimizdən
iblis məkrini,
Məhəmməd şövqüylə
doldur, İlahi!
Mələk mərtəbəsi,
Peyğəmbər yolu
Ən dürüst, ən doğru
yoldur, İlahi!!!

ALLAH İSTƏSƏ!

Allahdan istədim
öz kitabımı,
Yox yerdən var olar,
Allah istəsə!
Bir qəlbin telində
min səs dillənər,
Dünyaya car olar,
Allah istəsə!

Nəqqaşı Tanrıdı
bu naxışların,
Yükü buluddadı
gur yağışların.
Barlı payızların,
qarlı qışların
Sonu bahar olar,
Allah istəsə!

Dar bir mağarada
dil açar mələk,
İnsana hökmünü
göstərər fələk.
Daşlar gül bitirər,
qayalar çiçək,
Qum üstə bar olar,
Allah istəsə!

Milyonlar can atar
bir haca doğru,
Hac adlı bir eşqə,
bir taca doğru.

Möminlər ucalar
meraca doğru,
Kafirlər xar olar,
Allah istəsə!

Zərrəni bir dünya,
daşı zər eylər,
Yerlərə, göylərə
şad xəbər eylər,
Yetim bir uşağı
peyğəmbər eylər,
Yarsıza yar olar,
Allah istəsə!

Elə bu əsərlə
vurar möhrünü,
Zəlimxan var olar,
Allah istəsə!
Yeri gülzar olar,
Allah istəsə!!!

03.02.2009

ŞƏRHLƏR

1. Peyğəmbər (s.ə.s.) Hz.Əbu Bəkri "Siddiq" (doğru danışan) adlandırırdı.
2. Əbu Süfyan – Peyğəmbərə düşmən olan Məkkə müşriklərinin başçısı idi.
3. Əbu Ləhəb – Peyğəmbərin əmisi olsa da, onunla düşmən olanların məşhurlarındandır. Əsl adı Əbd əl-Üzzədir. Qurani-Kərimin "Əbu Ləhəb" surəsinin 1-ci ayəsində belə qarğanmışdır: "Əbu Ləhəbin əlləri qurusun, qurudu da!"
4. Əbu Cəhl – Məkkə müşrikləri arasında Peyğəmbərin ən böyük müxaliflərindən biri.
5. Müaviyə – Əməvi xəlifəsidir. Əbu Süfyanın oğludur.
6. Mərvan – I Mərvan nəzərdə tutulur. Əməvi sülaləsindəndir. Hz.Hüseynə qarşı zor tətbiq edilməsi barədə vali Ütbəyə göstəriş vermişdir.
7. Yezid (Yəzid) – Əməvi xəlifəsidir. Müaviyənin oğludur. Hz.Hüseynin qətlinə fərman vermişdir.
8. Hüdeybiyyə müqaviləsi hicrətin 6-cı ilində Hz.Məhəmməd və Sühməl b. Əmr arasında imzalanmışdır. 11 maddədən ibarətdir. Qurani-Kərimin "əl-Fəth" surəsi Hz.Peyğəmbər Hüdeybiyyədən qayıdarkən nazil olmuşdur.
9. Hicrətin 2-ci ilində Bədr savaşında Peyğəmbərə verdiyi vədi pozan bəni-Qüreyrə qəbiləsi nəzərdə tutulur.
10. Hicrətin 3-cü ilində Ühüd dağında baş vermiş tarixi savaşa işarədir.
11. Hicrətin 8-ci ilində 3 minlik müsəlman ordusunun 200 minlik düşmən ordusuyla savaşının nəticəsinə işarədir.
12. Hicrətin 6-cı ilində Peyğəmbərə sadiq olacağına söz verən bəni-Qüreyrə qəbiləsi Xəndək savaşında da Allahın elçisinə dönüklük etdi.
13. Hicrətin 7-ci ilində baş verən hadisələrə işarədir.
14. "Məgər O səni yetim ikən tapıb sığınacaq vermədimi?! Səni şaşqın (uşaq vaxtı Məkkə vadisində azmış) vəziy-

yətdə tapıb yol göstərmədimi?! Səni yoxsul ikən tapıb dövlətli etmədimi?!" ("əz-Zuha" surəsi, 6-8-ci ayələr).

15. "(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər (Cənnətdəki Kövsər irmağını və ya bol nemət, yaxud Quran, peyğəmbərlik) bəxş etdik!" ("əl-Kövsər" surəsi, 1-ci ayə).
16. "(Ya Peyğəmbər! Oğlun Qasim, yaxud İbrahim vəfat etdiyi zaman sənə sonsuz, arxası kəsik, nəsli kəsilmiş deyən) sənin düşməninin (As ibn Vailin) özü sonsuzdur! (Sənin nəslin qiyamətə qədər törəyib artacaq, adın çəkildikdə isə həmişə salavat deyiləcəkdir!)" ("əl-Kövsər" surəsi, 3-cü ayə).
17. "(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur)" ("əl-İxlas" surəsi, 1-ci ayə).
18. Bilal – ilk müəzzindir. Həbəşdir. İslamı ilk qəbul edənlərdən biri olub. 60 il yaşayıb. Məzarı Hələbdədir.
19. "Qədr gecəsi (savab cəhətdən) min aydan daha xeyirlidir!" ("əl-Qədr" surəsi, 3-cü ayə).
20. Qurani-Kərimdə Hz.İbrahimin dilindən söylənmiş duaya işarə olunur: "(Onlar yenə dedilər:) "Ey Rəbbimiz! Onların (nəslimizin) içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini (hökmlərini) onlara oxusun, (Sən göndərən) Kitabı (Quranı) və (oradakı) hikməti onlara öyrətsin, onları (günahlardan) təmizləsin! Həqiqətən, Sən yenilməz qüvvət, hikmət sahibisən" ("əl-Bəqərə" surəsi, 129-cu ayə).
21. "Hədisi-Şərif": "Anamın da röyasıyam ki, mənə hamilə olduğu zaman yuxusunda özündən bir nurun çıxdığını görmüşdü".
22. Təbərinin bildirdiyinə görə, Hz.Peyğəmbərimiz doğularkən səcdə halında dünyaya gəlmişdir.
23. Hz.Peyğəmbərimizə Süveybə xanım süd vermişdir. Süveybə xanım Hz. Həmzənin də süd anası olub.
24. Hz.Peyğəmbərin başqa bir süd anası Həlimə xanımdır. Həlimə xanım bəni-Sad qəbiləsindəndir.
25. Əbdülmüttəlib (Əbd əl-Müttəlib) – Hz.Peyğəmbərin babası.

26. Nur dağındakı Hira mağarasında Hz. Peyğəmbərə "əl-Ələq" surəsinin ilk beş ayəsi nazil olmaqla Qurani-Kərim yer üzünə müjdələnmişdir: "(Ya Peyğəmbər! Qurani-Kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu! O, insanı laxtalanmış qandan yaratdı. (Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi".
27. Əbrəhə – Yəməndə həbəş valisi idi. Hz.Məhəmmədin dünyaya gəldiyi ildə (570 və ya 571-ci il) Məkkəyə hücum edib Kəbəni dağıtmaq istəmişdi. Ordusunda fillər olduğuna görə, bu il tarixdə "Fil ili" adı ilə məşhurdur. Qurani-Kərim bildirir ki, Allah Əbrəhənin qoşununun üstünə qatar-qatar Əbabil quşları göndərmiş və bu quşlar onlara bişmiş gildən düzəldilmiş daşlar atmışdı.
28. "Əl-Adiyat" surəsinin 3-cü ayəsinə işarə olunur.
29. Abbasqulu ağa Bakıxanov 1846-cı ildə həcc ziyarətindən qayıdarkən "Vadeyi-Fatimə" adlanan ərazidə Haqqa qovuşmuş və elə orada da dəfn edilmişdir.
30. Əbülhəsən Raci 1876-cı ildə həcc ziyarətindən geri qayıdarkən Qırmızı dənizdə batmışdır.
31. Hz.Məhəmmədin zahiri görkəmini təsvir edərkən M.A.Köksal İbn İshaqa, İbn Sada, Tirmiziyə və b.-na istinad edir (Mustafa Asim Köksal, "İslam tarixi", cild 8, səh. 300).
32. Hz. Xədicənin köləsi olmuş Zeydə işarədir. Hz.Peyğəmbər Zeydi köləlikdən azad edərək onu oğulluğa götürmüşdür.
33. Qüreyş müşrikləri aylı bir gecədə Hz.Peyğəmbərdən möcüzə istəmişdilər. Hz.Peyğəmbər barmağı ilə Aya işarə etmiş, Ay ikiyə bölünüb şəhadət gətirmiş və yenidən bütövləşmişdi.
34. Məhəmmədə hələ peyğəmbərlik verilməzdən öncə məkkəlilər Kəbəni təmir etmişdilər. Təmir zamanı Həcərül-Əsvədi (qara daş) yerinə kimin qoyacağı məsələsində qəbilə başçıları arasında mübahisə yaranmışdı. Məxzum qəbiləsindən qoca bir kişi Qüreyş başçılarına təklif edir ki, bu məsələdə Babus-Səlamdan daxil olan ilk şəxsin

hökm verməsinə razılaşsınlar. Onun təklifi qəbul edilir. Qapıdan ilk daxil olan qüreyşilərin əl-Əmin adlandırdıqları Məhəmməd olur. Beləliklə də o, əbasını yerə sərir. Qara daşı onun üzərinə qoyurlar. Sonra isə hər qəbilədən bir nəfər ağsaqqal əbadan yapışaraq onu Kəbənin divarının yanına gətirirlər. Sonda isə Məhəmməd daşı götürüb öz yerinə qoyur.

35. Həcərül-Əsvədin əvvəllər bir mələk olması qənaəti din tarixində yayğın bir fikirdir.
36. Buraq – Peyğəmbəri meraca aparan at.
37. Tuba – Cənnətdə bir ağacdır. Xoşbəxtlik rəmzi kimi tanınır.
38. Kəbədə olmuş büt adları.
39. Kəbədə olmuş büt adları.
40. Kəbədə olmuş büt adları.
41. Əbdürrəhman ibn Mülcəm – hicrətin 40-cı ilində Ramazan ayında Hz.Əlini məsciddə zəhərli qılıncla ölümcül yaralamış xarici.
42. Əbuzər – ilk müsəlmanlardan biridir. Təqvası ilə məşhurdur.
43. Salman Farsi – əslən isfahanlıdır. Atəşpərəstlər nəslindəndir. Sonralar xristian olmuşdur. İslam dinini qəbul edəndən sonra misilsiz islam böyüklərindən birinə çevrildi. Hz. Məhəmməd onun haqqında "Salman biz əhlibeytdəndir" deyib.
44. "Əl-Qələm" surəsinə işarədir.
45. Burada Əbülqazı Bahadur xanın "Şəcərəyi-türk" əsərinə istinad olunub.
46. Bu hədis Mahmud Kaşğarlının "Divani-luğət-it türk" əsərində verilib.
47. Burada böyük türk alimi Fuad Köprülünün "Türk ədəbiyyatında ilk mütəsəvvüflər" kitabına istinad olunub.

MÖVLANADAN ŞƏMSƏ DOĞRU

(Lirik, fəlsəfi düşüncələr poeması)

YOLLAR – AXTARIŞLAR

Ləqəbi Şəmsəddin, adı Məhəmməd,
Eşqin göylərində uçan quşdu o.
Xorasan əsilli, Təbriz möhürlü,
Ulu bir məkanda doğulmuşdu o.

Təbriz beşiyiydi arzularının,
Artdı istəkləri, birə min oldu.
"Şəms" adlı surədən aldı gücünü,
Məhəmməd çevrildi Şəmsəddin oldu.

Quranı içindən keçirmək üçün,
Quranın içindən keçmişdi Şəmsim.
Allahın tükənməz hikmətlərini
Aramaq yolunu seçmişdi Şəmsim.

Qəlbində, ruhunda, qanında Allah,
Cövhərində Allah, canında Allah,
Hər dəfə çəkdiyi nəfəsdə Allah,
Coşub çağladığı həvəsdə Allah,
Gərəksiz yolları atdı, unutdu,
Ancaq Yaradanın yolunu tutdu.
Yapışdı qolundan iman yolları,
Bu Təbriz, bu Dəməşq, bu Şam yolları.
Bu Məkkə, Mədinə, Hicaz yolları,
Bu oruc yolları, namaz yolları,

Kərbəla yolları, Bağdad yolları,
Haqqa qovuşmağın nicat yolları.
Gecəli-gündüzlü zikrində Allah,
Ağlında, beynində, fikrində Allah,
Gördü alimlərin dayazlığını,
Gördü aləmlərin ləyaqətini.
Dərində axtardı, batində gəzdi,
Ömrün mənasını, şeiriyyətini.

Səbrlə aşırdı bərəni, bəndi,
Səbrlə keçirdi şəhəri, kəndi.
Gündüz xəyalında, arzularında,
Gecə yuxusunda Konya görürdü.
Səhra küləyində, çəmən şehində,
Çiçək qoxusunda Konya görürdü.
Baxırdı qəlbinin pak aynasına,
Könül guşəsində Konya görürdü.
Səssiz hislərinin dərinliyində,
Xəlvət guşəsində Konya görürdü.
Gördüyü Konyanın hər qarışında
Bir işıq görürdü, bir nur görürdü.
Dolu ürəyində Allah sevgisi,
Qaynar baxışında od gətirirdi.
Fikir dünyasına, söz çəməninə
Təzə bir tam verir, dad gətirirdi.
Alim Mövlananı aşiq etməyə
Ad üstə təzə bir ad gətirirdi.
Ona duyğuları pıçıldamışdı:
Sən könül mülkünü Konyada axtar.
Sirrinə sirdaşı, qəlbinə yarı,
Eşqinə sultanı Konyada axtar.
Orda xəzinələr xəzinəsi var,
O saf xəzinənin başının üstə
Haqqın nəzəri var, haqqın səsi var.
Yeri istəyirsən – orda taparsan,

Göyü istəyirsən – orda taparsan,
Qıfılı, açarı, sirri açmağa
Nəyi istəyirsən orda taparsan.
Təbrizdən Konyaya gələn yolları
Çeşmə suyu kimi içib gəlirdi.
Dərəni, təpəni, yalı, yamacı
Qızıl bir quş kimi uçub gəlirdi.
Onu qoruyurdu ana təbiət,
Bu yolu uğurla bitirmək üçün.
Dillər duadaydı, əllər havada,
Şəmsi Mövlanaya yetirmək üçün.

ŞƏMSƏ GÜNƏŞ DEDİLƏR

Əvvəl özünü tanı,
sonra anlat cahanı,
Özünü tanıyan kəs
xalqı bilməz olurmu?

Allahına üz tutub
namaz qılırsa məxluq,
Zikrini, duasını
haqla bölməz olurmu?

"Gəlimli-gedimlidir,
son ucu ölümlüdür",
Ölümsüzlük haqq işi,
bəndə ölməz olurmu?

Buyurmaq Yaradana,
buyrulmaq bizə düşər.
O gəl deyib çağırsa
insan gəlməz olurmu?

Şəms gördü Mövlananı,
güldü könül dünyası,
Arzusuna çatanda
könül gülməz olurmu?

Nəyi çatmır Allahın,
insanı yaşatmağa,
Hər kəsə bir yol seçir,
halal bir peşə verir.

Üzmək istəyənlərə
dənizləri göstərir,
Gəzmək istəyənlərə
dağ verir, meşə verir.

Kolların dibini də
sahibsiz qoymur Allah,
Gözəllərə bənzəyən
kövrək bənövşə verir.

Qəlb alışır, can yanır,
ruh çırpınır, göz sevir,
Ürəyə eşq adlanan
əbədi nəşə verir.

Sevənlər, sevilənlər
Şəmsə Günəş dedilər,
Çünki Allah ən böyük
eşqi Günəşə verir.

MÖVLANAYA DOĞRU

Yanmağı bilməyən bişməyi bilməz,
Nə çiyə, nə də ki, xama gedirəm.
Zərli saraylara tamah salmadım,
Nurlu bir daxmaya, dama gedirəm.

Adı min bir olan, özü birim var,
Alışan ocağım, yanan pirim var.
Həqiqət elmində kəm-kəsirim var,
Bütövə can atıb, tama gedirəm.

Səslər dünyasının zili, pəsiyəm,
Udun fəryadıyam, neyin səsiyəm.
Qırxlar məclisinin pərvanəsiyəm.
İçməyə şərbətə, cama gedirəm.

Nəfsin xatasından ötüşməliyəm,
Min parça olsam da, bitişməliyəm.
Tanrı dərgahına yetişməliyəm,
Uca bir arzuya, kama gedirəm.

Dost dedim, dolaşdım yeddi iqlimi,
Hər yerdə dost dedi qəlbimin simi.
Mövlana eşqinə pərvanə kimi,
Konyaya can atıb, Şama gedirəm.

Bu gediş adicə bir səfər deyil,
Gedib kef çəkəsən, kef eləyəsən.
Bu yolun tilsimli qapılarından,
Bütün sınaqları, çətinlikləri,
Gərək imanınla dəf eləyəsən.

Bu gediş adicə bir səfər deyil,
Bu yolu getməyən bəxtəvər deyil.

Əqidə sirdaşın, düşüncə dostun,
Gərək yumaq kimi çözələnəsən.
Özünü tapasan onu tapanda,
Hər gün içəridən təzələnəsən.

İncələ-incələ ip olmalısan,
İncəlib, iynənin gözündən keçib
Nazilə-nazilə sap olmalısan.
Şam kimi əriyib səhra qumunda,
Səhra küləyində çöp olmalısan.
Bu gediş adicə bir səfər deyil,
Yerdə çiçəklərdi onun heyranı,
Göydə mələklərdi onun heyranı,
On nəfər, yüz nəfər, min nəfər deyil.

Gizlindən səs gəldi qulaqlarıma,
Fikir dənizində üz görüm indi.
Dərya qasırğalı, həyat tufanlı,
Mərcanı saplara düz görüm indi.

Yeni bir yön versin dövrana dünya,
Gətirdi ilhamı cövlana dünya.
Dünya Mövlanadı, Mövlana dünya,
Sən orda ilhamla gəz görüm indi.

Dodaqda bir neydi, ürəkdə bir saz,
Aparar, o, səni yollarda qoymaz.
Onun ruhundakı ucalığı yaz,
Yaza bilirsənsə, yaz görüm indi.

Hara baxdım, onu gördüm,
ruhun kökündə Mövlana!
Göyün uca tavanında,
yerin təkində Mövlana!
Baxdım Səməndər quşuna
yanan tükündə Mövlana!

Qəlbin sönməz işığında,
ağlın yükündə Mövlana!
Sonda bir əvvəli gördüm,
əvvəldə bir sonu gördüm,
Oda, suya, yerə, göyə –
hara baxdım onu gördüm.

ŞƏMSİN KONYA SƏFƏRİ

Bu adın işığından
Şəmsim tutub gəlirdi,
İlahi elmləri
ürəyindən keçirib,
Canını, cövhərini
nura qatıb gəlirdi.
Əliboş çıxmaq olmaz
müqəddəs səfərlərə,
Qəlbi, ruhu, varlığı,
eşqi dolu gəlirdi.
Qədim Anadoluya
Gözlərinin nuruyla,
Qəlbinin qüruruyla,
İkinci bir möhtəşəm
Anadolu gəlirdi.

Təbrizdən Bağdada, Bağdaddan Şama,
Gah uçur, gah da ki, yeriyirdi Şəms.
Yağ kimi əriyib yerə hopurdu,
Mum kimi yumşalıb, əriyirdi Şəms.

İlahi bir eşqin pərvanəsiydi,
Uçan Şəms, dönən Şəms, döndərilən Şəms.
Bir səsin eşqinə qalxıb gedirdi,
Göndərən haqq idi, göndərilən Şəms.

Hardan qayıdırdı, hara gedirdi,
Onu hər diyara eşq aparırdı.
Hara gedirdisə insan oğluna.
Qəlbində nur dolu köşk aparırdı.

Bütün kitabları vurmuşdu başa,
İnsanı kitabtək oxumuşdu o.
Fikrin, düşüncənin üfüqlərində,
Danışan mələkdi, uçan quşdu o.

Ruhların Təbrizdə doğan günəşi,
Gəl deyən, çağıran səsə gedirdi.
Enişlər, yoxuşlar yoranda onu,
Dolama yolları kəsə gedirdi.

Gözündə göylərin ağ ulduzları,
Qəlbində bir sönməz atəş gedirdi.
Çatırdı dadına yol mələkləri,
Başının üstündə Günəş gedirdi.

Böyük həqiqətə qovuşmaq üçün,
Qərib bir yolçunun yolluğuydu bu.
Tanrı eşqinəydi hər nəyi varsa,
İnsanın Allaha qulluğuydu bu.

Elm ilə, eşq ilə dolu olanlar,
Tanrı vergisindən yaxşı halıydı.
Yolda qoyardımı Yaradan onu,
Şəmsi mənzilinə çatdırmalıydı.

Bilirdi dilini bütün dillərin,
Yer dili, göy dili, təbiət dili.
Dünyada nə varsa danışdırırdı,
Onun sevgi dili, məhəbbət dili.

Bəzəkdi, qabıqdı çöldə nə varsa,
Çölündən içinə doğru gedirdi.
Əkirdi, səpirdi, biçirdi ömrü,
Əkinə, biçinə doğru gedirdi.

Onun gəlişiylə Anadoluya,
Haqqın əfsanəsi, Şəmsi gəlirdi.
Yer üstə yeriyən bir xəzinənin,
Nəfəsi, ləhcəsi, ləmsi gəlirdi.

Şərqin tükənməyən sevgisi, eşqi,
Savaşı, barışı, döyüşü, məşqi.
Bağdadı, Hələbi, Şamı, Dəməşqi,
Yığılıb bir yerdə hamısı gəlirdi.

Təpədən-dırnağa nur oğlu nurdu,
Sel kimi havalı, çay kimi gurdu.
Yerdə yeriyirdi, göydə uçurdu,
Həm ocaq, həm torpaq, həm su gəlirdi.

İlahi sevgilər nə imiş, Allah,
Yerdə sən yanırsan atəş yerinə.
Axan ulduzlarla sən də axırsan,
Göydə sən yanırsan Günəş yerinə.

Bir şam əriyəndə sən əriyirsən,
Yanırsan odlara pərvanə kimi.
Həqiqət olsa da sevgin, kədərin,
Düşürsən dillərə əfsanə kimi.
Səhra alışanda, qum qovrulanda,
Qum kimi qovrulur haqq aşiqləri.
Tufan qabaranda, külək əsəndə,
Göylərə sovrulur haqq aşiqləri.
Hər daş parçasında nəbzi döyünür,
Odu səhralara yaraşıq verir.
Sellərə dönəndə gözünün yaşı,
Seli dəryalara yaraşıq verir.

Hər dəfə Tanrıya yaxınlaşanda,
Təzədən doğulur haqq aşiqləri.
Səs kimi yayılır dünya üzünə,
Nur kimi dağılır haqq aşiqləri.
Şəmsim də beləcə yol yeriyirdi,
Dağları, daşları aşıb gedirdi.
Zirvədə qar kimi təmizlənirdi,
Dərədə çay kimi daşıb gedirdi.
Mələklər gedirdi onunla birgə,
Mələyə, fələyə, torpağa, suya,
İlahi nəğmələr qoşub gedirdi.

Yer göyə, damla dəryaya, zərrə küllə, qərib vətənə, qartal zirvəyə, quş yuvaya can atan kimi Şəms də dağları, düzləri aşa-aşa, çayları-selləri keçə-keçə, bulaqların gözündən içə-içə, ağacların kölgəsində dincələ-dincələ adını eşitdiyi, üzünü görmədiyi həzrəti Mövlanaya can atırdı. Onunla görüşmək arzusu ilə alışıb-yanır, qəlbindən keçən, dodağında pıçıldayan misralar səhra küləklərinə qoşulub, qanadlanıb uçurdu. Şəmsin dodağından bu misralar süzülürdü:

Ey ulu Mövlana, səsimə səs ver,
Göstər işarəni, harda görüşək?
Ya mən göyə qalxım, ya sən yerə en,
Harda qərar tutsan orda görüşək.

Ayrılıq ürəyə vurmasın zədə,
Dədələr yerində əyləşsin dədə.
Həqiqət adlanan uca zirvədə,
Məhəbbət adlanan nurda görüşək.

Göstər, ululardan ulunu göstər,
Uluya yar olan qulunu göstər.
Yanmağın, bişməyin yolunu göstər,
Ocaqda, atəşdə, qorda görüşək.

TƏBRİZLİ ŞƏMS KONYADA

Girdi şəhər qapısından,
göz sevindi gördüyünə,
Şükür dedi, bu fürsəti
haqqın ona verdiyinə.
Zarafatmı gecə-gündüz
aylar ilə yol gedəsən,
Sevinirdi haqq diləyin
bəhrəsini dərdiyinə.

Konya bu gün aşıb-daşır,
qaynayırdı qazan kimi,
Oxuyurdu hər döngəsi
qopuz üstə ozan kimi.

Gəlib çata bilməsəydi
gözü-könlü sevən yerə,
Şəmsim payız yarpağıtək
saralardı xəzan kimi.

Öz alnının yazısıydı
onu bura çəkən qüdrət,
Kimdi yazan bəxtimizi
tale özü yazan kimi.

Nə çıxacaq qarşısına,
ürəyindən nələr keçir,
Sızırdı duyğular qəlbə,
damla daşdan sızan kimi.

Hara dönür, hara baxır,
Mövlananın ətri gəlir,
Eşqi uçurdu göylərə,
haqqa çatan əzan kimi.

Görən kimi tanıyardı
onu qaynar baxışından,
Mövlanamız neçə dəfə
onu röyada görmüşdü.

O, sərrafdı, bir tük belə
gözlərindən yayınmazdı,
Başı min bəla çəkmişdi,
gözümin qada görmüşdü.

Ayağında dəmir çarıq,
əlində bir dəmir əsa,
Səmərqənddən çıxan günü,
qumlu səhrada görmüşdü.

Gah batırdı, gah çıxırdı
dalğaların arasından,
Mahir üzən qəvvas kimi
coşan dəryada görmüşdü.

Hər girəndə yuxusuna
nə aləmlər yaradırdı,
Şəmsi ayrı tamaşada,
başqa dünyada görmüşdü.

Payızın yavaş-yavaş
qışa dönən çağında,
Tanrının duaları
dilində, dodağında.
Şəmsim Konyaya gəldi!
O, Konyaya varınca,
Sanki yeni doğuldu,
təzə dünyaya gəldi.
Konya imanla dolu
bir irfan şəhəriydi,

Alim qədrini bilən,
şairə qiymət verən,
Ürəyə işıq salıb
ağıla ziynət verən,
Bir iman şəhəriydi!
Sultanı şair idi,
şairi sultan idi,
Alimi, üləması
dillərdə dastan idi.
Bu gün Şəmslə açıldı
burda doğulan səhər,
Onu bağrına basdı
Konya adlı bir şəhər.

GÖRÜŞ

Şəms qəlbində bəslədiyi ən böyük arzuya çataçatda idi. Artıq Konyada idi. Yola-izə, daşa-divara, məscidə-mədrəsəyə hara baxırdısa, hamısında Mövlananı axtarırdı.

Müxtəlif dillərdən və müxtəlif dinlərdən olan insanların yerişində, duruşunda, baxışında, söhbətində, pıçıltılarında, söhbətlərində Mövlanadan soraq gəzirdi. Artıq gördüyündən, bildiyindən, eşitdiyindən, müşahidələrindən ona məlum olmuşdu ki, bu şəhərdə hamı bir nəfərlə nəfəs alır. Onun adı Mövlana Cəlaləddin Rumidir.

Şəms uzaqdan tanıdı
həzrəti Mövlananı,
Elə bil ki, min ildi
ona bağlıymış canı.
Bir ağ göyərçin kimi
uçuşundan tanıdı,
Altındakı ağ atın
qaçışından tanıdı.

Mövlana boylananda
izdihamın içinə,
Bir kənarda dayanan,
Qara paltar geyinmiş
uca bir kişi gördü,
Gördü, bildi, tanıdı,
qərib dərvişi gördü.
Onun sərraf gözləri
tanıdı öz Şəmsini,
Yuxuda gördüyünü
indi həyatda gördü.
Sevincindən özünü
Torpağın üstündə yox,
yeddinci qatda gördü.
Atdan endi quş kimi,
Şəmsə sarı yeridi,
Saçından dırnağına
ona vurulmuş kimi.
Ona sarı yeriyib
öpdü Şəmsin əlini,
Mövlana belə tapdı,
Şəms adlı günəşini,
Şəms adlı məşəlini.
Çaşıb qaldı izdiham,
Bu dərviş kimdir görən,
Alimlərin sultanı
öpür onun əlini,
Əyən hansı səbəbdi,
Bir dərvişin önündə
ucalıq heykəlini?
Ruh ilə ruh görüşdü,
can ilə can görüşdü,
Bir cahanın içinə
iki cahan görüşdü.

İlahi duyğuların,
Müqəddəs duyğusunda
qaynadılar, daşdılar,
Qardaş kimi birləşib,
dosttək qucaqlaşdılar.
İzdiham nə biləydi
bu görüş nə görüşdü,
Birdən-birə Mövlana
Dərvişi görən kimi
niyə bu hala düşdü?

Kök hardan güc alır, ruh kimdən gəlir,
Cəddini axtarır, hər kəs cəddini.
Uzaqdan-uzağa ətrini duyub,
Şəmsim tanımışdı Cəlaləddini.

Ruh verdi bədənə, can qatdı cana,
İki dağ bir eşqə əydi qəddini.
Dağ dağa qovuşdu, insan insana,
Şəmsim tanıyanda Cəlaləddini.

Bu görüş əbədi tarixə döndü,
Böyük bir həsrətin yıxdı səddini.
Ay Günəşi gördü, Günəş dünyanı,
Şəmsim tanıyanda Cəlaləddini.

Nə vaxt sevinir insan,
harda gülür taleyi?
Özünü eşq adlanan
dadda, tamda tapanda.
Böyük həqiqətlərə
tapşırıb öz canını,
Pərvanə sevgisini
yanan şamda tapanda.

Gecələr həmsöhbəti
ulduz olur, ay olur,
Gündüzlər məhəbbəti
könüllərə pay olur.
İnsan qalxıb, ucalıb
mələklərə tay olur,
Ruhunu Tanrıdakı
ehtişamda tapanda.

Üz-üzə dayananda
üzləri xoşbəxt olur,
Bir-birinə baxanda
gözləri xoşbəxt olur.
İki əl qanadlanıb
bir-birini sıxanda,
Salam alıb verəndə
sözləri xoşbəxt olur,
Sevib sevilənlərin.

Könül adlı taxtı var,
sevgi adlı şahı var,
Harda səcdəyə gəlsə,
orda səcdəgahı var.
Harda olursa olsun
üstündə Allahı var,
Sevib sevilənlərin.

Qəlb evində Məkkəsi,
Kəbəsi var, Hacı var,
Başında şahlıq quşu,
iman adlı tacı var.
Dərdi dağa dönsə də
eşq adlı əlacı var,
Sevib sevilənlərin.

Ruh qohumu ruhumuzdan
mayalanmış bir qüdrətdi,
Çağırdı Şəmsi Mövlana,
buyur dedi, gəl bəri gəl.
Tök yağını çırağıma,
düşmə mənim fərağıma,
Gəl ey qəlbimin qanadı,
gəl ey ruhumun pəri, gəl.

Uçan sənsən, uçur məni,
dönən sənsən, döndər məni,
Bildiyinə, sevdiyinə,
gördüyünə göndər məni.
Şəms eşqinə uçan mənəm,
mələk kimi en, dər məni,
Öz ruhunda ərit məni,
mənim ruhumda əri, gəl.

Axsın qanım, yansın canım,
məni eşqə bir qul tanı,
Özgələrdən heç soruşma,
məni özündə bil, tanı.
Gəl ey ruhlar sərkərdəsi,
gəl ey könüllər sultanı,
Ərlikdə bir ərənlik var,
gəl bu dərgahın əri, gəl.

Varlığına İlahinin
zərrələri hopan kişi,
Gur bir işıq dalğasıtək
al Günəşdən qopan kişi.
Uzaq-uzaq yollar yorub,
gəlib məni tapan kişi,
Gəl başımın ucalığı,
gəl, sözümün ləngəri, gəl.

Yorub qərib yolçu
uzaq yolları,
Xorasandan keçib,
Təbrizdən gəlib.
Sözü apaydındı
Ay-ulduz kimi,
Suyu dumdurudu
kəhrizdən gəlib.

Nə özünü incit,
nə ruhunu əz,
Könlü olanları
könüllərdə gəz.
Deməklə söhbəti,
sözü tükənməz,
Yükü eşq adlanan
dənizdən gəlib.

Doğmalar doğmadı
uzağa düşməz,
Sevən sevdiyindən
irağa düşməz.
Meyvə öz kökündən
qırağa düşməz,
Bizimdi, bizdəndi,
o, bizdən gəlib.

Ağlı, idrakı, təfəkkürü ilə bütün Şərqi heyrətə salan Mövlana kimi bir kişinin dilindən çıxan vəcdlə deyilmiş bu dəvətdən sonra coşmamaq, havalanmamaq, gör məni, bil məni, tanı məni deyən bir ərəni görməmək, bilməmək, tanımamaq olardımı. Şəms gəldi görmək üçün, gördü bilmək üçün, bildi tanımaq üçün. Mövlanaya qəlbinin sirlərini açmaqdan ötrü əlinə taleyin çoxdan göz-

lədiyi fürsət düşmüşdü. Açdı ürəyinin qapılarını, könül kitabını Mövlana üçün varaqlamağa başladı:

ŞƏMSİN ÜRƏK SÖZLƏRİ

Nahaq yerə uzaq yollar yormadım,
Nahaq yerə səni sudan, havadan,
Nahaq yerə səni səndən sormadım,
Mən gəlmişəm sənə verim nurumu,
Mən gəlmişəm sənə verim adımı,
Mən gəlmişəm səndə tapım dadımı.
Hürufiyəm, hərfim səni bilmişəm,
Bir sufiyəm, safım səni bilmişəm.
Göy üzündə uçur eşqin durnası,
Orda cərgəm, səfim səni bilmişəm.

Ağız nədi, dodaq nədi, dil nədi,
Dırnaq nədi, barmaq nədi, əl nədi.
Alın nədi, kirpik nədi, qaş nədi,
Ayaq nədi, bədən nədi, baş nədi.
Yanaq nədi, sifət nədi, üz nədi,
Baxmaq nədi, bəbək nədi, göz nədi.
Bilək nədi, dirsək nədi, qol nədi?
Gör nə qədər xəzinəmiz var bizim,
Bir bu qədər xəzinənin içində,
Bir bu qədər dəfinənin içində,
Bilirikmi haqqa gedən yol nədi?
Bil deyirdin, bilmək üçün gəlmişəm,
Gör deyirdin, görmək üçün gəlmişəm.
Bu dərgahda canı ruha tapşırıb,
Bu dərgahda ölmək üçün gəlmişəm.

Uçan quşdan, əsən yeldən soruşub,
Yerdə səni, göydə səni gəzirdim.

Duymaq üçün könüllərin dərdini,
Dil-dil ötən neydə səni gəzirdim.
Qismət kimi, ruzi kimi gəlmişəm,
Sən torpaqsan, mən su kimi gəlmişəm.
İllər boyu ürəyində tutduğun,
Bir müqəddəs arzu kimi gəlmişəm.
Bir ox kimi hədəflərə atılmaq,
Kaman kimi gərilmək var bu yerdə,
Bu yerlərə ölmək üçün gəlmişəm,
Ölən günü dirilmək var bu yerdə.

MÖVLANA İŞIĞINDA

Bu nə sınaq, nə yoxlama,
nə imtahan qapısıdır,
Hər millətə açıq olan
ulu cahan qapısıdır.
Ürəklərdən xəbər verən
könül və can qapısıdır,
Mömin – müdrik, aqil – cahil,
alim gəlsin, nadan gəlsin,
Keçən Mövlanadan keçsin,
gələn Mövlanadan gəlsin.

Ya imansız, ya imanlı,
ilqar-iman fərqi yoxdu,
Sevgi – nifrət, yalan – doğru,
yaxşı – yaman fərqi yoxdu.
Ya Musəvi, ya İsəvi,
ya müsəlman fərqi yoxdu,
Bu qapıda məhəbbətin
şərbətini dadan gəlsin,
Keçən Mövlanadan keçsin,
gələn Mövlanadan gəlsin.

Sevgisi tək bircə damla,
nifrəti qat-qat olsa da,
Ürəyində yeddi ləkə,
yeddi yerdən çat olsa da,
Şübhələrin caynağında
hər gün narahat olsa da,
Çəkinməsin bu dəvətdən,
ya bir axşam, ya dan gəlsin,
Keçən Mövlanadan keçsin,
gələn Mövlanadan gəlsin.

Mövlananın qapısından keçəndə,
Düşün incə, daşın incə, gir incə.
Bir əbədi dost qapısı taparsan,
O qapıdan saf ürəklə girincə.

Mən onu axtarırdım
canda bir cahan kimi,
Haqqa qovuşmaq üçün
haqqı-saya can atdım.
Varlığımı titrədən
bir sədanın dalınca,
İldən-ilə yeridim,
aydan-aya can atdım.

Heç bilmədim bu fikir
hardan düşdü beynimə,
Allahın ən şərəfli
yükü qondu çiynimə.
Söz mənə libas oldu,
sözü geydim əynimə,
Həzin bir bulaq idim,
daşqın çaya can atdım.

Torpaq verdi gücümü,
Günəş verdi ziyamı,

Tanrının dərgahında
yoğurdular mayamı.
Yaradanın özündən
aldım xeyir-duamı,
Bişmək, bişirmək üçün,
Mövlanaya can atdım.

İÇDƏN-İÇƏ GEDƏN YOL

Çəkildi xəlvətə ayım, günəşim,
Qırx gün, qırx gecəlik çilə çəkdilər.
Süzüldü duyğular, yandı fikirlər,
Qəlbin tellərini zilə çəkdilər.

Qırx gün bir hücrədə gün axşam oldu,
Alışan pərvanə, yanan şam oldu.
Biri şərbət oldu, biri cam oldu,
Gülün şirəsini gülə çəkdilər.

Gəzdilər başa baş ruh aləmini,
Tapdılar söhbətin, sözün çəmini.
Dünya qayğısını, həyat qəmini,
Onlar da daşıyıb belə çəkdilər.

Bir Allahdı, bir Mövlana, bir də ki, Şəms,
Üçlük nədi, üçü görmək istəyirəm.
Dindirən kim, danışan kim, susan kimdi,
Çölü gördüm, içi görmək istəyirəm.

Ruhda, canda dürlü-dürlü hallar gedir,
Şaxələnir hər tərəfə qollar gedir.
İçdən-içə görünməyən yollar gedir,
O yollarda köçü görmək istəyirəm.

Yerə sığmır, eşqi dönüb yer-göy olur,
Qəlbi, ruhu gah saz olur, gah ney olur.
İnsan necə heçdən gəlib hər şey olur,
Can gözümlə heçi görmək istəyirəm.

Dünyanın içində insan oğlu var,
İnsanın içində sevginin barı.
Mövlana yoluna qaytarmaq olmaz,
Dünya varı üçün yaşayanları.

Xam gələr, xam gedər bu yer üzündən,
İçi olmayanın çölü yoxdu, yox.
Allahı göydə yox, içində axtar,
Orda dirilər var, ölü yoxdu, yox!

Kar olmaq qorxutmur haqq adamını,
Qəlbinin qulağı var, eşidəcək.
Bəsirət gözünü açа bilibsə,
Kor haqqı görəcək, kar eşidəcək.

Tanrı nə gözdədi, nə qulaqdadı,
O, könül adlanan uca taxtadı.
Bişənlər, yananlar dərk edər onu,
Çiy qalan kəslərdən çox uzaqdadı.

Görünən bədəndi, başdı, ayaqdı,
Başın içindəki fikir görünməz.
Görünən ağızdı, dildi, dodaqdı,
Dildə söz, dodaqda zikir görünməz.

Bütün görünənlər göz qabağında,
Bütün görünməzlər iç aləmində.
Kimlər içəridən haqqa tapınsa,
Payı olmayacaq suç aləmində.

İşıq göz üçündü, səs qulaq üçün,
Dil dodaq üçündü, diş damaq üçün.
Çölün işlərini yerbəyer elə,
İçəri dünyanı yaşamaq üçün.

Bir göz qırpımında açıldı, soldu,
Üzdən alışanlar, çöldən yananlar.
Mövlanamız oldu, Şəmsimiz oldu,
İçindən, ruhundan işıqlananlar.

İstidən, sərindən keçdilər onlar,
Dayazdan, dərindən keçdilər onlar.
Verdi salamını üçlər, yeddilər,
Qırxların pirindən keçdilər onlar.
Eşqin sınağından, ruhun içindən,
Canın cövhərindən keçdilər onlar.
Su yada düşmədi qovrulsalar da,
Aclıq bilmədilər ac olsalar da.
Haqqın ayağında toza döndülər,
Ağıllı başlarda tac olsalar da.
Sən yoxsan, mən yoxam, tək orda yar var,
Şəmsin, Mövlananın dodaqlarında
Yara göndərilən pıçıltılar var.
Nəzir də ordadı, niyaz da orda,
Oruc da ordadı, namaz da orda.
Könüllə danışıq ney dilindədi,
Mələklə danışıq göy dilindədi.
Buludun söhbəti yağış dilində,
Günəşin söhbəti nur dilindədi.
İbadət söhbəti Tanrı dilində,
Qiyamət söhbəti sur dilindədi.
Bircə Allah bilir, bir də özləri,
Burda nə möcüzə, nə sirdi onlar.
Qapı örtülüdü, pəncərə bağlı,
Hücrədə könüllü əsirdi onlar.

Hər ağlın açmağa gücü çatmayan,
Bir sirrin içində min sirdi onlar.
Uca duyğuların gur ocağında,
Yandıqca yanırdı, bişirdi onlar.

Qırılıb qalmazdı yolda arzular,
Yol-yola bağlansa, köç-köçə gəlsə.
Allahım, dünyada nələr olardı,
Bütün qaranlıqlar səhər olardı.
Təbrizli Şəms ilə Mövlana kimi
Can-cana dayansa, iç-içə gəlsə!

Tut ağacı səs eləmir,
sakit durub öz yerində,
Sevgi saza çevriləndə
sədası o tutdan gəlir.

Bəndələrin ah-naləsi
ürəklərə sığmayanda,
Hopur uda, keçir neyə,
neydən gəlir, uddan gəlir.

Ölümün də, ölünün də
bu dünyada öz səsi var,
Səssizliyin səsinə bax,
qəbirdən tabutdan gəlir.

İki könül sultanı var,
ikisi də qula dönüb,
Toxumları, mayaları
vəhdəti-vucuddan gəlir.

Xəlvətilər xəlvətdədi,
bizə işarələr verir,
Dinlə deyir, ən güclü səs,
ən dərin sükutdan gəlir.

İKİ CANDA BİR ÜRƏK

Şəms gəlib bu yerə ayaq basandan,
Ustad əriyirdi eşqin içində.
Dəli bir dəryaydı Şəmsin sevdası,
Mövlana qalmışdı daşqın içində.
Çıxmışdı yadından məktəb, mədrəsə,
Fikri dəyişmişdi beş gün içində.
Baş-başa iki şam tüstülənirdi,
Yanırdı hücrənin, köşkün içində.
Mövlana itmişdi öz dünyasında,
Özünü sübhana bağışlamışdı.
Önündə bir dəniz dalğalanırdı,
Ömrünü tufana bağışlamışdı.
Şəmsə dəniz deyib, özünə damla,
Damlanı ümmana bağışlamışdı.
Onun dünyasının adı Şəms idi,
Dünyaya baxırdı Şəmsi görürdü.
Dünyanın içində bir cənnət kimi,
Konyaya baxırdı Şəmsi görürdü.
İşıqlı cümlədə, nurlu fikirdə,
Sevdiyi kitabda Şəmsi görürdü.
Verdiyi sualda, aldığı sözdə,
Tapdığı cavabda Şəmsi görürdü.
Can iki olsa da, ürək bir idi,
İman bir, güman bir, dilək bir idi.
Cəbrayıl açmışdı qanadlarını,
Onlara ruh verən mələk bir idi.
Dünyada nə qədər sirlər açıldı,
Çətin sualların tapıldı həlli.
Ruminin nəyi var Şəmsə əyandı,
Şəmsin nəyi varsa Rumiyə bəlli.
Bu görüş duyğular səltənətiydi.
Dünyanı yenidən tama gətirdi.
O, Şəmsin qəlbinə Mövlana eşqi,
Şəms onun ömrünə "Səma" gətirdi.

Tapar bir-birini sevən könüllər,
Dünyanın o başı, bu başı yoxdu.
İtirən ağlayar, tapan sevinər,
Səbəbsiz tökülən göz yaşı yoxdu.

Görən müridləri, tələbələri,
Gələn qonaqları donub, mat qalıb.
Nə yaxşı bir belə eşqin odunda,
Rumi kül olmayıb, salamat qalıb.
İlahi, belə də sevmək olarmı,
İlahi, belə də duymaq olarmı?
Dönüb bir dərvişin divanəsinə,
Bir cana bu qədər qıymaq olarmı?
Arifin dərdini ariflər bilər,
Cahillər nə bilsin nədi bu sevgi.
Sözünü oğula, qıza demədi,
Sözünü zamana dedi, bu sevgi.
Bu sevgi dedi ki, insan oğluna,
Dünyada insanlar çox-çox olsa da,
Hamı ərən deyil, hamı ər deyil.
Nə övlad, nə qadın, nə dost, nə sirdaş,
Tanrı varlığına, Allah eşqinə,
İlahi hökmünə bərabər deyil.
Uca Mövlananın uca taxtına.
Gəlmişdi Tanrının elçisi kimi.
Enmişdi torpağa ilahi eşqin,
Nizamı, sahmanı, ölçüsü kimi.
Bir mələk gəlmişdi dərviş donunda,
Həqiqət şəklində, ərmiş donunda.
Elmə bir aşiqlik gətirmişdi o!
Aşiqə sadiqlik gətirmişdi o!
Ömrə bir şirinlik gətirmişdi o!
Ağla bir dərinlik gətirmişdi o!
Səkkiz peyğəmbərin səkkiz sifəti,
Sufi ürəyində yer eləmişdi.

Hər biri Allahın nişanəsidi,
Şəmsi bir basılmaz ər eləmişdi[1]

Şəms sahib olmuşdu bu sifətlərə,
Mövlanam tabeydi həqiqətlərə.
Burda comərdlik də, ədalət də var,
Səbir də, dözüm də, dəyanət də var.
Allahdan bəndəyə göstərilən yol,
Bəndədən Allaha işarət də var.
Musa geyimindən bir sifət də var,
İsanın çıxdığı səyahət də var.
Bütün sifətlərin cəmi, hasili,
Əxlaq zirvəsində Məhəmməd də var.
Uca Mövlananın dərinliyinə,
Şəmsin ürəyində bir heyrət də var.
Mövlana qəlbində eşqin Şəmsinə,
Bir sonu görünməz məhəbbət də var.
Ruh-ruha, qan-qana, can-cana bağlı,
Canda nələr varsa cahana bağlı.
İnsan öyünməsin varidatıyla,
Nə varsa xaliqə, cahana bağlı.

SƏMA

Mövlananın dönmək eşqi
Şəmsin "Səma"sından gəlir,
Duyğuların ucasından,
ruhların xasından gəlir.
Bircə yerdə tutmur qərar,
hey dolanıb dönür insan,
Kiminin toyundan gəlir,
kiminin yasından gəlir.

[1] Şərqin ən məşhur alimlərindən olan böyük Sufi Bağdatlı Cüneydə görə sufidə 8 peyğəmbərdən 8 nişan olmalıdır.

Ömür bir pərvanə kimi
hey dolanır şam başına,
Beşikdən başlanan ömrün
son səsi "Yasin"dən gəlir.
Özbaşına yarpaq düşmür,
dönən varsa döndərən var,
Dönənlərə dönə-dönə
Tanrı gücü göndərən var.
Saat dönür Ay başına,
ay dolanır il başına,
Bülbülə bax, necə coşur,
hey dolanır gül başına.
Yetmiş yeddi millət olsa
tanıyacaq qibləsini,
Hamı gəlib dolanacaq
sevən bir könül başına.
Dünya dönür səs üstündə,
dünya dönür ney üstündə,
Dolanmayan heç nə yoxdu,
yer üstündə, göy üstündə.
Analar öz balasına
"başına fırlanım" – deyir,
Öz ömrünü qurban verib
"haqqa qurban canım" – deyir.
Ananın öz səması var,
balanın da öz səması,
Hərəkətdə, dönməkdədir,
ruh səması, söz səması.
Ölümdən öncə öldürür,
bədənlə kəfən göstərir,
Neçə məndən keçib-gedir,
axırda bir mən göstərir.
"Səma"dan başlanan yolun
sonu Meraca doğrudur,
Hər insanın içindəki
Kəbəyə, Haca doğrudur.

Bu elə bir yolçuluq ki,
haqqa ibadətdən keçir,
Haqqa varan kişilərin
yolları Cənnətdən keçir.
Orda gözə görünməz qəm,
çünki ruh qəmdən yuxarı,
Bir aləmdi qalxıb durar
iki aləmdən yuxarı.
Nə mən varam, nə sən varsan,
yer onundu, orda O var!
Eşq onundu, od onundu,
odda O var, nurda O var!
Gülən gözdə, yanan gözdə,
sevgilidə, yarda O var!
Nəfsi ölü, tamahı yox,
peyğəmbərlik zirvəsidir,
Məhəmmədlə Həradadır,
Musa ilə Turda O var!
İsrafil də xəbərdardır
Şəms Mövlana səmasından,
Qiyamətə qədər gedən
səsdə O var, surda O var!

AYRILIQ

Heyif, hər sevginin sonu ayrılıq,
Heyif, hər sevincin sonu kədərdir.
Bir eşqin yolunda həyatın gedir,
Ayılıb görürsən hər şey hədərdir.
Bir dosta can deyib, can eşidirsən,
Sağa boylananda, sola baxanda,
Görürsən düşmənin dağlar qədərdir.
İnsafın, imanın itdiyi yerdə,
Görürsən şeytandan bir qulluq gəlir,

Ləyaqət meydanı daralan günü,
Rəzalət adında çuğulluq gəlir.
Uca Fəzlullahı edam etdirən,
Hər addım başında pusan çuğulluq.
Böyük Nəsimini dar ağacında,
Cəllad bıçağıyla kəsən çuğulluq.
Qanı torpaq üstə "Ənəlhəq" yazan,
Həllacı boğazdan asan çuğulluq.
Hamını susduran, sakitləşdirən,
Özü ustalıqla susan çuğulluq.
Hər yanan işığın zülmətdir sonu,
İşıq keçən kimi qaranlıq gəlir.
Şeytanın işləri yaxşı gedəndə,
Abad könüllərə viranlıq gəlir.
Bəzən uzun çəkir dedi-qodular,
Bəzən zəlzələtək bir anlıq gəlir.
Bədxah var yanında hər xeyirxahın,
Hər yaxşı əzabı bir pisdən çəkib.
Allaha qalsaydı xoşbəxt olardı,
Adəm nə çəkibsə iblisdən çəkib.
Müdriklər meydandan çəkilən günü,
Ortaya özündən razılar düşür.
Pişiklər yeriyir pələngin üstə,
Filin arxasınca tazılar düşür.
Qısqanclıq nə qədər evlər dağıtdı,
Nə qədər saraylar yıxdı paxıllıq.
Başda qapaz oldu, ayaqda qandal,
Çoxunun sonuna çıxdı paxıllıq.
Hiylələr quruldu, torlar toxundu,
Quyular qazıldı yaxşılar üçün.
Üzə dur, ləkə vur, ev yıx, şər danış,
Böhtanlar yazıldı yaxşılar üçün.
Nə sakit ruhu var, nə rahat ömrü,
Yamanın əlindən yaxşı dad çəkir.
Dünyanın nə qədər dərd-azarı var,

Yığır hamısını istedad çəkir.
Şəmsin nə xəbəri çöldən, bayırdan,
Könül aləminə səyahətdədir.
İki can birləşib, bir cana dönüb,
Ruhla bədən kimi sıx vəhdətdədir.
Onun bir sözü var, bir sifəti var,
Nə bilsin ətrafı min sifətdədir.
Növbəyə dayanıb qeybət qıranlar,
Yaxadan əl çəkmir yaxa cıranlar.
Köklə budaq kimi bir doğmalıq var,
Kökü budaqlara qısqanır onlar.
Közlə ocaq kimi bir istilik var,
Közü ocaqlara qısqanır onlar.
Nadanlar arifi, xamlar ərmişi,
Dayazlar dərini həzm edə bilmir.
Şeytan fitvasına könül verənlər,
Haqqın işlərini həzm edə bilmir.
Gövhərin, incinin qədrini bilməz,
Dayaz nə bilsin ki, dərində nə var.
Ancaq Leyli bilər Məcnunluq nədir,
Ancaq Fərhad duyar Şirində nə var.
Nə bilsin Allahı dərk etməyənlər,
Haqqın ocağında, pirində nə var.
Nə İsa gün görüb, nə də Məhəmməd,
Biri çarmıx görüb, biri daşqalaq.
Haramı halalın gözünə qatır,
Yamandan yaxşıya vurulan calaq.
Nuhu, İbrahimi, Musası gəlsə,
Dirilib dünyanın İsası gəlsə,
İnsanın dünyada iblisdən böyük,
Şeytandan amansız bəlası yoxdu.
Neçə ki, dünyada şeytan var hələ,
Neçə ki, şeytana meydan var hələ,
Neçə ki, dincəlmir ara vuranlar,
Neçə ki, ayrılmır yara vuranlar,

Neçə ki, dillərdə dedi-qodu var,
İblisin hiyləsi, məkrin odu var,
Bu gözəl həyatın azad olmağı,
Bu qoca dünyanın xilası yoxdur.

Şəms dedi-qodunun hədəfindədi,
Qısqanclıq odundan qəlbə kin düşüb.
Nifrət yarışında, söz qovğasında,
Ortaya birinci Ələddin düşüb.
Şəmsi dindirəndə qovrulur içi,
Xoş sözü dilinə gətirə bilmir.
Xəyanət toxumu düşür qəlbinə,
Mərhəmət toxumu bitirə bilmir.
Gəlmə bir dərvişin oduna düşüb,
Atanın hamıdan aralanması,
Ata qəlbindəki biganəlikdən,
Oğul ürəyinin yaralanması,
Ona ağır gəlir, ona zor gəlir,
Ələddin bu işi götürə bilmir.
Mövlana çəkilib öz hücrəsinə,
Verib ürəyini Şəmsin səsinə,
Elə bil soyuyub evdən, eşikdən.
Sevdiyi qadından uzağa düşüb,
Müdriklər, müridlər hələ bir yana,
Doğma övladından uzağa düşüb.
Yemək də, içmək də çıxıb yadından,
Yeməyin dadından uzağa düşüb.

Kiçik bir dünyanın içindən çıxıb,
Böyük bir dünyanın izinə düşüb.
Yaradan göndərib səxavətiylə,
Bəxtinə Şəms adlı xəzinə düşüb.

Əhvalı dəyişib onu görəndən,
Onda bir dəlilik, divanəlik var.

Dünya nemətinə, ada, şöhrətə,
Mala, xəzinəyə, mülkə, dövlətə,
Onda bir soyuqluq, biganəlik var.
Dünya nemətinin keçib yanından,
Könül nemətini müqəddəs bilir.
Haqqa bağlılığı, eşqə qulluğu,
Ruhundan, qəlbindən gələn səs bilir.
Didilir ürəyi qəzəbdə, kində,
"Ələddin boğulur xiffət içində.
Qərib bir dərvişə nə ehtiyac var,
Atam ki dünyada hər elmə bələd.
Dərvişi görəndən özündə deyil,
Ona doğma olub bizə nabələd.
Bir ata ürəyi Tanrı qatında,
Bir oğul ürəyi dərd, təlaşdadı.
Gör dərviş haraya dırmaşıb, çıxıb,
Baş ayağa düşüb, ayaq başdadı".
Anlamır atanın ucalığını,
Ələddin peşiman, pərişan olub.
Dostu düşmən kimi görür gözləri,
İşə salmaq üçün bir xəyanəti,
Gedib düşmənlərlə barışan olub.
Fürsət yoxsulları məqam axtarır,
Nifrət qılıncını sıyırmaq üçün.
Xainlər güc verir xəyanətinə,
Şəmsi Mövlanadan ayırmaq üçün.

Ey Şəmsim, ey Şəmsəddinim!
Bu dünya heç dəyişmədi,
Yenə azğın tamahların
leş dağıdan leyləri var.
Dərisinə isti keçməz
adamları çox görmüşük,
Biganələr aləminin
nadanları, keyləri var.

Məhəbbətlə qucaq açan
doğma, əziz dünyamızın,
Doğmalıqdan uzaq olan
nə qədər ögeyləri var.
Yandıran da, bişirən də,
düşürən də sən özün ol,
Yer üzünün gör nə qədər
xamları var, çiyləri var.
Bu dünyanın hər dərdini
ancaq eşqi olan çəkər,
Eşqə düşən ürəklərin
dil-dil ötən neyləri var.

Nəfsinin nökəri, qulu olanlar,
Haqqı unutdular, haqdan azdılar.
Zərrəcə Allaha yaxınlaşsalar,
Şəmsi Mövlanadan qoparmazdılar.

ÖLMƏDƏN ÖNCƏ ÖLMƏK

Dilimi danışan dillərə,
Gözümü baxan gözlərə,
Ayağımı yeriyən ayaqlara,
Əlimi yaradan əllərə,
Qəlbimi xeyirxah əməllərə,
Təhvil verib
Mənə verilən ömrü
Parça-parça, tikə-tikə,
Buğum-buğum, damar-damar
bölmək istəyirəm,
Ölmədən öncə ölmək istəyirəm.

Yerli-yersiz çəkdiyim
amanları, ahları,

Doluya da, boşa da
tutduğum günahları,
Nəfsin toruna düşüb
elədiyim işləri,
Qumartək alışdığım
amansız vərdişləri,
Yersiz hərəkətləri,
faydasız gərdişləri
Məni canavar kimi
dağıdan tamahları,
Şahmat taxtalarında
oynatdığım şahları,
Adam yerinə qoyub
sürüdüyüm leşləri,
Parıltıya aldanıb
atdığım şeş-beşləri,
Dırnağım boyda olub
Məni yerdən oynadan
Cütlədiyim zərləri,
Ruh adlı, könül adlı
Yıxdığım qalaları,
yaxdığım şəhərləri,
Dərindən dərk edəndə,
Özüm öz halıma doyunca ağlamaq,
Doyunca gülmək istəyirəm,
Ölmədən öncə ölmək istəyirəm.

Töküb yarpaqlarımı
payız olmaq istəyirəm,
Çəkilib tənhalığa
yalqız olmaq istəyirəm.
Görüm açılandan sonra
solmaq necədir,
Görüm gurultusu qulaqbatıran
Yığıncaqlardan sonra

Fələklə baş-başa
qalmaq necədir.
Fələk məni ən ağır dərdə
tuş eləsin,
Məni içənlər şərab kimi yox,
dərd kimi nuş eləsin.
Görüm dözə bilərəmmi
ən ağır dərdə,
Görüm savaş açа bilərəmmi
dərd adlı namərdə.
Yatıb oyanmaq,
Xəstələnib sağalmaq,
Ölüb dirilmək
istəyirəm.
Min dəfə yığılıb,
Min dəfə gərilmək
istəyirəm.
Min dəfə açılıb,
Min dəfə solub,
Min dəfə bar verib
dərilmək istəyirəm.
Gedib, bu dünyaya
təzədən gəlmək istəyirəm,
Ölmədən öncə ölmək istəyirəm.

Ey ulu Mövlana!
Səni daha dərindən
duymaq üçün,
Qara torpağın üstünə
Qara başımı rahat
qoymaq üçün,
Odlu ehtiraslardan
qaçıb soyumaq üçün,
İlahi duyğuların ipək yumşaqlığında
rahat uyumaq üçün,
Peyğəmbər buyruğutək,

Ölmədən öncə
ölmək istəyirəm.
Ölmədən öncə ölmək –
Bu uca bəxtəvərlik
hamıya qismət olmur.
Kimə qismət olursa,
O, Allahın yanında
heç vaxt xəcalət olmur.

ÖLÜM

Bu nə çox baş aparır,
deyək baş aparmasın,
Onun bu yolsuz yolu
gərək başa varmasın.
O buraya gələndən
Bir amansız itkiyə
ürəyimiz yas tutur,
Mövlana söhbətini
Bir gün eşitməyəndə,
Qəlbi, beyni, ürəyi
paxır tutur, pas tutur.
O, öz yerini bilmir,
Xeyir-şərini bilmir.
Gərək ona göstərək
birdəfəlik yerini,
Bir də bizdən almasın
mürşidlərin pirini.
Tez itirək işini,
Ataq çöl-biyabana
quzğun yesin leşini.
Dinirik dildən vurur,
deyirik sözdən vurur,
Ağzımızı açmamış
durnanı gözdən vurur.

Dilini dinc saxlamır
sözləri çaşbaş vurur,
Hər ötənə söz atır,
hər yetənə daş vurur.
Dərvişin ağlı çaşıb,
Allahdan ayrı düşüb
Şeytanla qucaqlaşıb.
Bəyazit Bistamini
peyğəmbərə tay tutur,
Nə iş görürsə görsün
tutduğunu zay tutur.
Mövlana zərif, incə,
Başdan-başa düşüncə.
O isə tərs, ədabaz,
kobud, kəmfürsət, qaba,
Bizə elədikləri
gəlməz haqqa-hesaba.
Könül sultanlarını
gədanın biri saymır,
Biz lap canı cəhənnəm,
heç baş vəziri saymır.
O günü mədrəsədə
bizi gülünc elədi,
Baş vəzirə söz atdı,
sözü qılınc elədi.
Qurtarmasaq biz onun
həcvi-hədyan sözündən,
Vəzir-vüzəranın da
düşəcəyik gözündən.
Səni gözdən salsalar,
Dövlət üzünə baxmaz,
millət gözünə baxmaz,
Şah başını qaldırıb
xalqın üzünə baxmaz.
Bir gəlmə yabancının
qulaq versək dərsinə,

Avand işlərimizi
döndərəcək tərsinə.
Mövlana o gələndən
susa-susa lal olub,
Dünən həqiqət idi,
bu gün bir xəyal olub.
Bəlkə də sehrləyib,
sehrbazdı bu dərviş,
Bəlkə də şeyximizə,
Özünə bağlamaqçün
dua yazdı bu dərviş.
Əvvəlki Mövlanadan
yoxdur əsər-əlamət,
Şəmsin ayaq ucunda
Bükülür yumaq kimi
o boy-buxun, o qamət.
Peyğəmbər olsa ayrı,
o ki peyğəmbər deyil,
Ürəklərə hökmran,
ruhlara rəhbər deyil.
Mədrəsə Mövlanasız
qərib yetim kimidi,
Sınıb ürəklərimiz,
Qəlbimizin telləri
qırılmış sim kimidi.
Nə deyir, nə danışır,
nədən yazır bu dərviş,
Düşünürmü görəsən,
Bizi narazı salıb, öz ömrünə-gününə
qəbir qazır bu dərviş
Çeşmənin nə gücü var
hökm edə çaya qarşı,
Damlanın nə gücü var
dura dəryaya qarşı.
Elmdə nəyi çatmır
həzrəti Mövlananın,

Ona verib ruhunu,
ona tapşırıb canın.
Çayxanada bu söhbət,
meyxanada bu söhbət,
Evdə, çöldə, bayırda,
toyxanada bu söhbət.
Dönür çərxin gərdişi,
tərsə yazır yazılar,
Hər yerdə baş-başadır,
Mövlanadan küsənlər,
Şəmsdən narazılar.
Biri deyir asdıraq,
biri deyir kəsdirək,
Biri deyir qaçmağa,
köçməyə tələsdirək.
Kimin əlində qılınc,
kimin dilində zəhər,
Bu yaramaz işlərə
Baxır tamaşaçıtək
Konya kimi bir şəhər.
Şəhərin nə günahı
burda şəhər neyləsin,
Axşam düşən qaranlıq,
aydın səhər neyləsin.
Qılınc insan əlində,
qisas insan əlində,
Xəyanətdən biçilmiş
libas insan əlində.

...İşini gördü yağı,
Zülmətə döndü birdən
Şəmsin nurlu otağı.
Üz-üzə dayanıblar,
Cəllad yeddi, Şəms tək,
Hökmünü verdi fələk.

Nifrət, qisas, intiqam
şimşək kimi gurladı,
Yeddi cəllad əlində
yeddi qılınc parladı.
Döndü cəllad başından
Şəmsim aman istədi,
Bir-iki saatlığa
salamat can istədi.
İzin ver, Mövlanamla
gedim görüşüm, gəlim,
Onun ayaqlarına
son dəfə düşüm, gəlim.
Mən ölümdən qaçmıram,
yazan yazıb yazını,
Onunla qılmaq istər,
könlüm son namazını.
Gecə tamam yarıydı,
Onu yandırıb-yaxan
Ölümün qorxusu yox,
eşqin alovlarıydı.
Nə desin, necə desin
Həzrəti Mövlanaya
Qəfil gələn ölümün
dəhşətli xəbərini.
Tarix min il yazacaq,
Yaddaşlara hökm edən
bir gecənin şərini.
Mövlana öz Şəmsinin
Gözlərini qızarmış,
rəngini sarı gördü.
Onun baxışlarında
Solub gedən Günəşi,
Sərt bir soyuq gətirən
boranı, qarı gördü.
Elə ki, Mövlanamız
işdən xəbərdar oldu,

Bu gün dünya başına
qəfəsdən də dar oldu.
Bağrını yardı – Getmə!
Ona yalvardı – Getmə!
"Mən yetişdim əhdimə,
Mən qovuşdum cəddimə.
Eşq yolunda ölməyə
Acam, ləliyəm dedi.
Mən gələndə başımı,
Eşqə qurban demişdim,
O başı vermək üçün,
Mən getməliyəm! – dedi.
Mən nə həzrət Osmanam,
Nə də Əliyəm – dedi.
Onlar da şəhid oldu,
Öz eşqinin yolunda,
Mən getməliyəm!" – dedi.

Yeddi cəllad önündə
məğrur dayandı Şəmsim,
Böyük bir həqiqətin
oduna yandı Şəmsim.
Xəyanətin diliylə
sözünü yağı dedi,
Şəmsim də son sözünü
dərvişsayağı dedi:

Mən gedirəm haqq yolunda,
Canım eşqə halal olsun.
Harda axdı, kim axıtdı,
Qanım eşqə halal olsun.

Cəlaləddin cəlalımdı,
Həqiqətim, xəyalımdı.

Allah eşqi halalımdı,
Canım eşqə halal olsun.
Ulular qədər uluyam,
Haqqın yorulmaz quluyam.
Günəş ilə dopdoluyam,
Şanım eşqə halal olsun.

Sakitliyi, aramı yox,
Mövlanasız bayramı yox.
Halalı var, haramı yox,
Canım eşqə halal olsun.

Kandan məkana doğrudu,
Candan bir cana doğrudu.
Şəhidlik qana doğrudu,
Qanım eşqə halal olsun.

Vurun dedi boynumu!
Siz hardan biləsiz
nəçiyəm, kiməm dedi,
Sizə təslim olmuram,
eşqə təslimәm dedi.
Qəfil endi qılınclar
zərbə dalbadal oldu,
Bircə anın içində,
Ən böyük bir həqiqət
çevrildi xəyal oldu.
Allahın kitabından
"Şəms" adlanan surəni
Şəms oxuya-oxuya,
Allahına qovuşdu,
Yetdi əbədiyyətə,
daldı şirin yuxuya.
Təbrizdə doğan Günəş
Konyada batdı getdi,

Ən uca, ən müqəddəs
məqsədə çatdı getdi.
Ey Şəmsim, ey Şəmsəddinim!
Allaha layiq bəndəsən,
Haqqı uzaqda gəzmədin,
aradın daim səndə sən.
Ruhun elə havalandı,
qəlbin elə qanadlandı,
Sığışmadın bir mahala,
bir şəhərə, bir kəndə sən.
Çox özündən razıların
vaxtında verdin dərsini,
Çox kəməndə gəlməzləri
saldın eşqinlə bəndə sən.
Neçə nəsli bizdən əvvəl
sənə Mövlanamız dedi:
Şəmsim, harda olursan ol,
mən səndəyəm, sən məndəsən.
Eşqin min ili haqladı,
yeri-göyü qucaqladı,
Sevgi adlı bir dünyada,
könül adlı vətəndəsən.

Ey Şəmsim, ey Şəmsəddinim!
Çox əllərlə çox bostanlar daşlanıb.
Daş dəyənin yaraları göynəyib,
Daş atanlar əməlindən xoxlanıb.
Heç görmədim boş ağacı daşlayan,
Daşlar ancaq bar verənə tuşlanıb.
Cahil olan kotan çəkib ömrünə,
Arif olan torpaq kimi xışlanıb.
Yer üzündə qan axıtmaq söhbəti,
Bu dünyanın Habilindən,
Qabilindən başlanıb.

ŞAİRİM, ŞƏHİDİM – ŞƏMSİM

Şəhid peyğəmbəri, şəhid imamı,
Şəhid şairləri çoxdu dünyanın.
Şair qanı ilə suvarılmayan,
Bir qarış torpağı yoxdu dünyanın.

Gətir xəyalına Mənsur Həllacı,
Həq məndə var olub, mənəm həq dedi.
Başı bədənindən ayrılanda da,
"Ənəlhəq" söylədi, ənəlhəq dedi.

Tökdülər Tanrını görən gözləri,
Bəbəklər oyuldu həqiqət üstə.
Allahı insana endirdiyindən,
Dahilər soyuldu məhəbbət üstə.

Düz dedi, sərt dindi, açıq danışdı,
Heyif ki, haqq səsə qulaq kar oldu.
Başkəsən cəlladlar tarixlər boyu,
Şair dərisinə həvəskar oldu.

Dilini ağzında dustaq eləməz,
Şair içəridən azad olanda.
Eşşək bağlananda atın yerinə,
Ürəklər dağlayan fəryad olanda.

Bayrama çevrilər doğum günləri,
Ölümü dünyanı batırar yasa.
Qəbir evində də rahat yatamaz,
Böyük yalanları o, susdurmasa!

Ariflər, aqillər ölür söz üçün,
Şairi nadanın gözü götürmür.
Dağları çiynində götürür şair,
Yalandan deyilən sözü götürmür.

Təpədən-dırnağa eşq adamıdır,
Nəyi danışırsa, ürəkdən deyir.
Kişisən üz-üzə, döş-döşə dayan,
Saplama bıçağı kürəkdən deyir.

Dahilər həmişə haqqa güvənib,
Satdıran olmayıb, satan olmayıb.
Bir xalqın səsini batıran olub,
Şairin səsinə batan olmayıb.

Dağlardan güc alan arxa, dayağı,
Sellərdən güc alan əzələsi var.
Nahaqqın daşını daş üstə qoymaz,
İçində tufanı, zəlzələsi var.

Bir də danışmasın, dinməsin deyə,
Dilindən vurulur haqq şairləri.
Vuran qılıncını sərrast endirir,
Belindən vurulur haqq şairləri.

Harda susduruldu, nə vaxt vuruldu,
Tarix o günlərdən xəcalət çəkir.
Şairin üstünə əl qaldıranın,
Adının üstündən qara xətt çəkir.

Zaman güvənməsin zora, silaha,
Güc nə vəzirində, nə şahındadı.
Dar gündə millətlə yan-yana durar,
Şairlər Allahın dərgahındadı.

Amansız olanda şairə qarşı,
Zaman söz adında toxum əkmədi.
Şairin üzünə şilləni çəkdi,
Şairin başına sığal çəkmədi.

Şairi şairtək kim yaşatdısa,
Ona zaman-zaman rəhmət dedilər.
Şairi nahaqdan kim öldürdüsə,
Ölüb qalanına lənət dedilər.

Şairi yaşatmaq baş ucalığı,
Şərəfdi tarixi yaşatmaq qədər.
Şairi öldürmək ağır günahdı,
Ağırdı Allaha daş atmaq qədər.

Sal qayalar kimi dönməz inamı,
Dağa hökm eləyən inadı vardı.
Təkcə yeriməyə ayaqları yox,
Uzaq uçuşlara qanadı vardı.

Dolaşdı Bağdadı, Şamı, Hələbi,
Bəlxi, Ərzurumu, Sivası gəzdi.
Elə Allah dedi, Allah eşitdi,
Başında bu eşqin havası gəzdi.

Quran yaddaşında, Tanrı ruhunda,
Heç yerdə papağı günə vermədi.
Öyrənə-öyrənə öyrədən oldu,
Boş-boş söhbətlərə çənə vermədi.

O, Allah hökmündə görüb insanı,
Oğulsan var elə yoxu, deyirdi.
Hikmət kitabları oxumaq azdı,
Özünü kitabtək oxu, deyirdi.

Elə Şəmsin özüdü,
Ərdi, ərəndi sufi.
Könül bağçalarından,
Güllər dərəndi sufi.

Uzaq yolları ilə,
Qeyli-qalları ilə,
Hər cür halları ilə,
Haqqı görəndi sufi.

Əvvəli haqq, sonu haqq,
Həmi yağdı, həm çıraq.
Qəbrə girməzdən qabaq,
Qəlbə girəndi sufi.

Sufi külək kimi əsir, sovurur,
Külü dağıtsa da közü dirildir.
Alim şəhidliyi elmə nur saçır,
Şair şəhidliyi sözü dirildir.

Uca peyğəmbərlə, mələklə birgə,
Haqqın dərgahına gəlmək öyrədir.
Şəhidlik əbədi yaşamaq verir,
Şəhidlik adama ölmək öyrədir.

Allahdan icazə, izin olmasa,
Sən yolu seçsən də, yol səni seçməz.
Allahın yanında üzün olmasa,
İmza təsdiqləməz, qol səni seçməz.

O haqqa qovuşan haqq aşiqiydi,
Bir sevgi şahının quluna döndü.
Özü şəhidliyin zirvəsindədi,
Yolu aşiqlərin yoluna döndü.

DİNLƏ NEYİ

Haqdan başqa nə varsa,
Qəlbindən, ürəyindən
at hər şeyi dedilər,
Qeybdən bir səs gəlir,
dinlə, neyi dedilər.
İlahiyə bağlanan
könül bağınla dinlə,
Bütün hissiyyatınla,
can qulağınla dinlə.
Tabe oldu bu əmrə,
dinlədikcə dinlədi,
Bu səsin alovunda,
Sızladıqca sızladı,
inlədikcə inlədi.
Yetərincə qulaq asdı,
Gördü neydə iç dillənir,
gördü neydə çöl danışır.
Qırçın sular sığallanır,
ləpə dinir, göl danışır.
Gördü boyu bircə qarış,
Ancaq səsi haqqa varış,
Baş kəsilib, dil danışır.
Kəsilib ayağı-başı,
Özü çöptək qurusa da,
qurumur gözünün yaşı.
Asta-asta dilləndikcə
həzin səslər,
Sanki bir-bir dirilirdi
müqəddəslər.
Tapdı şirin həmsöhbəti
o meylini neyə verdi,
Neyin səsi gedib çatan
yerə verdi, göyə verdi.

O düşündü öz-özünə
bu yanmaqla ney nə deyir,
Bəlkə elə insanlara,
Mənim kimi alış deyir,
mənim kimi göynə deyir.
Hər qulağın işi deyil
o səsləri tuta bilə,
O səslərin yetişdiyi
ucalığa çata bilə.
Hər gözlünün işi deyil,
O səsdəki mənzərəni
görə bilə,
Hər ürəyin işi deyil,
O səsdəki mətləblərin
dünyasına girə bilə.
Könül gözü olan kəslər,
Ayrılıqdan şikayəti
neydə görür,
Neçə qəmli hekayəti
neydə görür.
Mövlananın ürəyitək ürək gərək,
Tuta səsin dediyini,
İsti əlin, od nəfəsin
dediyini.
Mövlananın naxışıtək
Tanrıdan bir naxış gərək,
Baxışıtək baxış gərək.
Qamışlıqda neyi görə,
ney içində səsi görə,
O səsdəki, nəfəsdəki
zili görə, pəsi görə.
Ancaq onda bilər insan:
Ürəkləri yaxan bu ney
kimdən deyir, nədən deyir,
O səs bütün varlığıyla
"Vətən!" – deyir, "Vətən!" – deyir.

Bir ney üçün Vətən nədir?
Qamışlığın içindəki
bir neyistan,
Neyistanın yaratdığı
qəmli dastan.
Vətənindən ayrılmasa
ağlamazdı,
İnsanların ürəyinə dağlar çəkib
dağlamazdı.
Qamışlığın arasında azad idi,
rahat idi,
Orda keçib-gedən günlər,
Ən gözəl bir həyat idi!
Mən o səsi dərk edəndə
başa düşdüm,
Neyin səsi qürbət elə
düşənlərin harayıdı.
Ürəyini Vətən dərdi
deşənlərin harayıdı,
Gözü yolda qalanların
harayıdı,
Yeri-yurdu talanların
harayıdı.

Mövlanadan soruşdum ki,
cavab ver, ey həzrəti pir,
Nə danışır, nə söyləyir,
hansı məqam üstədi ney.

Nə zamandan əsir oldun
başı kəsik bir qarğıya,
Səni niyə xəstə salıb,
bəlkə, özü xəstədi ney.

Sual dildən çıxan kimi
ustaddan bir cavab gəldi,
Dedi, oğul, mənlik deyil,
haqdan gələn bəsdədi ney.

Onu başı kəsilmişlər,
bağrı yananlar ağladıb,
Ona görə qan-yaş tökür,
hər yaralı kəsdədi ney.

Siz onda heç haray-həşir,
qışqır-bağır gördünüzmü,
Öz dərdini özü çəkir,
qəm kökündə, pəsdədi ney.

Hər gün dərdi olanların
dərdi üstə dərd gətirər,
Yavaş-yavaş keçir cana,
ağırdı, ahəstədi ney.

Başı kəsik, bağrı ləlik,
sinə dərddən dəlik-dəlik,
Vətənindən ayrı düşüb
qəmli bir qəfəsdədi ney.

Daşıdığı dərd ağrısı,
çəkdiyi insan yüküdü,
Hər alışıb-yanan canda,
hər isti nəfəsdədi ney.

Şəmsi soruş ağlayacaq,
Mövlana de çağlayacaq,
Yandırmağın ustadıdı,
yanmağa həvəsdədi ney.

Fikri başda nura dönüb,
saçlarına dən gətirib,
Zəmiləri dalğalanıb,
sünbülləri dən gətirib.

Varlığını pak Quranın
yeddi qatından keçirib,
Öz gücünü, qüdrətini
əlifdən-beydən gətirib.

Ona quşlar qanadında
nurlu kəlamlar daşıyıb,
Necə mələk peyğəmbərə
ayəni göydən gətirib.

Kimi saza, kimi tara,
kimi rübaba bağlanıb,
O ruhunu neydə tapıb,
onunku neydən gətirib.

Ulu Mövlana kimi günlərin bir günündə mən də bu səsin sehrinə düşdüm. Əvvəlcə neyi əlimə götürdüm. Baxdıqca baxdım, düşündükcə düşündüm. Adi bir qamış parçası nələr deyir, İlahi! Bizim bilmədiyimiz nə qədər sirr yatır bu çöl bitkisinin canında. O neyi mən də çaldım, ancaq Mövlana kimi çala bilmədim. O neyi mən də dinlədim, ancaq Mövlana kimi dinləyə bilmədim. Nə çaldım, nə inlədim, nə eşitdimsə ancaq Mövlananı gördüm, Mövlananı duydum, Mövlananı eşitdim. Bir az Mövlanaya, bir az da Şəmsə yaxınlaşmaq üçün Allahdan güc-qüvvət istədim. Neyi çala-çala mən də öz dilimdə neyin nəğməsini oxumağa başladım.

Yenə qalxıb, dağa-daşa ün salıb,
Çubuq neydi, qamış neydi, qarğı ney.
Xəstələrin yarasını sağaldar,
Dərman neydi, məlhəm neydi, sarğı ney.

Talan olmuş yurd-yuvadan danışır,
Havalanıb hər havadan danışır.

Gah Adəmdən, gah Həvvadan danışır,
Söhbət neydi, sual neydi, sorğu ney.

Qaynağıdı gözdən axan yaşların,
Sərtliyini yumşaldandı daşların.
Sirdaşıdı budaqların, quşların,
Bülbül neydi, qumru neydi, qırğı ney.

Ruhdu, səsdi könüllərin dirəyi,
Hasil olmaz ruhsuzların diləyi.
Aşiqlərin köz-köz olan ürəyi,
Ruhu neydi, qəlbi neydi, bağrı ney.

Tüstülənən ocaqların közüdü,
Mövlananın səsə dönmüş sözüdü.
Başı kəsik, bəlkə, dünya özüdü,
Hicran neydi, azar neydi, ağrı ney.

Ney deyir ki, məclisə gəl,
Susaq, dindirək dünyanı.
Yavaş-yavaş içimizə,
Sinək, sindirək dünyanı.

Nur geyinək əynimizə,
Eşqi düşsün beynimizə.
Yeri alaq çiynimizə,
Göydən endirək dünyanı.

Dizimizin heyi ilə,
Haqqın yeri-göyü ilə,
Mövlananın neyi ilə,
Dönək, döndərək dünyanı.

NEY BİZƏ DEYİR Kİ...

Ney bizə deyir ki, harama qaçma,
Tapşır başdan-başa halala ömrü.
Mülk çoxdan verilib Tanrıdan sənə,
Tapşırma nə mülkə, nə mala ömrü.

İblisə uyanın işləri yaşdı,
Hər addım başında büdrədi, çaşdı.
Hər kəs özü üçün heykəltəraşdı,
Özün öz ruhunla cilala ömrü.

Ney bizə deyir ki, bar ağacıtək,
Kökünü, gövdəni çiçəklərə ver.
Meyvə ləzzətini, çiçək ətrini,
Apar sevgi dolu ürəklərə ver.

Qoy o ürəklərə dolan sevgilər,
Budaqdan sallanan bar dadı versin.
Tanrı sevənlərə, sevilənlərə,
Çiçək təravəti, yar dadı versin.

Ney bizə deyir ki, haqqa güvənin,
Haqqa qovuşmağa üzünüz olsun.
Ürəkdən deməkçün deyilənləri,
Ariflər yanında üzün üz olsun.

Axsın mərhəmətdən gözdə yaşınız,
Ensin həqiqətə uca başınız.
Şeytana atmağa əldə daşınız,
Allaha deməyə sözünüz olsun.

Ney bizə deyir ki, ehtiyatlı ol,
Şəkərin içində zəhər gizlənib.
Soldurma ümidi, qırma diləyi,
Gecənin qoynunda səhər gizlənib.

Ümid qəlbin nuru, başın tacıdı,
Bəşərin əbədi ehtiyacıdı.
Baharı gözləyən bar ağacıdı,
Toxumun bətnində bəhər gizlənib.

Ney bizə deyir ki, görünməz sözü,
Sevdiyin insanın dodağında gör.
Qəlbin eşitməsə neyin səsini,
Günahı neydə yox, qulağında gör.

Bir ruh var, bir səs var hər incə şeydə,
Nəfəsi uddadı, naləsi neydə.
Sən Ayı, Günəşi axtarma göydə,
Haqqın iman adlı çırağında gör.

Ney bizə deyir ki, öldür nəfsini,
Müdriklər həmişə tamahdan qaçır.
İtirər isməti, atar həyanı.
Tamahdan qaçmayan, Allahdan qaçar.

Yollar çətin olar, buz qara çıxar,
Qaranlıq ürəkdən söz qara çıxar.
Sabahın yanında üz yara çıxar,
Bu günü olmayan sabahdan qaçar.

Ney bizə deyir ki, yamanlıq ölsün,
Yaxşılıq hər yerdə yarışa gəlsin.
Dünyanın ən alçaq düşməni belə,
Həqiqət naminə barışa gəlsin.

Ucadan uca var, böyükdən böyük,
Yekələr, harınlar yekələnməsin.
Bəşər övladının qəlbi, ürəyi,
Təkəbbür kiriylə ləkələnməsin.

Ney bizə deyir ki, vay o kəslərə,
Onu Yaradanın gözündən düşə.
Xata öz başına dilindən gələ,
Nə dərdə düşəndə özündən düşə.

Ona yer üzünün əşrəfi dedik,
Aqildi, dahidi, dühadı insan.
O gərək özünü ucuz tutmasın,
Dünyada hər şeydən bahadı insan.

Ney bizə deyir ki, adildi Allah,
Heç kəslə bir qəsdi-qərəzi yoxdu.
Onun məhəbbəti özü boydadı,
Çəkməyə bir ölçü, tərəzi yoxdu.

Qəzəbi qəlbindən kənara qoymur,
Şeytan nifrət adlı silah saxlayır.
Dağılıb gedərdi bu dünya çoxdan,
Onu dağılmaqdan Allah saxlayır.

Ney bizə deyir ki, heyifdir insan,
Onu şüşə kimi sındırmasınlar.
Cənnət sevgisiylə yanan kəsləri,
Cəhənnəm odunda yandırmasınlar.

İnsanın tək bircə xilas yolu var,
Hər gün təmizlənib durulmaq yolu.
Unudub özünə vurğunluğunu,
Yalnız Allahına vurulmaq yolu.

Ney bizə deyir ki, çaşma hesabda,
Xeyri də, şəri də yazan mələk var.
Günahı, savabı, yaxşını, pisi,
Yerbəyer eləyən çərxi-fələk var.

Kin adlı düşmən var, səbr adlı dost var,
Səbrini əzizlə, kini at yaşa.
Qəzəb zülmətində çürütmə ömrü,
Vicdan işığında salamat yaşa!

MÖVLANALIQ

Cahillər onu da başa düşmədi,
Şəmsini əlindən aldılar onun.
Rəzillik, xəbislik, paxıllıq, həsəd,
Qəlbini daşlara çaldılar onun.

Şairi anlamaz hər yoldan ötən,
Mövlana qədrini Keyqubad bilər.
Şahlıq məqamına, sultan taxtına,
Onun hər sözünü qol-qanad bilər.

Tarixdə birinin adı qalmayıb,
Hanı şər danışıb böhtan yazanlar.
Dirilik rəmzidi onun varlığı,
Öldü Mövlanaya qəbir qazanlar.

İkinci Kəbəyə dönüb türbəsi,
İnsan axınına Konya dar gəlir.
Gecəli, gündüzlü kəsilmir ara,
Gündə ziyarətə min zəvvar gəlir.

Özünü yormasın naşı bəndələr,
Allah qaldıranı bəndə yıxammaz.
Şair bostanına kim daş atdısa,
Tutduğu günahın altdan çıxammaz.

Xalqına doğmadı şair olanlar,
Doğma unudulmaz, yaddan yad çıxar.

İmansız, amansız çaxnaşmalardan,
Yenə sağ-salamat istedad çıxar.

Çiçəkdən zərifdi şair ürəyi,
Nə qəlbi incidər, nə zəhmət verər.
İnsana doğmalıq, haqqa bağlılıq,
Şair varlığına əzəmət verər.

Nə ordu, nə silah, nə bir qəhrəman,
Sözün gücü qədər sərhədlər aşmır.
Dünyanın işləri çətin olacaq,
Dünya nə qədər ki, Mövlanalaşmır!

Dünya yaxşı görür xalqı yaşadan,
Nə zərli taxt olub, nə tac olacaq.
Dünya dolanacaq sözün başına,
Tarix şairlərə möhtac olacaq!

Şair taleyini bir ağac kimi,
Kim kəsir, doğrayır, kim calaq vurur.
Allahın dostuna qalxır əlləri,
Hərə bir tərəfdən badalaq vurur.

Duyğular üşüyür, təfəkkür donur,
Ruhlara qar yağıb, sazaq düşəndə.
Cəmiyyət tutulur soyuqdəyməyə,
Sözün istisindən uzaq düşəndə.

Verən də özüdü, alan da özü,
Xalqa şah damardan yaxın xalıq var.
Hər şair özünü tanıya bilsə,
Hər kəsdə bir cürə Mövlanalıq var.

MÖVLANA SÖHBƏTDƏDİR

Gövhərtaş mədrəsəsi
qaynayır ocaq kimi,
Könüllərdə duyğular
çağlayır bulaq kimi.
İrfanın işığında,
imanın havasında,
Baxışlarda arzular
alışır çıraq kimi.
Havalı dəniz kimi
hey qabarır, çəkilir,
Mürşidlərin dalğası,
heyranların axını.
Lap uzaqdan gələn var,
lap yaxından olan var,
Allaha məhəbbətin
nə uzağı, yaxını?
Mövlananın gur eşqi
seltək aşıb-daşırdı,
Uzaqlar yaxınlaşır,
yadlar doğmalaşırdı.
Ana öz balasını
yanına çəkən kimi,
Torpaq yağan yağışı
canına çəkən kimi.
Hamını Mövlananın
cazibəsi çəkirdi,
Onun müdrik kəlamı,
şirin səsi çəkirdi.

Lal kəsilib daş-divar,
sükutdadır hər nə var,
Bu sükutdan səs alıb,
Mürşidin sinəsində
daşdı dövlət, daşdı var.

Bu sevginin sirləri
ilahi qüdrətdədir.
Düşünür, düşündürür
Mövlana söhbətdədir.
Qəlbi, ruhu zikrdə,
beyni, başı fikirdə,
dili, ağzı şükürdə,
Qəlbə, beynə, ağıla,
ürəyə xidmətdədir.
Yaraşır, yaraşdırır,
Mövlana söhbətdədir.

Haqqı özündə ara,
öz içində tap deyir,
Bu yolda hər əngəli
külüngünlə çap deyir.
Qurandı, Qurandadı
hər şeyə cavab deyir,
Dünyanı heyran qoyan
Qurana heyrətdədir,
Heyranların önündə
Mövlana söhbətdədir.

Qəlb evinə nur saçan
bir həyatdan danışır,
Yeddi qatda dayanmır,
yetmiş qatdan danışır.
Zərrənin içindəki
kainatdan danışır,
Ulu bir mərtəbədə,
ulu bir niyyətdədir,
Sevdirir, sevindirir,
Mövlana söhbətdədir.

MÖVLANA YOLU

Duru bir axara qaytarır bizi,
Əvvəldən axıra qaytarır bizi,
Ona yetişən yol, ondan keçən yol.
Onu səhralarda axtarmayın siz,
Onu dəryalarda axtarmayın siz,
Qəlbin içindədi qəlbə köçən yol.

Bircə damlasına dərya sığışan,
Bu yolun çayları, dənizləri var.
Heç vaxt bulanmayan axar-baxarı,
Dumduru, tərtəmiz kəhrizləri var.

Bu yola çıxanın yoxdu dincliyi,
Ruhu torpaqdadı, əli xışdadı.
Dünəndən sabaha, əvvəldən sona,
Gecəli-gündüzlü axtarışdadı.

Bu yolun ucundan tutub gedirəm,
Səsdən qüdrətli sükuta doğru.
Bu yolda ölümsüz duyğular yaşar,
Yol yoxdu ölümə, tabuta doğru.

Bu yol sınağından sağlam çıxanlar,
Sufiyə çevrilər, saf olar gedər.
Elə bir ucalıq tapar ki, onu,
Dağ kimi yüksəlib Qaf olar gedər.

Allaha bağlıdı təkliyin adı,
Allahdan aşağı bir təklik də var.
İnsan ürəyində, insan ruhunda,
Allah ucalıqda yüksəklik də var.

Qorxu yox bu yolun yolçularına,
Dənizin üstüylə yeriyər, batmaz.
İncitməz ruhunu qarışqanın da,
Könül sahibləri könül qanatmaz.

Bu yola qovuşmur hər yoldan ötən,
Bu yolun seçilmiş elçiləri var.
Girişdən çıxışa ulu dərgahın,
Dəqiq nizamları, ölçüləri var.

Məndən əsirgəmə bu yolçuluğu,
Allahım, bədən yox, ruh elə məni
Peyğəmbər nurunu çilə üstümə,
Qaytar Adəm elə, Nuh elə məni.

İnsan ucalıqdı, insan uludu,
İçi də, çölü də nurla doludu.
Heç kəs deməsin ki, nəfsin quludu,
Nəfsimin yolunda şah elə məni.

Qır mənim dünyayla bu bağlarımı,
Allahım, çək məni özünə bağla.
Bulanmış suyumun damarını kəs,
İrfan bulağının gözünə bağla.

Gör mənə nə qədər badalaq gəlib,
Nəfsimə qəzəbim, hiddətim artır.
Əbədi şöhrəti dərk elədikcə,
Ötəri şöhrətə nifrətim artır.

Ayır varlığımı bu varidatdan,
Öldür şöhrətimi, itir adımı.
Öldürmə, öldürmə, öldürmə, Allah,
Ruh kimi yaşamaq istedadımı.

Al mənim əlimdən varidatımı,
Çiynimdə suç adlı yüküm olmasın.
Elə yüngülləşim, elə paklaşım,
Çəkmək istəsələr, çəkim olmasın.

Sən mənə yük vermə dünya adında,
Varlıqda yox olmaq istedadı ver.
Mənəvi acların dostuna döndər,
Tamahdan tox olmaq istedadı ver.

Kafir olmuşamsa müslüm olaram,
Qalib olmuşamsa təslim olaram.
Böyük həqiqəti dərk elədikcə,
Özümə çevrilər, əslim olaram.

Nə ki, bu dünyada var oldum yetər,
O böyük varlıqda yox elə məni.
Yoxluqda var olmaq səadətimmiş,
Nəfsimin gözünə ox elə məni.

Olumda nə varsa, ölümə məhkum,
"Ölüm"də nə gözəl "olum" var imiş.
Mənasız yollarda yordum özümü,
Tanrıya aparan yolum var imiş.

Bəzəksiz-düzəksiz həqiqət yolu,
Bu yol Mövlananın keçdiyi yoldu.
Əfqandan baş alıb Anadoluya,
Konyada səmtini seçdiyi yoldu.

Bir illik, yüz illik, min illik deyil,
Bu yol bir zamansız zaman yoludu.
Torpaqdan günəşə, günəşdən yerə,
İnsaf körpüsüdü, iman yoludu.

Nura bələməkçün yerin üzünü,
Göyün üzündəki Samanyoludu.
Damlanın çiçəyə, şehin çəmənə,
Duyğunun ürəyə daman yoludu.

Arifin ruhudu, alimin nuru,
Tanrıya yol alıb bu cənnət yolu.
Yoluna, izinə qovuşdur ömrü,
Onsuz nə sənət var, nə sənət yolu.

Allahım, yolumu açıq elə sən,
Əqidə sarsılıb, inam itməsin.
Ondadı ruhumun əbədiyyəti,
Ömür-gün bitsə də, bu yol bitməsin.

Min il at sürsə də bu yer üzündə,
Başa çatdırammaz çapar bu yolu.
Ey ulu Mövlana, dadıma sən çat,
Qəlbimdən Rəbbimə apar bu yolu.

MÜNDƏRİCAT

Peyğəmbər 5
Mövlanadan Şəmsə doğru 293

Şərq East
Qərb West
1986-cı ildən since 1986

"Şərq-Qərb" Nəşriyyat Evinin məhsuludur.
www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul **SEVİL İSMAYILOVA**
Texniki redaktor **GÜLTƏKİN YUSİFOVA**
Dizayner **ELŞƏN QURBANOV**
Səhifələyici **XƏQANİ FƏRZALIYEV**
Korrektorlar **FƏRİDƏ SƏMƏDOVA**
ELŞAD ÇOBANLI
Nəşriyyat direktoru **RASİM MÜZƏFFƏRLİ**

Çapa imzalanmışdır: 28.02.2013. Format 60x90 1/16. Ofset çapı
Fiziki çap vərəqi 22,5. Sifariş N 12 211. Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49



"Şərq-Qərb" Nəşriyyat Evinin bütün kitablarının toplusu
http://www.eastwest.az/az/books/ ünvanda